ISSN 0206-4340

AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYATI TƏDRİSİ



BAKI - 2015

№ 3

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

Jurnal 1954-cü ildən nəşr olunur

2015, № 3 (245)
(İYUL – SENTYABR)

AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYATI TƏDRİSİ

(ELMİ-METODİK JURNAL)

BAKI - 2015

BU NÖMRƏDƏ

BƏXTİYAR VAHABZADƏ – 90

Ş.Mikayılov, A.Bəkirova – Gözəl şair, millətsevər insan 3

METODİKA: NƏZƏRİYYƏ VƏ TƏCRÜBƏ

A.Hacıyev – Yazı bacarıqlarının yaradılması və inkişafı ümumtəhsil məktəblərində Azərbaycan dili təliminin əsas istiqamətlərindən biri kimi 8
N.Əsgərov – Azərbaycan dili tarixi fənni: tədrisi, problemlər..... 12
B.Nəcəfova – VI sinifdə "Neman və Simnar" mövzusunda dərs 15
R.Zeynalova – Xəlil Rza Ulutürkün "Oğul həsrəti" şeirinin tədrisi zamanı şagirdlərə vətənpərvərlik ideyasının təbliği 18
V.Qurbanov – Dil təliminde inkişaf da var, problemlər də, həlli yolları da 21
İ.Verdiyev – Mütaliə həyati tələbat olmalıdır 26
S.Bilalova – "Xitab" mövzusunun öyrədilməsində yeni təlim texnologiyalarından istifadə.33
A.Mikayılova – Nitq mədəniyyəti və onun tədrisi yolları 38
A.Balıyev – Təlimdə varisilik: tarixilik və perspektivlik 45
N.Qasımova – Leksik vahidlərlə nitqi zənginləşdirmək üzrə inteqrativ nəticələr 48

DƏRSLİK: PROBLEMLƏR... VƏZİFƏLƏR...

N.Verdiyeva – Ənənə və yenilik 53

POLEMİKA

E.Nəcəfov – Yeni orfoqrafiya lüğətində mübahisəli məqamlar 59

AXTARIŞLAR, TAPINTILAR

K.Nəhmətova – "Qaraca qız"ın taleyi 63

GÖZƏL ŞAİR, MİLLƏTSEVƏR İNSAN

Şəmistan MİKAYILOV,
pedaqoji elmlər doktoru, professor,
Asya BƏKİROVA,
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

Bəxtiyar Vahabzadə elə yaddaqalan şəxsiyyətlərdəndir ki, onun yoxluğuna inanmaq olmur. Unudulmaz şairimiz Bəxtiyar Vahabzadə doğma Vətəninə, xalqına, dilinə olan münasibəti, əməlləri ilə insanların qəlbində yaşayır və yaşayacaqdır. Qədirbilən xalqımız onun xatirəsini əziz tutur və əməyini yüksək qiymətləndirir. Hörmətli prezidentimiz İ.Əliyev Azərbaycanın xalq şairi Bəxtiyar Vahabzadənin 90 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalamışdır. Qədirşünas cənab prezidentimiz İ.Əliyevin bu sərəncamı şairə - Bəxtiyar Vahabzadəyə dövlətimizin verdiyi böyük qiymətdir, ümumxalq məhəbbətinin ifadəsidir.

Biz Bəxtiyar Vahabzadə ilə həməsr olmuşuq, onun ədəbi, elmi, ictimai fəaliyyəti ilə yaxşı tanışıq, müxtəlif məzmunlu elmi yığıncaqlarda fikir mübadiləsi aparmışıq.

Bəxtiyar Vahabzadə, hər şeydən əvvəl, istedadlı şair, filologiya elmləri doktoru, professor kimi tanınmış alim idi. B.Vahabzadənin, bir-birindən fərqli olan bu sahələrin hər birində tutduğu mövqe, əldə etdiyi uğur haqqında ətraflı fikir söyləmək üçün geniş tədqiqat aparmaq tələb olunur. Bunlarla yanaşı, Bəxtiyar Vahabzadə Azərbaycan xalqının milli qeyrətini çəkən təəssübkeş ictimai xadim kimi hörmət qazanmışdır. O, yüksək istedada malik şair olaraq tanındı. Bəxtiyar Vahabzadə ictimai hadisələri, elmi-texniki yenilikləri böyük həssaslıqla duyan və əsərlərində poetik dillə ifadə edən şair idi. Onun lirik şeirləri, irihəcmli əsərləri oxucular tərəfindən maraqla qarşılanır. Məsələn, şair keçən əsrin 60-cı illərində Y.Qaqarinin kosmosa iki saatlıq uçuşunu "İki saat" adlı şeirində gözəl bir şəkildə tərənnüm etmişdir. O, bu uçuşu bəşəriyyətin milyon illər arzusunda olduğu hadisə kimi dəyərləndirir.

Yaxud, yenə də keçən əsrin ikinci yarısında ilk dəfə Amerikada ürəyin köçürülməsi tibb elmi sahəsində diqqətiçəkən yenilik sayılırdı. Hamının heyrətlə qarşıladığı bu elmi yenilik Bəxtiyar Vahabzadənin də təəccüblə qarşıladığı hadisə idi. Şair bu elmi tərəqqini "Baş" adlı şerində poetik bir dillə belə ifadə edir:

Qəribə aləmdir,
zəmanəmizdə,
İdrak təbiətlə yarışa girmiş...
Böyrək də,
ürək də,
qulaq da,
göz də

Bədəndən bədənə köçürülərmiş...

Şeir parçasından göründüyü kimi, şair misraları səpələnmiş vəziyyətdə qələmə almışdır, lakin səpələnmiş şəkildə verilsə də, heca vəzninin onbirlik (11) ölçüsündədir.

Qüdrətli şair bəşər tarixində yeni, həm də insanı heyrətə gətirən bu elmi nailiyyəti kiçik həcmli şeirində həssaslıqla ifadə edir.

"Baş" şeiri çox qısa olmasına baxmayaraq, insnı düşündürən dərin fəlsəfi mənaya malikdir. Şeirdə oxucu cavabı hələlik məlum olmayan sual qarşısında qalır:

"...Böyrəyi, ürəyi dəyişmək asan.
Bəs başı?"

Bəxtiyar Vahabzadə "İnsan təbiətlə yarışa girmiş" misrası ilə poetik şəkildə insan zəkasının çox şeyə qadir olduğunu bildirir. Şair demək istəyir ki, elmi-texniki inkişafla idrakın imkanları uyğun gəldikdə yeniliklər meydana çıxır.

Şair Bəxtiyar Vahabzadə çağdaş ədəbiyyatımızda ən çox oxunan, sevilən, həm də təkcə Azərbaycanda deyil, bütövlükdə türk dünyasında tanınan şəxsiyyətdir. Bunu müxtəlif zamanlarda ayrı-ayrı türkdilli ölkələrdə (Türkiyə, Özbəkistan, Qırğızıstan və s.) elmi ezamiyyətdə olduğum müddətdə, eləcə də həmin ölkələrdən gələn ziyalılarla aparılan müsahibələrdə hiss etmişik. Onu oxucularına sevdirən əsərlərində poetik ifadəsini tapan, həyata, vətəninə, xalqına, dilinə olan münasibət və əsərlərindəki fəlsəfi tutumdur. Ümumiyyətlə götürdükdə, şairin bədii yaradıcılığı elmi məlumat baxımından fərqlənir, nədən yazırsa yazsın, oxucu orada kiçik də olsa, elmi-texniki yenilik, xalqın tarixi, adət-ənənəsi və s. haqqında da məlumat alır ki, bu cəhəti də şairin poemalarında daha aydın görmək olur. Fikrimizcə, bu cəhət Bəxtiyar Vahabzadənin, eyni zamanda elmi yaradıcılıqla da məşğul olmasından irəli gəlir.

Bəxtiyar Vahabzadə milli şairdir. Vətənimiz, xalqımız, dilimiz, musiqimiz, ədəbiyyatımız və s. onun üçün ən ülvi anlayışlardır. Şairin fikrincə, vətənimizlə, xalqımızla bağlı hər nə varsa, qoruyub saxlamalı və gələcək nəsillərə ötürməliyik. Fikir aydınlığı üçün şairin "Ana dili" şeirindən bir parçaya nəzər salmaq olar:

Bu dil – bizim ruhumuz, eşqimiz, canımızdır,
Bu dil – bir-birimizə əhd-peymanımızdır.
Bu dil – tanıtmış bizə bu dünyada hər şeyi,
Bu dil - əcdadımızın bizə miras verdiyi
Qiymətli xəzinədir, onu gözlərimiztək
Qoruyub nəsillərə biz də hədiyyə verək.

Gətirilən parçadan aydın olur ki, şair ana dilini – Azərbaycan dilini "xalqın ruhu..." adlandırır, bu dil vasitəsilə birbirimizlə əhd-peyman edirik, bu dil əcdadımızdan bizə miras qaldığı üçün biz də onun incəliyini qoruyub saxlamaqla gələcək nəsillərə ötürməliyik. Ümumiyyətlə deyilsə, dilimiz ən ülvi, müqəddəs milli-mənəvi dəyərimizdir, onun zərifliyinin, ahəngdarlığının qorunub saxlanması hər bir azərbaycanlının borcudur.

Bütövlükdə Bəxtiyar Vahabzadə yaradıcılığında milli-mənəvi dəyərlərə münasibət, onun qədir-qiymətinin bilinməsi, qorunub saxlanılaraq gələcək nəsillərə ötürülməsinə qayğı göstərmək mühüm yer tutur. Bu baxımdan yanaşdıqda, şairin "Muğam" poemasını xüsusi qeyd etmək lazım gəlir.

Azərbaycan xalqının çox zəngin milli-mənəvi dəyərini sadalamadan, müxtəsər şəkildə demək olar: bu xalq – Azərbaycan xalqı iki şey - ədəbiyyatı və musiqisi ilə daha çox öyünməkdə, fəxr etməkdə haqlıdır. Buna görə də Bəxtiyar yaradıcılığında "Muğam" poemasının xüsusi yeri var desək, səhvə yol vermərik. Bu poemada müəllifin "Muğam" növlərini səciyyələndirməsi bizə Nizami Gəncəvinin "Xosrov və Şirin" əsərində öz dövründə sevilə-

sevilə dinlənilən musiqi havalarının ("Gənci-badavərd", "Gənci-gav", "Şəbdiz", "Bağı-Şirin", "Kini-Səyavuş", "Kini-İrəc" və s.) hər birinin məzmunu haqqında məlumat verdiyi kimi, Bəxtiyar Vahabzadə də Muğamın hər növünün məzmunu – ahəngi haqqında poetik açıqlama verir ki, (bənzətmə bizimdir) bu açıqlama ifaçı üçün də, dinləyici üçün də olduqca faydalıdır. Fikir aydınlığı üçün "Muğam" poemasından bir parçanı nəzərdən keçirmək lazım gəlir:

Dağlarda göynəyən Məcnundur Cegah,
Rast – onun atası... Nəsihət eylər.
Məcnun səhralara gətirər pənah,
Ata bu sevdanı məzəmmət eylər.
Rast – müdrik bir ağıl, dərin düşüncə,
Danışır təmkinlə, aramla tək-tək,
Segah – bir istəyin, eşqin dalınca
Mələyə-mələyə qaçan bir ürkək.
Rast - çılğın qəlblərə bir ağsaqqalın
Nəsihət nidası, öyüd səsidir.
Bir zaman büdrəyən qəlbin, kamalın
Ayılıb özünü dərk etməsidir.
Segah – nalə çəkən, Rast tədbirlidir,
Vüqarlı, dözümlü, o, səbirlidir...

Oxucu anlayır ki, hər bir muğamın ahəngində müəyyən bir əhval ifadə olunur: - "Cegah"da daxili həyəcan, "Çahargah"da mübarizəyə çağırış, "Rast"da müdriklik, təmkinlilik, səbirlilik ifadə olunur. Yaxud: "Bayatı-Şiraz" muğamını

"Muğamat qəsrimin gözəl gəlini
Şövkəti-şanıdır Bayatı-Şiraz..."
deyərək belə səciyyələndirir.

Şair muğamın insan qəlbinə təsir gücünü çox güclü bir bənzətmə ilə ifadə edərək oxucunu heyrətə gətirir:

"...Nə güman eyləmisən ondakı tilsimləri sən,
"Kürü ahıyla qurutdu", "Salı yandırdı" muğam."

Müəllif xalq bayatılarından çox ustalıqla istifadə edərək "Kürü qurutdu", "Salı yandırdı" muğam" kimi mübaliğələr işlətməsi əsərin təsir gücünü artırır, onun bədii dəyərini daha da qüvvətləndirir.

Bəxtiyar Vahabzadəni bir şair olaraq daha çox düşündürən məsələ Azərbaycan, onun ikiyə bölünməsi, nə zaman bu tarixi ədalətsizliyin aradan qaldırılaraq bütöv Azərbaycan görmək arzusu olmuşdur. Şair bu ədalətsizliyə - bir xalqın ikiyə bölünməsinə münasibətini hələ kommunist ideologiyasının tüğyan etdiyi bir dövrdə - 1959-cu ildə "Gülüstan" poemasını yazmaqla bildirmişdir. Təsadüfi deyil ki, şair bu əsərini cənubi Azərbaycanın azadlığı uğrunda canlarından keçən Səttar xan, Şeyx Məhəmməd Xiyabani və Pişəvərinin xatirəsinə həsr etmişdir. Əslində şair "Gülüstan" poemasında rus imperiyasından narazılığını ifadə edir. Bəxtiyar Vahabzadə bu poemeda senzuradan yayınmaq üçün M.F.Axundzadənin dediyi bir üslubdan – tənqid hədəfi kimi götürdüyü hadisənin zamanını dəyişmək, yüz il dala ataraq sözünü demək üslubundan istifadə etmişdir. Hadisələrə bu cür yanaşma geniş yayılmış bir xalq misalı – "qızım sənə deyirəm, gəlinim sən eşit" ilə üst-üstə düşür. Başqa sözlə, şairin əsas ideyası sovet imperiyasından narazılığını bildirmək və ondan azad olmaq arzusunu ifadə etmək idi. Bunun üçün hadisənin başlanğıcına Azərbaycanı ikiyə bölən "Gülüstan" sazişinin bağlanması yada salınır, poemada bu hadisə acı bir xatirə kimi danışılır.

...Axı kim bu haqqı vermişdir Sizə,
Sizi kim çağırmış, Vətənimizə?
Neçə vaxt səngərdə hey ulaşdılar,
Gülüstan kəndində sövdalaşdılar
Bir ölkə ikiyə
Ayrılsın deyə!...
Göy də guruldamış deyirlər o gün,
Çölləri, düzləri buludlar sarmış.
O göy gurultusu oğuz xaqanın

Ruhuymuş, hönkürüb fəryad qoparmış...

Misraların məzmunundan aydın olur ki, şair bu hadisəni ürək ağrısı ilə yad edir, Oğuz xaqanının şəxsində Azərbaycan xalqının əcdadını – tarixi keçmişini oxucuya xatırladır.

Bəxtiyar Vahabzadə 40 (qırx) ildən sonra bu poemanı – "Gülüstan" poemasının ikinci hissəsini yazır (1999), şair bu hissəni "İstiqlal" adlandırır. Həmin hissənin belə adlandırılması təsadüfi deyil, Azərbaycanın bir hissəsinin – Şimali Azərbaycanın Sovet imperiyasının tərkibindən azad olub, müstəqillik qazanmasının ifadəsidir. Vətənpərvər şair Azərbaycanın müstəqillik əldə etməsindən yaranan sevincini oxucuya belə bildirir:

Ölmədi, o günü gördü Bəxtiyar
Dedi: - Haqq önündə zor bərbad olsun.
Dedi: - Mən o günü gördüm, Şəhriyar,
Qabaqda işıq var, ruhun şad olsun.

Misralardan göründüyü kimi, o, Şimali Azərbaycanın istiqlalı münasibəti ilə sevinc hissini ifadə edir, qabaqda işıq olduğunu Şəhriyarın ruhuna bildirir, nəzərdə tutduğu işıq isə Azərbaycanı şairin bütöv görmək arzusudur. Poemanın son misralarında oxuyuruq:

Salaq yadımıza bu gün, cahanın
Rəngləri dəyişən beş qitəsini.
Biz də görəcəyik Azərbaycanın
Güneyli-quzeyli xəritəsini.

Gətirilən nümunələrin təhlilindən aydın olur ki, Bəxtiyar Vahabzadənin yaradıcılığı Azərbaycan xalqının tarixi, mədəniyyəti, real həyatı ilə bağlı olmuşdur. Xalqımızın yaxın keçmişinə nəzər saldıqda, bu cəhəti daha aydın görmək olur. Şairin belə əsərlərindən biri "Şəhidlər" poemasıdır. Bu poemada müəllif keçən əsrin sonlarında Azərbaycan xalqının azadlığı uğrunda mübarizədə canlarını vətən yolunda qurban verərək şəhidlik zirvəsinə yüksəlmiş insanların faciəli, faciəli olduğu qədər də şərəfli ölümlərinə həsr etmişdir.

Şair bu əsərində 1990-cı il yanvarın 19-20-də imperiya ordusunun Azərbaycana ağır texnika ilə ordu yeritməsini, silahsız, dinc insanlara qarşı silah işlətməsini, xalqın azadlığı uğrunda mübarizə əzəmətini qırmaq təşəbbüsünü ittiham edir. Bu poemanı biz 90-cı il hadisələrinin real təsvirini verən bir əsər kimi qiymətləndiririk. Bəxtiyar Vahabzadə bu mübarizənin ön sıralarında gedən vətənpərvər şəxslərdən biri kimi diqqəti çəkirdi. Poemada "Nə istəyir bu millət", "Təzadlar içində"...kimi başlıqlar altında mübarizənin mahiyyəti; sovet ictimai quruluşunun təzadlı mahiyyəti, xalqın həyat tərzinə dözə bilməməsi, azad yaşamaq arzusu poetik dillə real ifadə olunur. 70 il müddətində özünü azadlıq ordusu kimi tanıtdıran qızıl ordunun silahsız adamlara ağır texnika ilə hücumu təzad deyil, bəs nədir? Şair sözlə əməl arasında olan təzadı - "Üzümü tuturam sizə mən bu gün, əsillinəsilli rus ziyalısı" – deyərək fikrini açıq söyləyir: "yüksək kürsülərdə dediyimiz "həqiqət", "ədalət" sözləri qəlbimizdən hara qaçmışdır. Şair rus ziyalılarına müraciət edərək L.Tolstoy, A.Puşkin kimi söz sənətkarlarının insanı yaşatmaq haqqında fikirlərinə varis kimi əməl etməyin şərəf və hünər olduğunu xatırladır, onları insanlığın qədrinui bilməyə çağırır.

Poemada şəhid məzarları dilə gətirilir: "Axı, biz neyləmişdik?" kimi ritorik suallar qoyulur, Azərbaycanda törədilən faciə üçün heç bir əsas olmadığı, səbəbsiz olaraq xalqa edilən qəsd adlandırılır.

Əsərdə aydın bir fikir də ifadə olunur: Azərbaycana edilən bu qəsd ağır faciədir, lakin nə qədər ağır olsa da, Azərbaycan xalqının əzmini qıra bilmədi, müstəqilliyin əsasını qoydu. Poemada oxuyuruq:

Gəlin ölçə bilək xeyri, ziyanı,
Bəzən əvəzidir on qış, bir yazın,
Bizim şəhidlərin müqəddəs qanı,
Bəlkə də behidir sabahımızın.

Azərbaycan xalqı, eləcə də bir sıra başqa xalqlar Bəxtiyar Vahabzadənin timsalında iki Bəxtiyar tanıyır: şair Bəxtiyar; alim Bəxtiyar. O, istedadlı şair olmaqla yanaşı, eyni zamanda tanınmış filoloq alim – filologiya elmlər doktoru, professor idi. Ömrünün sonuna qədər Bakı Dövlət Universitetində elmi kadrların hazırlanması sahəsində yorulmadan çalışmışdır. Bəxtiyar Vahabzadənin şəxsində bədii təfəkkürlə elmi təfəkkür vəhdətdə idi. Bəxtiyar Vahabzadə yaradıcılığında şairlik istedadı ilə elmi təhlil süzgəci qoşa qanad təşkil edir. Bunun nəticəsidir ki, onun ictimai-siyasi mövzuda yazılmış, vətənin gözəlliklərini vəsf edən sayagəlməz sənət nümunələrini əhatə edən bədii yaradıcılığı ilə yanaşı, tədqiqat işlərinin nəticəsi kimi meydana çıxan filoloji yaradıcılığı da diqqəti cəlb edir. Bəxtiyar Vahabzadə Azərbaycanın iki böyük söz sənətkarının – Məhəmməd Füzuli və Səməd Vurğunun yaradıcılıq yolunu tədqiq edib "Şəbi-hicran" poemasını (1958), "Səməd Vurğun" monoqrafiyasını (1968) yazmışdır. Hər iki əsərdə tədqiqat obyekti hərtərəfli araşdırılır və obyektiv qənaətə gəlinir. "Şəbi-hicran" bədii əsərdir, poetik vüsət üstünlük təşkil edir, oxucunun diqqətini cəlb edən poetik çalarlar da tədqiqat obyektinin – Məhəmməd Füzulinin yaradıcılıq xüsusiyyəti ilə bağlıdır. Bunu aydın təsəvvür etmək üçün əsərə verilən ada – "Şəbi-hicran" ifadisinə nəzər salmaq kifayətdir, müxtəsər şəkildə desək, Füzulinin özünün həyatı ilə əlaqədar işlətdiyi ifadədir.

Bəxtiyar Vahabzadə "Səməd Vurğun" monoqrafiyasında tədqiqat obyektini hərtərəfli təhlil süzgəcindən keçirdikdən sonra belə nəticəyə gəlir: "S.Vurğun yaradıcılığının böyüklüyü, hər şeydən əvvəl, onun realizmində özünü göstərir. Lakin bəzi hallarda mücərrəd romantikaya uyduğu zaman səyyar xəyalının qanadlarında uçur, bu zaman şairin sözü də, səsi də zəifləyir. Şairin romantikası da həyat həqiqətlərinə əsaslandığı zaman güclüdür, qüvvətlidir.

Səməd Vurğun həmişə ülvi ideallar, böyük duyğu və arzularla yaşamış və sənətini də bu idealların tərənnümünə həsr etmişdir".

Bəzi yaradıcılıq nümunələrinin (bu məqalədə şairin bütün yaradıcılığını əhatə etmək mümkün deyil) qısa təhlilindən aydın olur ki, Bəxtiyar Vahabzadənin yaradıcılığı vətənlə, xalqımızın həyat tərzi, mədəniyyəti, tarixi ilə bağlı olmuşdur. Vətənə, Azərbaycan dilinə, onun saflığının qorunmasına, mədəniyyətinə, dövlətçiliyinə sevgi onun yaradıcılığının ruhunu təşkil edir. Ona görə də qədirbilən dövlətimiz, ədəbi-elmi ictimaiyyətimiz onun vətənpərvərliyini, Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə münasibətini həmişə qiymətləndirmiş, müxtəlif mükafatlarla təltif etmişdir.

Azərbaycanın xalq şairi filologiya elmlər doktoru, professor Bəxtiyar Vahabzadə SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı, AMEA-nın həqiqi üzvü, görkəmli ictimai xadim idi.

Azərbaycanın xalq şairi Bəxtiyar Vahabzadə indi ikinci dünyasında – haqq dünyasındadır. Qoy onun uyuduğu müqəddəs vətən torpağı zərif yun kimi isti və yumşaq olsun. Bəxtiyar Vahabzadə vətənə, xalqımıza münasibəti ilə qədirbilən adamların qəlbində həmişə yaşayacaqdır.

YAZI BACARIQLARININ YARADILMASI VƏ İNKİŞAFI ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ AZƏRBAYCAN DİLİ TƏLİMİNİN ƏSAS İSTİQAMƏTLƏRİNDƏN BİRİ KİMİ

Asif HACIYEV,
ARTPİ-nin şöbə müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent

Açar sözlər: *yazı bacarıqları, nitq, təlim, inkişaf, norma.*
Ключевые слова: *письменные навыки, речь, обучение, развитие, норма.*
Keywords: *writing skills, speech, training, development, norm.*

Təlimə metodoloji mahiyyət kəsb edən baxışların dəyişməsi ümumtəhsil məktəblərində tədris edilən bütün fənlərin, o cümlədən "Azərbaycan dili" fənninin məzmunca köklü şəkildə yeniləşməsi ilə nəticələndi. Dilin daxili quruluşunu əks etdirən linqvistik bilik və bacarıqların formalaşdırılması üzərində qurulmuş ənənəvi metodikadan fərqli olaraq, yeni yanaşmada dilin nitqin fəaliyyət növlərinə istinadən tədrisi əsas götürüldü ki, bu da şagirdlərdə hərtərəfli nitq vərdişlərinin formalaşmasını başlıca məqsəd kimi reallaşdırmağa geniş imkanlar açmış oldu. Ümumi təhsilin hər bir səviyyəsində (ibtidai, orta və tam orta) və eləcə də hər bir sinfin sonunda fəndən gözlənilən nəticələrin, hər şeydən öncə, mədəni nitqlə bağlı bacarıqları əhatə etməsi təlim prosesinin bu istiqamətdə təşkilinə təsiredici təkan verdi. Artıq dərslərin müxtəlif səpkili dil hadisələrini özündə ehtiva edən tərif, qayda və şərhlərin əzbərlədilməsi, rabitəli əlaqədə olmayan cümlələr və ya sözlər əsasnda tərtib edilmiş sadə çalışmaların yerinə yetirilməsi yolu ilə keçirilməsi şagirdlərin idraki fəallığı üzərində qurulmuş müasir təlim prosesinin tələblərini ödəmir. Müasir dil dərsləri daha çox milli və bəşəri dəyərlər aşılayan bədii və bədii-publisistik mətnlər vasitəsilə şagirdlərdə nəticəyönlü həyati bacarıqlar aşılamağı nəzərdə tutur ki, bunlar arasında yazı bacarıqları xüsusi önəm kəsb edir. Şagirdlərin oxuduqlarını, gördüklərini və düşündüklərini ədəbi dil normalarına uyğun məntiqi aradıcılıqla yazılı şəkildə ifadə etməsi həmin bacarıqların səciyyəvi xüsusiyyəti kimi dəyərləndirilir (2, 33-34). Mərhələli şəkildə sadədən mürəkkəbə, asandan çətinə doğru aşılanan yazı bacarıqları həm şifahi nitq, həm də şüurlu oxu bacarıqlarının formalaşması ilə müvazi əlaqədə yaradılıb inkişaf etdirilir. Ona görə də şagirdin fərdi baxışlarını, duyğu və istəklərini ifadə etməyə yönəlmiş yazı bacarıqlarına yiyələnməsi Azərbaycan dili dərslərində müntəzəm yerinə yetirilən zəruri işə çevrilməlidir. Lakin müşahidələrimiz göstərir ki, istər ibtidai, istərsə də yuxarı siniflərdə yazı bacarıqlarının formalaşması istiqamətində aparılan işlər qoyulan tələblərə cavab vermir. Məhz bunun nəticəsidir ki, ümumi təhsili başa vurmuş şagirdlərin böyük əksəriyyəti fikirlərini

yazılı şəkildə ifadə etməkdə çətinlik çəkirlər. Fikrimizcə, bu bir neçə amillə bağlıdır.

Birincisi, fənn müəllimləri, xüsusən də ibtidai sinif müəllimləri yazı bacarıqları adı altında, ilk növbədə, orfoqrafik bacarıqların formalaşdırılmasını nəzərdə tuturlar. Ona görə də üzündən düzgün köçürmə, buraxılmış orfoqrafik səhvlərin təshihi, müxtəlif növlü imla yazılarının aparılması ilə müqayisədə, inşa, esse kimi yaradıcılıq tələb edən işlərə az yer verilir. Ənənəvi metodikadan irəli gələn bu təcrübə hələ də təlim prosesində özünə yer almaqdadır. Müəllimlər müvafiq sözlərdən istifadə etməklə kiçik həcmli mətn tərtibi, süjetli şəkillər əsasında hekayə qurulması, oxunmuş nəzm əsərinin nəsrlə ifadə olunması, verilmiş yarımçıq mətnin tamamlanması, nümayiş etdirilən bir səhnənin, epizodun, mənzərənin, tablonun yazılı şəkildə ifadə olunması kimi iş növlərinə təsadüfi hallarda müraciət edirlər. Hətta müraciət edildikdə belə, bu, sistemsiz xarakter daşıyır və müntəzəm şəkildə təlim prosesində tətbiq edilmir.

Aydındır ki, yazı bacarıqları fikir və düşüncələrin kağız üzərinə köçürülməsi ilə bağlıdır. Nitqin yazılı ifadəsi həm də şifahi nitq vərdişlərinin inkişafını, cilalanmasını təmin edir. Məşhur pedaqoq Ş.Amonaşvili nitq fəaliyyətinin bu iki formasının qarşılıqlı əlaqəsini nəzərə alaraq yazır: "Yazılı nitq fəaliyyətinin bəzi tərkibləri şifahi nitq planında (söz seçimi, mətnin məntiqiliyi və tamlığı, nitqin üslubiyyatı, fikrin saxlanılması və s.) yetişdirilir və inkişaf etdirilir, belə ki, şifahi nitqin inkişafı hansı bir səviyyədəsə yazılı nitq əsasında yerinə yetirilir. Bu ikili nəticə verir: birincisi, yazılı nitqin yaradılması sürətləndirilir, ikincisi, şifahi nitqin özü daha keyfiyyətli inkişaf edir, ona görə ki "nitqin cəbri" özünün daha təkmil üsulunu "nitqin hesabının" öhdəsinə buraxır" (1). Göründüyü kimi, müəllif məşhur psixoloq L.S.Vıqotskiyə istinad edərək, şifahi nitqi hesab, yazılı nitqi isə daha mükəmməl sahə olan cəbr kimi təqdim edir.

İkincisi, "Azərbaycan dili" dərsliklərində yazılı nitqin formalaşdırılması ilə bağlı olan iş növlərinə kifayət dərəcədə yer ayrılmır. Əgər ənənəvi proqramlar əsasında hazırlanmış dərsliklərdə yazılı nitqin formalaşmasına xidmət edən rabitəli mətnlərə cüzi yer verilirdisə, yeni proqram əsasında tərtib olunmuş dərsliklərdə bir sistemsizlik nəzərə çarpır və nitqin dinləyib-analma, danışma, oxu fəaliyyət növləri ilə müqayisədə yazı ilə bağlı tapşırıqlara az yer verilir. Belə bir yanaşmanın nəticəsidir ki, ən qabaqcıl müəllimlərin dərslərində də yazı işləri digər fəaliyyət növlərinin kölgəsində qalır. Məktəbdaxili kiçik və böyük summativ qiymətləndirmə materialları tərtib edilərkən yazı nümunələrinə nadir hallarda müraciət olunur. Hazırda geniş ictimaiyyəti düşündürən aktual məsələlərdən biri kimi, ümumi təhsili başa vurub yüksək bal göstəriciləri ilə ali təhsil müəssisələrinə qəbul olan gənclərin yazı bacarıqlarının zəifliyi ilə bağlı problemin kökləri məhz buradan qidalanır.

Gerçəklik budur və onun yaxşılığa doğru dəyişməsi üçün özünü doğrultmuş metodik ideyalar və təhsil sahəsində yüksək nailiyyətləri olan ölkələrin qabaqcıl təcrübəsi təlim prosesinə gətirilməli və yayılmalıdır. Təbii ki, metodik fikir zəngindir və bu problem Ş.Amonaşvilinin pedaqoji düşüncələrinin yer aldığı "Həyat Məktəbi"ndə xüsusi şərh olunmuşdur.

Görkəmli alim ənənədən gələn və hələ də təcrübədə geniş tətbiq olunan imla, üzündənköçürmə, suallara yazılı cavab, öyrənilmiş mətnin yazısı, "öz" sözləri ilə yazılı nəqletmə və s. iş növlərini yazılı nitqin inkişafında səmərəsiz vasitələr kimi xarakterizə etməklə yanaşı, şagirdlərin yazılı nitq bacarıqlarının inkişafını təmin edən aşağıdakı məzmunu irəli sürür:

şəkillər üzrə nağıl yazmaq;

fikri kağız üzərinə köçürməklə yadda saxlamaq, fikrin dəqiq və obrazlı ifadəsi üçün sözlər seçmək, cümlələrin düzgün konstruksiyasını qurmaq, ehtimal olunan oxucunu nəzərdə tutmaq, mətni düzəltmək, üslubun vacibliyini hiss etmək kimi bacarıqları inkişaf etdirmək;

sərbəst mövzuda inşa, nağıl, hekayə, şeir, təmsil yazmaq;

öz əsərlərindən ibarət kitab buraxmaq, gündəlik yazmaq;

qəzet buraxmaq;

rəy və təkliflər yazmaq, öz yaxınları və həyat hadisələri haqqında düşüncələri yazıya köçürmək;

yaxınlar və dostlarla məktublaşmaq, tanışlıq məqsədilə yazışmaq;

məktəb "elmi" müzakirələri üçün hesabatlar hazırlamaq və s.

Müəllifə görə, bu bacarıqların formalaşması üçün şagirdin dövrəsində oxu mühiti yaradılmalı və şagird kollektivinin, müəllimlərin, valideyn və yaxın adamların köməyi ilə kitaba maraq oyadılmalıdır. Məhz oxucu əhatəsi və yaradıcı münasibət yazı fəaliyyətini şagird üçün aktuallaşdırır (1).

Şagirdləri müstəqil idraki fəallığa cəlb edən, onlarda təlimə, xüsusən də yazı təliminə böyük maraq oyadan bu cür yaradıcı işlərin sayını artırmaq mümkündür. Müəllimlərin böyük əksəriyyətinin bələd olduğu bu işlərin bəzən diqqətdən kənarda qalması dərslərin düzgün təşkil edilməməsi ilə əlaqələndirilə bilər. Məlumdur ki, yazı işlərinin aparılması, onlar üzərində iş nisbətən ağır və əlavə vaxt tələb edən fəaliyyət sahəsidir. Əksər müəllimlər sərf edilən əməyin lazımınca ödənilməməsini bəhanə edərək, yazı işlərini könülsüz yerinə yetirirlər ki, bu da son nəticədə təsvir edilən mənzərini ortaya qoyur. Ona görə də bütün siniflər üzrə yazı bacarıqlarının yaradılması və inkişafı məqsədilə normativləşdirilmiş məcburi həcm müəyyənləşdirilməlidir. Real təcrübədən çıxış edərək biz bu həcmi hər bir sinif üzrə müvafiq variantda görürük.

Belə ki, şagird minumum olaraq:

I sinfin sonunda – 30 söz həcmində;

II sinfin sonunda – 50 söz həcmində;

III sinfin sonunda – 80 söz həcmində;

IV sinfin sonunda – 100 söz həcmində;

V sinifdə – 150 söz həcmində;

VI sinifdə – 200-250 söz həcmində;

VII sinifdə – 300-350 söz həcmində;

VIII sinifdə – 400-450 söz həcmində;

IX sinifdə – 500-550 söz həcmində;

X sinifdə – 600-700 söz həcmində;

XI sinifdə – 800 söz həcmində yazılı mətnlər hazırlamağı bacarmalıdır.

Araşdırmalar göstərir ki, yüksək təhsil göstəriciləri olan ölkələrdə bu tələblər bir neçə dəfə artıqdır. Lakin Azərbaycan reallığından çıxış edərək hazırki mərhələdə yazı işlərinin həcmi ilə bağlı bu normativin qoyulması müəyyən təcrübə əldə edildikdən sonra təkmilləşdirilə bilər. Nəzərə alınmalıdır ki, qabaqcıl təcrübədən mexaniki yolla deyil, ağıllı və məqsədyönlü şəkildə bəhrələndikdə səmərəli nəticələrə nail olmaq mümkündür.

Beləliklə, ümumtəhsil məktəbi şagirdlərində yazılı nitq bacarıqlarının yaradılması və bir metodik sistem şəklində inkişafı üçün, hər şeydən öncə, ənənəvi düşüncə tərzini dəyişmək, qabaqcıl təcrübəyə yiyələnmək tələb olunur ki, Azərbaycan dili müəllimlərində belə bir potensialın olduğuna inanmaq istərdik.

ƏDƏBİYYAT

Амонашвили Ш. А. Школа Жизни. Москва,1996.

Hacıyev A. "Azərbaycan dili" fənn kurikulumunun mahiyyəti və təlim prosesində ondan istifadənin nəzəri-praktik məsələləri. // "Azərbaycan dili və ədəbiyyatı tədrisi" jurnalı, 2012, № 3, səh.30-35.

Ümumi təhsilin fənn standartları (I-XI siniflər), Bakı: Mütərcim, 2012.

РЕЗЮМЕ

Создание и развитие письменных навыков в общеобразовательных школах как одно из основных направлений при обучении азербайджанскому языку

Одной из задач которые стоят перед общеобразовательной школой- это развитие письменных навыков учеников на уроках азербайджанского языка. Анализ показал, что письменные навыки учеников не соответствуют уровню современных методических требований. В статье комментируются причины этого и опираясь на современную методическую мысль и передовую практику указаны пути устранения существующих недостатков.

SUMMARY

Creation and development of writing skills in secondary schools as one of the main directions of the Azerbaijani languag

One of the objectives of the Azerbaijani language lessons is to develop students' writing and speaking skills. The analysis shows that the students' writing skills are not at the level of the modern methodological requirements. The reasons for this are explained in the article, ways of elimination of existing shortcomings are shown with reference to modern teaching ideas and best practice.

Oxucuların nəzərinə

Jurnalımıza 2015-ci il üçün abunə yazılışı davam edir.

Bakı şəhəri üzrə abunə yazılmaq istəyənlər aşağıdakı mətbuat yayımı firmalarına müraciət edə bilərlər:

1. *"Qasid". Ünvan: Cavadxan, 21; telefon: 4-93-16-43; 4-30-02-24*
2. *"Səma". Ünvan: H.Cavid, 9, mənzil 63; telefon: 4-94-09-59; 4-94-02-52*
3. *"Kaspi". Ünvan: Mətbuat pr., 25; telefon: 5-10-61-96*
4. *"Qaya". Ünvan: Akademik H.Əliyev küç., 82 "q"; telefon: 5-64-63-45; 4-65-67-13*

Rayonlarda isə abunəni Azərbaycan Mətbuat Yayımı İstehsalat Birliyinin yerli yayım şöbələri aparır.

Redaksiya.

AZƏRBAYCAN DİLİ TARİXİ FƏNNİ: TƏDRİSİ, PROBLEMLƏR...

Nəbi ƏSGƏROV,
filologiya elmləri doktoru, professor

Azərbaycan Dövlət Pedaqoji Universitetinin ikipilləli tədris müəssisəsinə çevirilməsi qarşıya qoyulan bir çox problemlərin həllini ön plana çəkir. Tədris qanununa görə, birinci – bakalavr pilləsini bitirənlər müvafiq dövlət standartlarına uyğun olaraq ümumi ali təhsili başa vurur, "bakalavr" elmi ixtisas dərəcəsi alır. Bununla əlaqədar filologiya fakültələrində Azərbaycan dilinin daha dərindən, köklü və yüksək elmi səviyyədə öyrənilməsinə yardım edən "Azərbaycan dili tarixi" fənninin bakalavr pilləsinin tələblərinə uyğun tədrisi xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan dilinin tarixinin öyrənilməsi dilimizin ayrı-ayrı fonetik, leksik və qrammatik vahidlərinin necə inkişaf etdiyini, hansı dəyişikliklərə məruz qaldığını müəyyənləşdirməklə yanaşı, onun daxili inlkişaf qanunlarının aydınlaşdırılmasında da xüsusi əhəmiyyətə malikdir. Bu fənnin köməyi ilə dilimizin gələcək inkişaf prespektivlərini də müəyyənləşdirmək olur.

Dil tarixi fənninin əsas vəzifəsi dilimizin təşəkkülü tarixini, onun formalaşmasında iştirak edən qəbilə və tayfa dilləri, bunların birləşərək ümumxalq dilinə çevrilməsi, bu və ya digər dil vahidinin qarşılıqlı əlaqəsi, xüsusilə müasir dilimiz üçün səciyyəvi olmayan dil vahidləri haqda tələbələrdə tam elmi təsəvvür yaratmaqdan ibarətdir. Bu məsələlərin öyrənilməsi tələbələrin klassiklərimizi və yazılı abidələrimizi oxuyub başa düşmələrinə, xalqımızın dil yaruslarının bəzi cəhətlərinin izahına da kömək edə bilir.

"Azərbaycan dili tarixi" fənninin tədrisi filologiya fakültəsinin əyani və qiyabi şöbələrində nəzərdə tutulub. Bu fənn əyani şöbədə V, qiyabi şöbədə VI semestrdə tədris olunur. Fənnin tədrisinə əyani şöbədə 60 saat (30 saat mühazirə, 30 saat seminar), qiyabi şöbədə isə 30 saat (20 saat mühazirə, 10 saat seminar) dərs yükü ayrılıb. Bu normativ 2016-2017-ci tədris ilində fəaliyyətə başlyacaq yeni tədris planlarında nəzərdə tutulub. İndiyə qədər isə əyani şöbədə 75 saat (45 saat mühazirə, 30 saat seminar), qiyabi şöbədə 30 saat (15 saat mühazirə, 15 saat seminar) məşğələsi nəzərdə tutulmuşdu. Son 10 ildə Azərbaycan dili tarixi fənninin saatları xeyli azaldılmış, bu saatların hansı fənlərin tədrisinə ayrılması isə bəlli deyil. Hətta bu azmış kimi, başlıca problem olaraq qeyd etməliyik ki, Azərbaycan dili tarixi fənninin tədqiqində, tədrisində, öyrənilməsində mənbə rolu oynayan "Qədim türk yazılı abidələrinin dili" 2002-ci ildən bir fənn olaraq Azərbaycan Dövlət Pedaqoji Universitetinin tədris planından çıxarılıb. 1967-ci ildən tədris olunan bu fənn müstəqillik əldə edildikdən, türkköklü xalqlarla siyasi, iqtisadi, elmi və s. sahələrdə yaxanlaşıldığı bir dönəmdə filoloq – müəllim hazırlayan ali məktəbin tədris planından çıxarılması başadüşülən deyil. Bu fənn xalqımızın soykökünün tarixini, etnogenezini, türk xalqlarının diferensiallaşmasına qədərki

tarixini öyrənmək baxımından da çox əhəmiyyətlidir. Bu fənn bir də ona görə xüsusi əhəmiyyət kəsb edir ki, Azərbaycan dili tarixi "Qədim türk yazılı abidələrinin dili" fənninin bazası əsasında tədris olunmalıdır. İstər-istəməz Azərbaycan dilinin tarixindən danışarkən mənbə olaraq bəzi dilçilik məsələlərini türk dilləri kontekstində izah etməliyik. Fənlərarası əlaqə olmadıqda isə tələbəyə yeni, mükəmməl bilik vermək çətin olur. İllərdir, mübarizə aparsaq da, fənnin yenidən tədris planlarına salınması problem olaraq qalmaqdadır. Səlahiyyətli insanlara müraciət etdikdə isə tədris planlarının Təhsil Nazirliyi tərəfindən hazırlandığı söylənilir. Necə olur ki, Nazirlik Azərbaycanın bütün ali məktəblərinə bu fənnin tədrisinə icazə verir, Pedaqoji Universitetə yox. Bildiyimizə görə isə, Təhsil Nazirliyi tədris planları hazırlamır, ali məktəblərdə hazırlanan sənədlərə tövsiyyə xarakterli məsləhət verir. Deməli, tədris olunan fənlərin taleyi bəzən subyektiv amillərdən asılı olur. Problemi öz daxilimizdə axtarmalıyıq.

İkinci problem: Azərbaycan dili tarixinin öyrənilməsinin əsas mənbələrindən biri də onomastik vahidlərdir. Ə.Dəmirçizadə də qeyd edirdi ki, dil tarixinin öyrənilməsində tayfa və yer adlarının öyrənilməsinin xüsusi əhəmiyyəti vardır. Çünki belə adlar bu və ya digər dildə danışan xalqın yaşadığı yeri, əlaqədar olduğu tayfanı da müəyyənləşdirməyə kömək edir. Ancaq nə baş verir? Son tədris planından bu fənn də çıxarılıb. Keçən əsrin 70-ci illərindən "Toponimika", 90-cı illərdən "Onomastika" adı altında tədris olunan bu fənn sonrakı tədris planında "seçmə fənn" kimi tədris olunmuş, indiki tədris planından isə tamamilə çıxarılmışdır. Səbəbi bilinmir. Bəzən belə söhbətlərin şahidi oluruq ki, "Leksikologiya" fənni tədris olunur. Bu fənni (onomalogiyanı) də onun tərkibində öyrətmək, tədris etmək olar. Xeyir, Leksikologiyanın iki – apelyativ və onomastik leksikadan ibarət olması hamıya məlumdur. Apelyativ leksik lay müasir dil predimetidir. Ancaq elə toponim, etnonim və hidronim mövcuddur ki, onların yaranma tarixinin 2 min ildən artıq yaşı var. Ona görə də "onomastik vahidləri öyrənmək xalqın dilnin tarixini öyrənmək deməkdir" fikri burada tam təsdiqini tapır. Onomastik vahidlərin öyrənilməsi eyni zamanda siyasi məsələdir. Mənfur qonşularımız uzun illərdir ki, Ermənistan ərazisindəki türk, Azərbaycan mənşəli yer-yurd adlarımızı təsadüfən dəyişdirməmişlər. Yer-yurd adlarını dəyişməklə xalqımızın tarixini yer üzündən silirlər. Bu amilləri dərk etməyə nə var ki... Bu proses Gürcüstanda da, Rusiyada da, İranda da baş verir. Hər bir coğrafi ad xalqın tarixi yaddaşı, dil vahididir. Diçilik elminə belə qeyri-ciddi yanaşma AMEA-nın Nəsimi adına Dilçilik İnstitutndan da yan keçməyib. Belə ki, təxminən iki il bundan qabaq institutun "Dil tarixi", "Onomastika", "Dialektologiya" şöbələri ləğv eildi. Görəsən, Azərbaycan dilçiliyində bu sahələr artıq tam öyrənilib başa çatıbmı? Cavabını versinlər... Bu olayları subyektiv hisslər əsasında yaradan ziyalılarımızı isə tarixin öhtəsinə buraxırıq.

Tələbələr bəzən haqlı olaraq belə suallarla bizə müraciət edirlər. Bizə yeni bilik verən fənlər niyə tədris olunmur? Nə qədər fonetika belə getdi, bu qədər sait var, ismin altı halı var və s. Müasir dil dərsləri tədris olunmalıdır. Ancaq yeni bilik vermək şərti ilə. Bizə belə gəlir ki, bir tədris

ili ərzində müasir dil fənlərini tədris edib, yekunlaşdırmaq olar. Ancaq...

Üçüncü problem: Bu, kadr hazırlığı məsələsidir. Son 30 ildə ali məktəblərdə (filologiya fakültəsi olan ali məktəblər nəzərdə tutulur) bir nəfər də olsun dil tarixini tədris edəcək kadr hazırlanmayıb. Nə qədər filan əsərin üslubundan, dilindən, filan rayonun onomastikasından, filan əsərdə işlənən antroponimlərdən və s. dissertasiya yazmaq olar? Kafedralara lazım olan sahələr üzrə kadrlar hazırlanmır. Sovet dönəmində məqsədli aspirant yerləri ayrılırdı. İndi o təcrübədən niyə yararlanmayaq? Bir sözlə, nəinki ADPU-da, əksər ali məktəblərdə ixtisasa uyğun kadr hazırlığı fənlər üzrə aparılmır. Bu gün dil tarixini tədris edən alimlərin 90%-nin ixtisası bu fənnə uyğun deyil. Biz də daxil olmaqla. Dördüncü problem. Hazırda universitetlərdə bu fənn iki adda – "Azərbaycan dilinin tarixi qrammatikası" və "Azərbaycan dili tarixi" adlarında tədris olunur. 90-cı illərin əvvəllərinə kimi Azərbaycan Dövlət Pedaqoli Universitetində də bu fənn "Azərbaycan dilinin tarixi qrammatikasi" adı altında tədris olunurdu. Fənnin bu adlar altında tədris olunmasının elə bir ciddi düzəlişə ehtiyacı yoxdur. İlk dəfə mərhum alimimiz Hadi Mirzəzadənin 1962-ci ildə çap etdirdiyi, hələlik birinci və axırıncı olan dərsliyi "Azərbaycan dilinin tarixi qrammatikası" adlanırdı. Fənn də əksər ali məktəblərin tədris planlarına bu adla daxil olmuş, ancaq sonralar dilimizin tarixi fonetikası, leksikası, sintaksisi və s. sahələri öyrənilmiş, fənnin adının dəyişdirilməsinə - "Azərbaycan dili tarixi" adlandırılmasına ehtiyac yaranmışdır. H.Mirzəzadənin bu dərsliyi həm dövrü üçün, həm də bu gün üçün öz tədris keyfiyyətini saxlayan əsərlərindən biridir. Bu əsər 1990-cı ildə bəzi əlavələrlə yenidən çap olunub. AMEA-nın həqiqi üzvü, prof. T.Hacıyev və AMEA-nın müxbir üzvü N.Cəfərov tərəfindən edilmiş əlavələr bu əsəri bir qədər də bütövləşdirmişdir. İndi də bu klassik əsərin çap olunmasına ciddi ehtiyac var. Bu dərslik latın qrafikalı Azərbaycan əlifbası və bəzi əlavələrlə işıq üzü görsə, bu sahədə təhsil alan bakalaviriatların ürəyincə olar. Dil tarixinin ayrı-ayrı sahələrinin tədqiqi ilə bağlı alimlərimizdən Ə.Dəmirçizadənin, T.Hacıyevin, Q.Kazımovun və başqalarının da əsərləri qiymətli faktlarla zəngindir. Biz alimlərimizin bu sahədə yazdığı əsərlərdən yararlanmağı tələbələrimizə tövsiyə edir, sərbəst işlərin, kurs və magistr dissertasiyaların yazılmasında belə əsərlərdən faydalanmağı məsləhət bilirik. Ancaq ali məktəb dərsliyi, ümumiyyətlə, dərslik yığcam, lakonik və sadə dildə yazılmalıdır. Bəzən dərsliyin həcmi süni şəkildə artırılır, iki cild təşkil edir və ya monoqrqfiya ilə dərsliyin sərhədləri qarışdırılır. Bu hal da dərsliyin qarşıya qoyduğu tələbləri pozur. Bir sözlə, Azərbaycan dili tarixi fənninə aid dərsliyin yenidən çap olunmasını arzulayırıq. Hər halda, tövsiyə edərdik ki, bu fənn ali məktəblərdə eyni adla tədris olunsun. Bu zaman bəzi dolaşıqlar aradan qalxmış olar.

Bu məqalədə qaldırılan vacib problemlərin həll olunması üçün müəyyən polemika aparmaq, Azərbaycan dilinin tarixi fənnini daha mükəmməl öyrənmək və öyrətmək üçün aidiyyatı qurumlar və tədqiqatçılarla fikir mübadiləsi aparmağı vacib sayır, tədrisin keyfiyyətinə müsbət təsir göstərəcək fikirlərə hörmətlə yanaşılacaq.

VI SİNİFDƏ "NEMAN VƏ SİMNAR" MÖVZUSUNDA DƏRS

Bikə NƏCƏFOVA,
Bakı şəhərindəki 23 nömrəli tam orta məktəbin müəllimi,
"Ən yaxşı müəllim" müsabiqəsinin qalibi

Müasir dərsin xarakterik xüsusiyyətləri şagirdlərin fəallığı, yaradıcı axtarışlara qoşulması, bilik ehtiyatlarına və əvvəlki dərslərdən öyrəndiklərinə istinad edərək hadisə və faktları təhliletmə, nəticə çıxarma, tətbiq və təqdim etmə qabiliyyətlərinə yiyələnməsi, idraki qabiliyyətlərinin inkişaf etdirilməsidir. Müasir dərsdə müəllim əlaqələndirici, istiqamətverici, məsləhətçi, şagirdlər isə öyrəndiklərini təqdim və tətbiq etməyi bacaran yaradıcı subyektlər rolunda çıxış edirlər. Müasir təlim metodlarından, İKT-nin geniş imkanlarından səmərəli istifadə etməklə hər bir dərsdə bu xüsusiyyətləri reallaşdırmaq mümkündür.



Standartlar:

2.2.1, 3.1.2, 2.1.1, 1.1.2, 1.2.4.

Təlim nəticələri (məqsədlər):

1. Mətndəki hadisələrin davamını proqnozlaşdırarkən müvafiq hissədə-ki mühüm məqamlardan çıxış edir.

2. Nəqli xarakterli mətnə məzmuna uyğun yeni epizodlar əlavə edir.



3. Kontekstə görə mənasını müəyyənləşdirdiyi sözün izahını lüğətdə verilmiş izahla müqayisə edir.

4. Öz fikirlərini də əlavə etməklə dinlədiklərini tezis şəklində ifadə edir.

5. Diskussiya zamanı problemlə bağlı fikirlərini bildirir.

İnteqrasiya: Ədəbiyyat, tarix.

Təlim forması: Kollektiv iş, qruplarla iş.

Təlim üsulu: "Əqli hücum" proqnozlaşdırılmış oxu, müzakirə.



Resurs: Dərslik, iş vərəqləri, kompüter, slaydlar.

Dərsin gedişi: Salamlaşma.

Ev tapşırığın yoxlanması:

Müəllimin təklifi ilə bir neçə şagird əvvəlki dərsdə ev tapşırığı olaraq nə verildiyini söyləyir və icra etdiyi tapşırığı təqdim edir.

Müəllimin şərhi:

Dərsin mövzu və məqsədlərinin elan edilməsi.

Slayd 3

Motivasiya:

Motivasiya üçün 1, 2, 3-cü slaydlar nümayiş etdirilir.

Sinfə sual:

Birinci slayddakı sözlər dahi şairimiz Nizami Gəncəvini hansı cəhətdən səciyyələndirir?

Cavab:

Bu sözlər şairin hansı dövrdə yaşadığını, harada anadan olduğunu, hansı əsərləri yazdığını, əsərlərində kimləri və nələri tənqid etdiyini aydınlaşdırır.

Əsərin hissələri	Sizcə, nə baş verəcək?	Nə üçün belə düşünürsünüz?	Əvvəldə, nə baş verdi?	Tanış olmayan sözlər
1-ci hissəni oxuduqdan sonra				Münəccim ədəb-ərkan
2-ci hissəni oxuduqdan sonra				Qəsr misl
3-cü hissəni oxuduqdan sonra				Hüri peşkəş asiman xələt

Slayd 4

Tədqiqat sualı:

Hökmdar və sənətkara münasibət necə olmalıdır?

Tədqiqatın aparılması:

Sinif 3 qrupa bölünür, qruplar "Əmək", "Zəhmət" və "Hünər" adlandırılır.

Müəllimin şərhi:

Tədqiqatı aparmaq üçün şagirdlərin qarşısına aşağıdakı tapşırıqlar qoyulur:

1. Mətnin hissələrini proqnozlaşdıraraq oxuyun (standart 2.2.1).

2. Kontekstə görə tanış olmayan sözlərin mənasını müəyyənləşdirin (standart 2.1.1).

3. Həmin sözləri izahlı lüğətdə verilmiş izahla müqayisə edin (standart 2.1.1)

Mətnin oxunması:

Dərslikdə verilmiş "Neman və Simnar" mətni hissələrlə oxunur və hər hissənin oxunuşundan sonra 4-cü slayddakı cədvəl üzrə iş aparılır.

Oxu prosesində "münəccim", "misl", "asiman", "ədəb-ərkan", "hüri", "peşkəş", "xələt" və "qəsr" sözləri tanış olmayan sözlər kimi müəyyənləşdirilir.

Sinfə tapşırıq:

Sizə tanış olmayan bu sözlərin mənalarını araşdırın.

Araşdırma:

Şagirdlər Azərbaycan dilinin izahlı lüğətindən istifadə etməklə həmin sözlərin ifadə etdiyi mənaları müəyyənləşdirirlər. Lüğət üzrə işdən məlum olur ki, "münəccim" - nücum elmi (astrologiya) ilə məşğul olan şəxs, astroloq, "qəsr" - böyük imarət, şah sarayı, "ədəb-ərkan" - ədəb, tərbiyə, əxlaq və nəzakət qaydaları, "misl" - bənzər, oxşar, tay, "hüri" - pəri, "peşkəş" - bəxşiş verilən, bağışlanan şey, "asiman" - göy, səma, "xələt" - hədiyyə, bəxşiş, mükafat deməkdir.

Qruplara tapşırıq:

Sonra şagirdlərin müstəqil işləri təşkil olunur.

"Əmək" qrupuna:

*Neman obrazını təhlil edin.

"Zəhmət" qrupuna:

*Simnar obrazını təhlil edin.

"Hünər" qrupuna:

*Mətndəki dialoqda göy rəngli cümlə ilə başlanan hissəyə - Simnarın sözlərinə münasibət bildirin. Burada Simnarın və onun nitqinin hansı xüsusiyyəti ortaya çıxır.

Məlumat mübadiləsi:

Qruplar tapşırıqlara hazırladıqları cavabların təqdimatını edirlər.

Məlumatın müzakirəsi:

Müəllim sinfə müzakirə üçün suallar verir:

1. Xalqın tarixində hökmdarın və sənətkarın yeri nece olmalıdır?

2. Hökmdarın sənətkara münasibəti necə olmalıdır?

3. Sənətkarın hökmdara münasibəti necə olmalıdır?.

Müzakirə aparılır və nəticə çıxarılır (standart 1.1.2).

Nəticə və ümumiləşdirmə:

Şagirdlərin diqqəti tədqiqat sualına (Hökmdar və sənətkara münasibət necə olmalıdır?) yönəldilir. Cavablar ümumiləşdirilir.

Nəticədə bu qənaətə gəlinir ki:

1. İnsanın əsl dəyəri onun zəhməti ilə ölçülür.

2. "Sözün də su kimi lətafəti var.
Hər sözü az demək daha xoş olar.
Bir inci saflığı varsa da suda
Artıq içiləndə dərd verir o da".

3. Hər bir insan öz üzərinə götürdüyü vəzifəni məsuliyyətlə və heç bir mənfəət güdmədən yerinə yetirməlidir.

4. Dövlətin xəzinəsi ədalətdir.

Yaradıcı tətbiqetmə:

Müəllim:

Mətndən çıxan nəticəyə əsasən öz fikirlərinizi qısa esse şəklində ifadə edin.

Ev tapşırığı:

Evə araşdırma yönümlü tapşırıq verilir: Bu bölmədə oxuduğunuz mətnlərdən və başqa mənbələrdən istifadə etməklə XII əsrin digər şairləri haqqında məlumat toplayıb təqdimatlar hazırlayın.

Qiymətləndirmə:

Qiymətləndirmə bu məqsəd üçün tərtib olunmuş xüsusi cədvəl üzrə aparılır. Bu zaman aşağıdakı bacarıqlar əsas götürülür.

1. Mətndəki məlumatları ümumiləşdirərək nəticə çıxarır.

2. Mətndə tanış olmayan söz və ifadələrin mənasını lüğətin vasitəsi ilə müəyyənləşdirir.

3. Dinlədiyi və oxuduğu mətnlərdən faktları ümumiləşdirərək nəticələr çıxarır.

4. Yazdığı mətndə fikirlərini məntiqi ardıcıllıqla ifadə edir.

XƏLİL RZA ULUTÜRKÜN "OĞUL HƏSRƏTİ" ŞEİRİNİN TƏDRİSİ ZAMANI ŞAGİRDLƏRƏ VƏTƏNPƏRVƏRLİK İDEYASININ TƏBLİĞİ

Rahilə ZEYNALOVA,
Bakı şəhərindəki 261 saylı orta məktəb-liseyin müəllimi

Kurikulum tədris olunan hər bir fənn üzrə fərdi yanaşmalar tələb edir. Nəzərə alsaq ki, əsas məqsəd hərtərəfli biliyə, dünyagörüşə malik şəxsiyyət və əsl vətəndaş yetişdirməkdir, o zaman Azərbaycan dili və ədəbiyyat müəllimlərinin üzərinə daha böyük məsuliyyət düşdüyü aydın olar. *Dil* millətin kimliyi, ədəbiyyat isə mənəviyyatıdır. Ədəbiyyatın qarşısında duran əsas *məqsəd bu mənəviyyatı daha da dərinləşdirib* mükəmmələşdirməkdən ibarətdir. Fərdi yanaşma eyni cür olmamalı, insanın *xarakterik xüsusiyyəti diqqətlə öyrənil*məlidir.

V sinifdən tədrisinə başlanılan ədəbiyyat *fənni mənəvi dəyərlərin* yaranmasına və inkişafına nühüm təsir göstərir. Burada təlim materialları 7 bölmə üzrə öyrədilir. Hər bir bölmənin məqsəd və tələbləri vardır. Bu yazıda "Müharibə və insanlıq haqqı" bölməsinə daxil olan əsərlərdən birinin tədrisindən danışacağıq.

Müharibə şəraitində yaşamağımız hamıya bəllidir, torpaqlarımız tapdaq altındadır. Atəşkəs rejimi olmasına baxmayaraq, düşmən tərəfindən sərhədlərimiz gündə bir neçə dəfə pozulur, şəhidlər veririk. Müharibə mövzusunda "Müharibə və insanlıq haqqı" bölməsinə dərslikdə iki əsər daxil edilmişdir. X.R.Ulutürkün "Oğul həsrəti" şeiri və E.Hüseyinbəylinin "Firuzə qaşlı xəncər" hekayəsi. Hər iki əsərdə Qarabağ müharibəsinin dəhşətləri və onun törətdiyi fəlakətlər əksini tapıb.

Müharibə mövzusu ilə bağlı bir neçə ideyanı özündə birləşdirən X.R.Ulutürkün "Oğul həsrəti" şeirinin necə tədris olunmasından bəhs edəcəyik. Əsərdə oğul həsrəri çəkən, vaxtsız qurbanlar verən ata-anaların harayı, niskili qələmə alınıb.

X.R.Ulutürkün "Oğul həsrəti" şeirinin tədrisinə 2 saat vaxt ayrılıb. Birinci saat əsərlə tanışlıq, məzmunun mənimsədilməsidir (1,1,1; 2,1,1; 2,2,1 standartlarına uyğun). İkinci saat isə əsərin təhlili və ifadəli *oxusudur. İfadəli oxunun təhlildən* sonra verilməsi anlaşılandır. Müəllimlərin əksəriyyəti də bu ardıcıllığın tərəfdarıdır. *İfadəli oxu məntiqi* vurğu, *intonasiya* tələb edir. İntonasiya da ideyadan asılıdır. Əsərin ideyası təhlildən sonra açılır. Şagird başa düşür ki, şeiri hansı hisslərlə oxumaq lazımdır.

"Oğul həsrəti" əsərinin məzmununu əvvəlki dərsdə öyrəndiyimiz üçün diqqəti ideyanın müəyyənləşdirilməsinə və ifadəli oxuya yönəldirik. Bədii əsərlərin öyrədilməsində fənlərarası və fəndaxili əlaqələrin olması vacib şərtlərdəndir. Bu əlaqələr bədii əsərlərdə qarşıya qoyulan ideyanın açılmasına xidmət etməlidir. Yeri gəldikcə, bu əlaqələrdən yetərincə istifadə olunur. Əsərin təhlilinə keçməzdən əvvəl problemli vəziyyət yaratmaq məqsədilə "Ot kökü üstə bitər", "Vətən daşı olmayandan, olmaz ölkə vətəndaşı" (M. Araz) – deyimlərindən istifadə edərək tədqiqat sualı formalaşdırılır və diqqətdə saxlanılır.

B.Vahabzadənin X.R.Ulurürk haqqında dediyi aşağıdakı fikirləri tədqiqat materialı kimi daha münasib bilir və inanırıq ki, şagirdlər şeiri təhlil etdikdən sonra əsas fikri

özləri tamamlaya biləcəklər: "X.R.Ulutürk yalnız qələmi ilə deyil, əməli fəaliyyəti ilə də vətənimizin azadlığı uğrunda misilsiz xidmət göstərirdi. Bununla kifayətlənməyən şair öz balasını da bu yolda qurban verməkdən çəkinmədi. O, vətən üçün nə lazımdırsa, onu elədi..."

(Şagirdlərə əvvəlcədən şair haqqında araşdırmalar aparmaq tövsiyə edilmiş və onun səsi ilə yazılmış şeirlər də dinlənilmişdir).

Şair və oğlu Təbriz haqqında toplanmış materiallarla tanışlıqdan sonra müəyyən nəticələr əldə olunur. Hələ Təbrizin ölümündən qabaq atası azadlığımız, müstəqilliyimiz uğrunda mübarizəyə atılmış, zindanlara salınmış, lakin yenə susmamış, öz mübarizəsini harayı, qələmi ilə davam etdirmişdir. Şübhəsiz, belə bir atanın Təbriz kimi övladı olmalıdır.

Şeirin hər bir bəndi şagirdlər tərəfindən diqqətlə oxunur və təhlil edilməyə başlanılır. Təhlil zamanı sətiraltı mənaları nəzərdə saxlamaq tövsiyə olunur. Şeir müraciət formasında yazılıb, bədii xitablarla zəngindir.

Məqbərənə gül düzərəm,
Gülüm Təbrizim, Təbrizim!
Doğrudanmı səni tapdı
Ölüm Təbrizim, Təbrizim?!

Elə birinci bənddən gənc övladının ölümünə inanmayan, bu fikri özünə yaxın buraxmayan bir ata obrazı görürük. Şagirdlər əlavə edirlər ki, bu təkcə şairin deyil, neçə-neçə belə vaxtsız övlad itirən ataların fəryadıdır. Övlad həsrətinə dözməyən ata elə bil sonrakı bəndlərdə nisbətən təskinlik tapır. Şəhidlər xiyabanına gedən ata oğlunun məzarını güllərə qərq olmuş görür və qürur hissi keçirir. Əmin olur ki, oğlu tək onun deyil, bütün Azərbaycanındır.

Bu sərgidir, ya laləzar,
Laləm, Təbrizim, Təbrizim! - misralarına diqqət yönəldirəm (Şəhidlər xiyabanından görüntülər nümayiş olunur). Lalə gülü haqqında şagirdlərdən kiçik qeydlər alıram (lövhədə yaza da bilərlər). Lalənin az ömürlü gül olması Təbrizin faciəli ölümü ilə müqayisə olunur. Doğrudan da, Təbrizin həyatı lalə ömrü qədər qısa, lakin mənalı olmuşdur.

Debatda iştirak edən şagirdlərdən biri, digərinə aşağıdakı sualla müraciət edir:

-Hansı bənddə kədər hissini intiqam duyğusu əvəz edir?

- Məzar qonşuların yüz-yüz,
Namiq, Elşad, Aydın, Gündüz.
Yerdə qalmaz bu qan sözsüz,
Gülüm, Təbrizim, Təbrizim!

Digər şagird Təbriz Xəlilbəyli haqqında topladığı məlumatı diqqətə çatdırır. Qeyd edir ki, Təbriz 1991-ci ildə könüllü olaraq cəbhəyə yollanır. 1992-ci il 31 yanvarda qızğın döyüşlərin birində qəhrəmancasına şəhid olur. Onun məzarı Şəhidlər xiyabanındadır. Amma o, tək deyil, yüzlərlə Təbriz kimi oğullar bu xiyabanda uyuyur. Onların ziyarətinə gələn gənclər intiqam hissi ilə coşub-daşır, gec-tez intiqam alacaqlarına söz verirlər. Şair inanır ki, oğlunun və şəhidlərimizin qanı yerdə qalmayacaq.

Növbəti bənddə şair elə bil düşmənləri bizə nişan verir. Bu bəndin izahına keçməzdən öncə tarixi faktlara müraciət edirik:

"Kremlin caynaqları iri,
Daşnaklar vuran əlləri" - misrasını aydınlaşdırırıq.

Sətiraltı mənalar şagirdlərlə bərabər təhlil olunur, bəzi qaranlıq məsələlər açıqlanır. "Kremlin caynaqları" – dedikdə rus imperiyası, "daşnaklar" dedikdə isə erməni faşistləri nəzərdə tutulur.

Hamıya məlumdur ki, yenicə müstəqillik qazanmış Azərbaycanın azadlığını beşikdə ikən boğmağa çalışırdılar. Rus imperiyası Azərbaycan kimi zəngin sərvətli

bir ölkəni əldən vermək istəmir, bu məqsədlə mənfur qonşuların məkrli niyətlərinə dəstək olurdular, onları silahlandırırdılar.

1991-1992-ci illər isə müharibənin qızğın vaxt idi. Qeyri-bərabər döyüşlərdə çoxlu şəhid verirdik. Onlardan biri də haqqında danışdığımız Təbriz Xəlilbəylidir. Bu faktlarla şagirdlərin diqqəti yaxın keçmişimizin dəhşətli olaylarına yönəldilir. Qarabağda baş verən hadisələri cinayət adlandıran müəllif xalqımıza düşmənlərimizi tanımağı tövsiyə edir:

Qanlı köksü dəlik-dəlik,

Xocalıda bir qəsr tik – deyən şair vətənin hər qarış torpağını öz övladı qədər sevdiyini göstərir.

Əsərdəki bədii təsvir və ifadə vasitələri şagirdlər tərəfindən diqqətdə saxlanılır, yeri gəldikcə təhlilə cəlb edilib aydınlaşdırılır. Axırıncı bəndə keçməzdən əvvəl aşağıdakı suallar yazılmış vərəqləri şagirdlərə paylayıram.

-"Cüt Təbrizə qovuşarıq" deməklə şair nəyi nəzərdə tutur?

-Cənubi Azərbaycan, Şimali Azərbaycan bölgüsü hansı səbəbdən aparılmışdı?

- *Ey bəxtəvər, ey üzü ağ,*

Balam Təbrizim, Təbrizim! – ifadəsi sizə nə deyir?

Şagirdlər kiçik araşdırma və müzakirələrdən sonra cavablarını təqdim edirlər. Beləliklə, XIX əsrdə bütöv Azərbaycanımızın ikiyə parçalanması, Təbrizin Cənubi Azərbaycanın ikinci mərkəzi şəhəri olması açıqlanır. Şairin dərdinin tək oğlu Təbrizin dərdi olmadığı, həm də qürbətdə qalan vətənin bir parçası olan Təbrizin dərdi olduğu üzə çıxır. O taylı, bu taylı Azərbaycanın bütövlüyü hamımızın arzusudur. Elə bil şair qəlbimizdən keçənləri duyur. Az, lakonik ifadələrlə öz mübarizliyini bir daha oxuculara çatdırır. Şeirdəki son iki misra şairin ümidsiz olmadığını, gələcəyə nikbin baxdığını, övladının ölümü ilə ölümsüzlüyə qovuşduğunu əks etdirən sətirlərdir.

Belə bir sualla sinifə bir daha müraciət edirəm:

-Sizcə, ata şəhid olmuş oğlunu nə üçün "bəxtəvər, üzüağ" adlandırır?

Bu sual qazanılmış biliklərin müzakirəsi və dəqiqləşməsinə təkan verir. Şagirdlər qısaca olaraq öz fikirlərini söyləyirlər.

-Ata vətənin azadlığı uğrunda vuruşaraq qəhrəmancasına şəhid olmuş oğlu ilə fəxr edir, onun qəhrəmanlıq, şəhidlik yolunu davam etdirməsindən qürur duyur.

Nəhayət, şagirdlər lövhədə əvvəlcədən yazılmış "Ot kökü üstə bitər", "Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı" – ifadələrini müstəqil şəkildə cavablandırırlar.

Həqiqətən, Təbriz atasının torpaqlarının azadlığı, bütövlüyü uğrunda apardığı mübarizəni layiqincə davam etdirir və bu yolda şəhidlik zirvəsinə ucalır.

İstiqlal şairimiz B.Vahabzadənin azadlıq mücahidi X.R.Ulutürk haqqında dediyi "o, vətən üçün nə lazımdırsa, onu elədi..." fikrini də şagirdlər asanlıqla tamamlayırlar.

-Bu gün Təbriz, Xəlil Rza Ulutürk aramızda olmasalar da onların bizə örnək olacaq çox əməlləri var. Biz o əməllərdən faydalanır, mübarizliyin,vətən sevgisinin nə olduğunu anlayır, onlar kimi əsl vətəndaş olmağı qarşımıza məqsəd qoyuruq.

Yekun olaraq şeiri əzbərdən, ifadəli oxutdurmağa nail oluram. Artıq uşaqlar müstəqil olaraq şairin bizə nə demək istədiyini anlayır, şeirdəki sevinc, kədər, məntiqi vurğu, fasilə məqamlarına əməl etməyi bacarırlar. Sonda metodik vəsaitdə verilmiş tövsiyələrə uyğun qiymətləndirmə aparıram.

Ev tapşırığı: "Azərbaycanın Milli Qəhrəmanlarından kimləri tanıyıram? – mövzusunda kiçik esse yazmaq məsləhət görülür.

DİL TƏLİMİNDƏ İNKİŞAF DA VAR, PROBLEMLƏR DƏ, HƏLLİ YOLLARI DA

Vaqif QURBANOV,
AMİ-nin əməkdaşı, dosent

Açar sözlər: *nitq inkişafı, təfəkkür inkişafı, dil təlimi, nitqə inteqrasiya, gözlənilən nəticələr, son nəticələr, kurikulum dərslikləri, elmə münasibət, tədqiqatın metodları, tərtibatın üsulları, kurikulum fəlsəfəsi, qiymətləndirmə.*

Ключевые слова: *развитие речи, развитие мышления, обучение языка, интеграция в речи, ожидаемый результат, окончательный результат, учебники по курикулуму, отношение к науке, методы исследования, методы составления, философия курикулума, оценивание.*

Keywords: *speech development, cognitive development, language training, integrated speech, expected results, latest results, curriculum textbooks, attitude to science research methods, design methods, the philosophy of the curriculum, evaluation.*

Təhsil strategiyalarının həyata keçirilməsində dərsliklərin rolu danılmazdır. Məktəblərimiz hazırda kurikulum tələbləri ilə yazılmış I-VII siniflər üçün "Azərbaycan dili" dərslikləri ilə işləyir. Kurikulum tələbləri "Azərbaycan dili" fənni üzrə 4 məzmun xəttinin standartlarının əsasında tərtib olunmuşdur.

Kurikulum fəlsəfəsini bu neçə illər ərzində öyrənə bildiyimiz üçün qəbul edirik. Bu barədə məqalələrimiz də dərc olunub [1, 2].

Bununla belə, yeni metodologiyanı şərh etməyə ehtiyac da az deyil. Həmin ehtiyaclar nələrdən ibarətdir?

1. Müşahidələr və təhlillər göstərir ki, kurikulum tələbləri ilə yazılmış dərsliklərlə innovativ işləyən müəllimlərimiz çoxdur.

Dərsliklər 4 məzmun xəttində hər birinin standartlarını reallaşdırmaq məqsədi ilə tərtib olunmuşdur. Necə işləmək, təlim prosesində hansı formalar seçmək, metodlardan istifadə etmək məsələsində müəllimə kömək məqsədi ilə hazırlanmış vəsaitlər də var. Dərslik komplektinin ən zəruri hissəsi olan həmin vəsaitlər müəllimə bütün hallarda istiqamətlər verir.

"Azərbaycan dili" dərslikləri rabitəli mətnlərlə başlayır, ancaq həmin mətn əsasında hansı standartları reallaşdırmaq məsələsi "müəllimə kömək" vəsaitində motivasiya yaratmaq, problem və tədqiqat sualları qoymaq işindən tutmuş ta qiymətləndirmə də daxil olmaqla bütün strategiyalar orada qeyd olunur. Müəllimin işi, bir növ, dirijorluq etməkdən ibarətdir ki, bu da az əhəmiyyətli məsələ deyil.

VIII-XI sinif dərslikləri hələlik ənənəvi yolla tərtib olunanlardır, metodik vəsaitləri də yoxdur.

Yeni dərsliklər dinləyib anlama, oxu, yazı, dil qaydaları məzmun xətləri vasitəsilə dərsin ardıcıl qurulmasına istiqamət verir.

Dil qaydaları nitq bacarıq və vərdişlərinin aşılanmasından sonrakı prosesdir. Başqa sözlə, təlim prosesi əvvəl mətn üzrə, məzmun üzrə işlərdən başlayır, sonra nəzəri təşkili işlərlə, yəni normalarla və onların nitq materialında müşahidəsi ilə davam edir. Buna nitqə inteqrasiya ideya istiqaməti də deyə bilərik. Azərbaycan dili bir müstəqil fənn olaraq məhz bu

cür öyrədilir. Avropa ölkələrində italyan, ingilis, alman, fransız dilləri də məhz bu cür öyrədilir.

Ənənəvi dərsliklərdə isə məsələ dinləyib-anlama və danışma, oxu, yazı dil qaydalarına tabe etdirilərək sıxlaşdırılmış miqdarda verilir. Tarixi təcrübəni nəzərə alsaq, təhlillər aparsaq, görərik ki, bu vaxta qədər sanki biz milli dilin təlimi ilə deyil, dilçiliyin təlimi ilə məşğul olmuşuq. Deməli, VIII-XI siniflərdə indi də, bir növ, dilçilik qaydaları öyrədilir və test tapşırıqları da həmin qaydaların əsasında hazırlanır. İndi isə keçək məktəb müşahidələrinə.

Yeni metodikaların təkmilləşdirilməsi üzrə innovativ təcrübə ortaya qoyan, motivasiyanı konkret mövzunun xarakterindən irəli gələrək problem-situasiya səviyyəsində təşkil edən mövzunu da, mövzudan irəli gələn başlıca ideyaları da, tədqiqat suallarını da şagirdlərdən almağı bacaran, nəhayət, dərsi nikbinlik notları üzərində qurub maraqlı nəticələr alan müəllimlərimiz var. Onlar dil və nitq əlaqələrinə bələdlikdə linqvist, pedaqoji texnologiyalarla işləməkdə metodik təfəkkür sahibləridir. Sumqayıtdakı Qubadlı Qaçqın məktəbinin müəllimi Ədalət Əsədov, Salyan rayonu Qarabağlı kənd məktəbinin müəllimi Teyyub Həsənov və onlar kimi neçə-neçə qabaqcıl müəllimlər kurikulum metodologiyasının interaktiv metodları ilə işləməyə, nəticələri inteqrasiyalara çevirməyə rəvac verən yeni tədris sistemini hərtərəfli dərk etdikləri, yeni dərsliklərlə işləyə bildikləri üçün çox bəyənirlər.

Qabaqcıl müəllimlərin rabitəli mətnin məzmununun motivasiya nümunələri metodik vəsaitlərdə verilənlərə ən yaradıcı əlavələr olaraq diqqəti cəlb edir.

Müəllimlərin dərsliklərdəki "Heydər Əliyevin kəlamları" mövzusu üzrə motivasiya – anlayışın çıxarılması nümunələrindən birini qeyd etmək yerinə düşər:



2

Müəllim bu xüsusiyyətlərin hansı dahiyə aid olduğunu soruşur. Müzakirədən sonra ortaya "Heydər Əliyev" yazılır.

Sinifdə konkret bədii və ya elmi üslubda olan bir mətnin məzmunu üzərində nədən bəhs olunduğunu şagirdlər təhlil edir, nəticələr çıxarır və analoji mətn hazırlayır, dil normalarının həmin işdə tətbiqi və rolu məsələsini araşdırır, nəticə çıxarırlar. Proses nitq – dil – nitq ardıcıllığı ilə aparılır.

Ənənəvi dərslərdə isə dil – dil – dil ardıcıllığı yaddaşa istiqamət alır; seçim, qiymətləndirmə testləri də dili – dilçiliyi əsas tutur. İndi sual oluna bilər: Dil təlimi metodikasını təkmilləşdirmək üçün bunlardan hansı daha optimal sayılmalıdır? Quru nəzəriyyəçilik etmək, axırda da yaddaşa əsaslanmaq və ya nitq və təfəkkürün qarşılıqlı vəhdəti ilə nitqə inteqrasiya metoduna? Bizə elə gəlir ki, ənənəvi metodla işləmək, yəni dilçiliyin rolunu qabartmaq təlim prosesini axına əks, qarşı qurmaq deməkdir.

Dinləyib – anlama və danışma, oxu və yazı strategiyaları dil qaydaları ilə bir yerdə çayların dənizə qovuşmasını xatırladır. Nitq və təfəkkür qarşılığı ilə qurulan təlim prosesi mədəni nitq prosesidir.

Biz illərdən bəri nitqə inteqrasiyanı əldə etmək üçün bir sıra metodik düşüncələrə aydınlıq gətirməyə çalışmışıq ki, bunlar da aşağıdakılardır:

1) Dildaxili əlaqələrin fəndaxili əlaqələrə çevrilməsi;

2) İdrakın metodları ilə təlim metodları arasında ciddi fərqlərin qoyulmaması;

3) Dilin sintaktik zəmində öyrədilməsi;

4) Nitqin hissələrinin rabitəli mətn əsasında təhlil olunması;

5) Dil təhlilinin mətn təhlili üzərinə keçirilməsi;

6) Sintaktik təhlilə bir bütöv, geniş sistem kimi baxılması;

7) Mətnlərin fonetik, leksik, qrammatik təhlilinin hər birinin inteqrasiyaya çevrilməsi;

8) İfadə mətnlərinin inşalara çevrilməsi;

9) İmla təliminin metod və formalarının təkmilləşdirilməsi;

10) Nəzəri inteqrasiyaların keçirilməsi;

11) Təcrübi inteqrasiyalar və onların nəzəri cəhətdən şərhi;

12) Ekstralinqvistik inşaların ümumiləşdirilməsi formalarının siniflər və kurslar üzrə keçirilməsi;

13) Linqodidaktika və linqvometodika məsələlərinin yeni məzmunda şərhi;

14) Terminoloji problemlərin sıxlaşdırılması;

15) Fəndaxili inteqrasiyanın nəzəri cəhətdən sisteminin əsaslandırılması.

Beləliklə, aşağıdakı müddəaların formalaşdırılması:

- dildaxili əlaqəliklər üzərində qurulan motivasiyalar əsasında problemin qoyuluşu və təqdimatı aparılır;

- dilin hər bir şöbəsinin vahidlərinə (mövzularına) dair bilik, bacarıq və vərdişlərin aşılanması dişli çarx şəklində XI sinfin sonuna kimi zənginləşdirilir: diferensial fonetik mövzular bir-birinə, daha sonra leksik, morfoloji və sintaktik vahidləri enerji ötürücü vasitə kimi zənginləşdirir və özü də zənginləşir.

- leksik vahidlər morfoloji və sintaktik vahidlərə enerji verir və özü də zənginləşdirir.

Bu prosesi atom fizikasında nüvənin zənginləşməsi prosesi ilə müqayisə etmək olar; belə ki, təsiredici qüvvə həm zənginləşdirir və həm də özü zənginləşir (parçalanmalı olur).

O cümlədən intonasiya amilini dilçiliyin də, Azərbaycan dilinin də yarımstansiyası saymaq olar.

Bu vaxta qədər Azərbaycan dili fənninin təlimi məzmunu, bir növ, dilçiliyin təlim məzmununu xatırladıb. Dilçilər nədənsə bu həqiqəti qəbul etmək istəmirlər. Əslində isə bu məsələnin həqiqət olduğunu filoloji elmlərdən azca belə təsəvvürü, məktəbşünaslıqdan ibtidai anlayışı olan hər kəs bilməlidir. Axı ibtidai və orta məktəbdəki Azərbaycan dili fənni dilçilik fənni deyil, dilin normalarının nitq praktikası zəminində rabitəsiz və rabitəli mətnlər üzərində mənimsədilməsi vasitəsidir. Orfoqrafiya və orfoepiyanın nitq hissələrinin təliminde aşılanması, habelə ifadə və inşa materialı üzrə işlərə daxil edilməsi linqvistik yox, linqvodidaktın vəzifələrinə daxildir. Başqa bir misal: Linqvodidakt bilir ki, nə üçün felin tədrisində nəqli xarakterli, sifətin tədrisində təsviri, zərfin tədrisində mühakimə xarakterli imla, ifadə, inşa mətnlərindən istifadə edilir və bunların morfologiya şöbəsinə verilən saatların sayına görə nə qədər, sintaksis tədrisi üçün verilmiş saatlarına görə nə qədər olmalıdır.

Bir sözlə, təlimin məzmunu məsələsində linqvist (dilçi), təcrübəsinə görə didakt (təlimçi) olmasa, dərslik tərtibindən baş çıxara bilməz, müəllimə metodik kömək deyilən vəsaiti isə heç hazırlaya bilməz. Çünki funksionoloji sərištə dil tədqiqatçısının deyil, dildən məzmun tərtibçisinin yiyələnə biləcəyi qabiliyyətdir.

Dil təliminin məqsəd və vəzifələri kurikulum təhsili metodistlərinə məlumdur. Belə ki, müasir dərsliklərin tərtibinə verilən tələblər əslində dil təliminin mənimsədilməsinə verilən ümumi tələblərdir. Həmin tələblərə görə dili dilçiliyə dair məlumatla, məsələn, hal, mənsubiyyət, xəbər, zaman və s. şəkilçilərinin inkişaf tarixi, qrammatik şəkilçilər olması, neçə cür yazıldıqları və s. kimi nəzəri xüsusiyyətlərlə yükləmək və bunlara hətta əlahiddə saatlar ayrılmasını tələb etməzlər.

Dilçilərin belə məsələlərdən başları çıxmır. Məgər onlar hansı mövzudan sonra hansı tipdən olan imla, ifadə və inşa tədrisinin fərqinə vara bilirlər? Məgər onlar rabitəli mətnin bu fənnin son nəticəsi sayılmasından xəbərləri var? Haradan da olsun?! Axı bu, onların vəzifələrinə daxil deyil. Onların vəzifəsi ali məktəbdə Azərbaycan dilinə dair linqvistik biliklərini ortaya qoymaqdır. Orta məktəbə bu yolla, bu üsullarla yanaşmaq olmaz. Dahi Nizami demişkən: Hər kəs öz işindən yapışsa əgər, Dünyada nə əksə, onu da biçər.

Kurikulum tələbləri ilə ayaqlaşmaq lazımdır. Dilçilərimizin zəhməti tədqiqat sayəsindədir. Onlar tədqiq edirlər. Yaxşı da tədqiq edirlər. Biz onları dəqiqləşdiririk, yüksək də qiymətlər veririk. Lakin metodistlərin işinə qarışmaqlarını və onların gördükləri işi dərk etmək istəmədiklərini narazılıqla qeyd etməyə borcluyuq. Onomasikanın ayrı-ayrı növlərindən, linqvistikanın dəfələrlə yazılmış məsələlərindən əsər yazmaqla dil metodistlərini ciddi alim qəbul etməyənlərin əksəriyyəti onomasika, onomologiya kimi adlardan dissertasiyalar yazıb müdafiə edənlərdir. Onda bir də dəqiqləşdirək: Orta məktəbin qabaqcıl müəllimlərinin bacardığı bir işi, məsələn, cümləni müxtəlif aspektlərdən təhlil etməyi bacarmayan dilçiləri biz necə qiymətləndirək?

"Mən nəzəriyyəçiyəm", "mən aliməm" – deyənlər çox vaxt orta məktəb müəllimləri qarşısında özlərini gülünc vəziyyətdə qoymaqla mühazirələrini başa vurmuş olurlar. Tədqiqat mövzusu verməkdə belə funksionoloji zəiflik göstərirlər. Tələbələrə tabeli mürəkkəb cümlənin təhlili qaydasına üzvlərə görə analizi tapşırır, hansı çalışmanı təfəkkürün, hansı çalışmanın nitq inkişafı məqsədi daşıdığını ayırd edə bilmirlər. Sonra isə onların nitq inkişafı problematikasından, o cümlədən dilçilikdə və linqvometodikada sintaktik zəmin ölçü meyarlarından, ali və orta məktəblər üçün dərsliklərin tərtibi prinsiplərindən və s. xəbərləri yoxdur.

Ancaq mərhum linqvometodist dilçilərimizdən Əziz Əfəndizadənin, Əli Fərəcovun, Bəşir Əhmədovun, Əhəd Əhmədovun, Həsən Balıyevin tədqiqat metodları təlim metodları sahəsində mükəmməl alim-linqvodidakt olduqlarını biz yaxşı bilirik. Bizə ali pedaqoji təhsildə çalışacaq onlar kimi müəllimlər, alimlər lazımdır, linqvometodistləri gözdən salanların ardıcılları yox. Ali pedaqoji təhsildə çalışan alimlər öz yetirmələrinə tədqiqat mövzusu verərkən akademiyalara məxsus tədqiqat mövzuları deyil, məhz müəllimlik peşəsi verən təhsilin problemlərinə dair mövzular verməyə borcludurlar.

Nəhayət, bura qədər deyilənləri yekunlaşdırmış olsaq, hansı nəticələrə gələ bilər və hansı təklifləri irəli sürə bilərik?

1. Dilçi-nəzəriyyəçilər yeni təhsil quruculuğu istiqamətində Azərbaycan dili fənninin məzmun xətlərini qəbul etmirlər və tələbələrdə bu məsələyə mənfi münasibət aşılayır, o cümlədən də kurikulum tələbləri ilə yazılmış dərslikləri bəyənmirlər.

2. Bu problemin həlli yolunu biz qabaqcıl müəllimlərin və dilçi alimlərin məruzə və çıxışları ilə keçən elmi-praktik konfranslarda görürük.

ƏDƏBİYYAT

Yeni Azərbaycan dili dərslikləri haqqında pedaqoji düşüncələr və qənaətlər. ARTPİ-nin Elmi əsərləri. Bakı, 2013, №4, səh.27-33

Yeni Azərbaycan dili dərslikləri: mülahizələr. "Azərbaycan dili və ədəbiyyat tədrisi" jurnalı. Bakı, 2014, №1, səh.70-76

Qurbanov V.T. Azərbaycan dili tədrisinin aktual problemləri. Bakı, 2008, səh.3-56

Azərbaycan dili – IV sinif. Müəllim üçün metodik vəsait. Bakı, Altun-kitab, 2011, səh.54-55

Проблемы формирование, псевдотуенных идеи. XXI век итоги прошлого и проблемы настоящего. Выпуск №7, 2013, с.207-212

РЕЗЮМЕ

В I-VII классах учебники написанные курикулумом удачно работают. Это новая система, поэтому учителя проходящие тренинг совсем соглашаются с этим.

Сторонники традиционного обучения ищут дефекта, но найденные или объединяются против них.

Как должны быть аргументы не понявших философию курикулума? Для уточнения этих вопросов является потребность в научно-практической конференции.

SUMMARY

With the demands of the curriculum in classes I-VII textbooks written works are in luck. The new system, to embrace it wholeheartedly agree that the best training of the teachers. Supporters of traditional training then look for the defect, can not find. they find themselves united against the combined. What should be the philosophy of the curriculum because the arguments do not want to be learned? To clarify these issues is the need for a scientific-practical conference.

MÜTALİƏ HƏYATİ TƏLƏBAT OLMALIDIR

İmran VERDİYEV,
Oğuz rayonundakı Yaqublu kənd tam orta məktəbin müəllimi, əməkdar müəllim

Fərdi psixoloji proses olmasına baxmayaraq mütaliə cəmiyyətin sosial həyatına, mövzu marağının məhsulu olan yeni ideyaların yayılmasına və ictimaiyyətin malına çevrilməsinə imkan yaradır, dövrün və tarixi keçmişin hadisələri ilə yaxından tanış olmağa, içtimai münasibətlərin dərk edilməsinə, həyatda obyektiv baxışın formalaşmasına, eləcə də cəmiyyətin həyat tərzi üçün etik, hüquqi və estetik normaların mənimsənilməsinə kömək edir. Sokrat mütaliənin cəmiyyətin həyatındakı önəmi barədə deyirdi: "Mütaliə hər bir cəmiyyətin gündəlik vərdişinə çevrilərsə, həmin cəmiyyət xoşbəxt olar".

Təəssüf ki, son vaxtlar uşaq və gənclərdə bütün informasiyaları rəqəmsal cihaz və ekranlardan, kinolardan və videolardan almağa meyil güclənmiş, internet medianın inkişafı kitaba olan marağı azaltmışdır. Halbuki insan təfəkküründü qidalandırmaq, istənilən anlayışı bütün təfsilatı ilə dərk etməyə kömək göstərmək baxımından heç bir köməkçi vasitə nəşr olunmuş kitabı əvəz edə bilmir. Təkcə görüntüdən informasiya almaq həmişə yetərli olmur.

Uşaq və gənclərin getdikcə kitab oxumaqdan uzaqlaşmaları, şübhəsiz, yaxşı bir şey vəd etmir. Tədqiqatlar göstərir ki, kağız kitab oxumamaq nitq pozuntusuna, özünüifadə edə bilməmək və s. kimi fəsadlara gətirib çıxarır.

Bu gün uşaqların mütaliə mədəniyyətinin və oxuya motivasiyasının yüksəldilməsi həmişəkindən daha çox önəm kəsb edir. Mümkün vasitələrlə mənfi münasibətin qarşısı alınmalıdır. Bu isə valideyn (ailə) - müəllim (məktəb)- kitabxanaçı (kitabxana) - ictimaiyyətin birgə fəaliyyəti ilə mümkündür.

Mütaliənin təşkili və ona rəhbərlik özündə çoxsaylı mürəkkəb kompleks problemləri ehtiva edir. "Uşaq təfəkküru hələ tam formalaşmadığından onların mütaliəsinə rəhbərlik etmək və ya düzgün istiqamət vermək zəruridir. Bilmək lazımdır ki, uşağın mütaliəsi onun həyatında böyük rol oynayır, yaşlı adamın həyatında oynadığından daha böyük rol oynayır" [1]. Bəzən bir kitab uşaq həyatında bir məktəb (müsbət və ya mənfi mənada) rolunu oynayır.

Ona görə də uşaqlarda mütaliə mədəniyyətinin formalaşdırılması, onlarda mütaliəyə maraq yaratmaq, kitab seçməkdə kömək etmək, seçilən kitabın oxunmasına həvəs yaratmaq kitabın səmərəli mütaliəsi üçün istiqamət vermək önəmli məsələlərdəndir.

Mütaliə mədəniyyətinin formalaşdırılması ilə həm ailədə, həm də kitabxanada (xüsusən məktəb kitabxanasında) məşğul olunmalıdır. Valideynlər, müəllimlər və kitabxanaçılar uşaqlara mütaliənin mənəvi-əxlaqi dəyərlər aşılamasını, şəxsiyyətin ahəngdar formalaşmasındakı əhəmiyyətini geniş təbliğ etməli, tibbi baxımdan kitab oxumağın insan psixologiyasına və səhhətinə müsbət təsirlərindən ətraflı bəhs etməlidirlər.

Dünyanın ən nüfuzlu universitetlərində aparılmış tədqiqatlar sübut etmişdir ki, mütaliə insanların idrak qabiliyyətlərini məşq etdirməyə imkan verən müxtəlif mexanizmləri hərəkətə gətirir, uzun və xoşbəxt yaşamasına, diqqətinin formalaşmasına, nitqinin və düşünmə qabiliyyətinin inkişafına güclü təsir göstərir, dünyaya və ictimai sosial hadisələrə baxış şəklini dəyişir, doğru qərarlar verib, seçimlər etməsinə kömək edir. Mütaliə edənlər öz erudisiyası, kompentensiyaları və karyera inkişafı ilə həmişə başqalarından fərqlənirlər. Kitab mütaliəsi həmçinin insanın zehni və hissi inkişafında vacib tədris vasitəsidir.

Kanadadakı York Universitetinin psixoloqu Raymond A.Mar və Toronto Universitetinin idrak psixologiyası üzrə fəxri professoru Keith Oatley 2006 və 2009-cu illərdə çap etdirdikləri elmi məqalələrdə yazırlar ki, tez-tez roman oxuyan şəxslər başqa insanları yaxşı anlayır, başqalarının hisslərini daha tez başa düşürlər. R.Mar 2010-cu ildə uşaqlar üzərində apardığı araşdırma nəticəsində müəyyən etmişdir ki, hekayə oxuyan uşaqlar daha iti zehnli olur və digər insanları çevik anlayırlar [2]. Böyük Britaniyadakı Oksford Universiteti alimlərinin mütaliənin faydası haqqında 2012-ci ildə apardıqları tədqiqatlara görə, mütaliə edən adamların beyninin maqnit-rezonans analizi göstərir ki, onlar kitabdakı hadisə və təsvirləri oxuyan zaman beyinlərindəki mənimsəməyə görə cavab verən sahələr reallıqda bunları hiss edirmiş kimi fəallaşır. Bu effekti televizor və kompyuter vermir, əksinə televizor onları itirir... Cəmi 6 dəqiqə kitab oxumaq stressin səviyyəsini 30 faizə qədər azalda bilir ki, bu da musiqi terapiyasından və ya sadəcə gəzintidən daha səmərəlidir [3]. Amerika alimləri 7 yaşdan 14 yaşa kimi 55 uşaq üzərində apardıqları tədqiqat nəticəsində müəyyən etmişlər ki, fəal mütaliə edən uşaqlar daha inkişaf etmiş hüceyrə tellərinə və bundan irəli gələn nəticələrə malikdirlər. London və Uels universitetlərinin alimləri isə San – Fransiskoda 53-75 kişi və qadın arasında telomerin (hüceyrələrin hisslərə bölünmə prosesinin düzgünlüyünü tənzimləyir) uzunluğunu ölçərək müəyyən etmişlər ki, cinsindən asılı olmayaraq çox oxuyan insanların telomerinin uzunluğu daha çoxdur, yəni belə insanların hüceyrə və toxumaları qocalma prosesinə az meyillidir [4].

Uşaqlara izah edilməlidir ki, mütaliə bekarçılıq deyil, vacib, lazımlı və ciddi işlərdən biridir. Kitab oxumaq boş zaman işi deyil, bir həyati tələbat olmalıdır. O, həvəs yox, vərdiş olmalıdır. Kitab sosial bir alətdir, mütaliə bizi məqsədimizə aparan vasitədir. Voltern dediyi kimi, "oxumaq ruhu ucaldır".

Ona görə də mütaliəyə uşaqlıqdan həvəs və maraq yaradılmalıdır. Əgər uşaqda hələ kiçik yaşlarından mütaliəyə həvəs və maraq yaradılarsa, bu onu ömrü boyu müşaiyət edəcəkdir. Nəzərə almaq lazımdır ki, uşaqların tələbatları maraqları vasitəsi ilə reallaşır. Maraq tələbatın səciyyəvi mövcudluq forması, fərdin xüsusi cəhd göstərmədən öz istəyi ilə, zövq alaraq bir işə yönəlməsidir. Maraqlar mütaliə fəaliyyətinin motivləşməsinin mühüm cəhətlərindəndir. O həm daxili, həm də xarici təsirlə formalaşır.

Uşaqları kitab oxumağa təşviq etmək üçün mütaliənin səbəb və məqsədləri də ciddi şəkildə nəzərə alınmalıdır. Həyat təcrübəsi qazanmaq və özünütəkmilləşdirmək, idrakı ehtiyac, şəxsi təhsil və

təcrübi faydalanmaq, emosional, estetik tələbat, əylənmək mütaliənin əsas səbəb və məqsədlərindən sayılır. Bunları göz önündə tutmadan uşaqlarda mütaliəyə maraq oyatmaq çətindir.

Düzdür, bu gün erkən yaşdan rəqəmsal cihazlar əhatəsində böyüyən uşaqlara hərəkətsizcəsinə duran kitabları sevdirmək onsuz da əvvəlki kimi asan deyil. Amma mümkündür.

Məsələn, ailədə böyüklərin şəxsi nümunə olması (ailə üzvlərinin sistemli mütaliəsi), ailəvi kitaboxuma saatlarının təşkili (bunların televizor izləmə və komputerlə məşğul olma saatları ilə növbələşdirilməsi), uşaqlara ucadan kitab, həmçinin audiokitabların oxunması, onları uşaq qəzet və jurnallarına abunə etmək, evdə kitabxana və ya uşaq otaqlarında kitab guşəsi yaratmaq, birlikdə kitabxanaya, kitab mağazalarına getmək, bu zaman uşağın kitab seçməsinə səbirlə imkan vermək, ailəvi kitab müzakirələri keçirmək, vaxtaşırı kitab oxumağın faydalarını məşhur adamların mütaliə barədə fikirlərini xatırlatmaq, nüfuzlu nəşriyyatlar tərəfindən çap olunmuş yeni əsərlər barədə ailəvi söhbətlər, on - line mütaliə üçün müvafiq saytların ünvanının verilməsi və s. uşaqlarda mütaliəyə maraq yaratmaq baxımından sınanmış və səmərəli üsullardandır.

Praktika göstərir ki, məktəb və kitabxanalarda kitab təbliği, kitab sərgilərinin, mütaliə müsabiqələrinin keçirilməsi, yeni çap olunmuş kitablar haqqında informasiya bülletenlərinin hazırlanması, ucadan oxular, yazıçı və şairlərlə görüşlər, sinifdənxaric oxunacaq ədəbiyyatın siyahısının hazırlanması, siniflərarası "kitabxana günü", siniflərdə kitabxana və ya kitab güşələrinin təşkili, kitabxanada dərs, açıq havada kitab oxuma kampaniyaları, "Mütaliə həftəsi", "Küçə kitab hərəkatı"na qoşulmaq, "Açıq rəf" layihəsinin təşkili, oxunmuş kitablar üzrə rəy mübadiləsi (disput, konfrans, müzakirə və s.), anket sorğuları, "Bədii ədəbiyyat gündəlikləri"nin təşkili, elektron kitablar haqqında informasiyalar, inşa yazılar ("Ən çox sevdiyim bədii əsər", "Oxuduğum əsərlərdəki müsbət qəhrəmanlar" və s. mövzularda), "İlin ən yaxşı oxucusu", "İlin ən intellektual oxucusu", "Kim çox kitab oxuyub?" və s. mövzularda müsabiqələrin və sinifdənxaric oxu dərslərinin təşkili, kitabxanada və sinif təşkilat saatlarında mütaliənin faydaları haqqında söhbətlərin keçirilməsi və s. mütaliəyə maraq yaratmaqda çox fayda verir.

Bu işdə, şübhəsiz ki, şagirdlərdə mütaliə mədəniyyətinin və oxuya motivasiyanın yüksəldilməsi məqsədi ilə Təhsil Nazirliyi tərəfindən həyata keçirilən layihənin də böyük rolu olacaqdır. Layihənin əsas qayəsi təhsil müəssisələrinin nəzdində mütaliə edən icmanın yaradılması vasitəsilə şagirdlərdə oxuya marağın artırılması, məktəblilərin bədii ədəbiyyat, sənədli əsər və digər mətn növləri ilə tanış olması üçün şəraitin yaradılmasından ibarətdir.

Layihə çərçivəsində şagirdlər və müəllimlər arasında oxunan ədəbiyyatın, müxtəlif mətn növlərinin müzakirə yolu ilə dəyərləndirilməsi, mübadiləsi, şagirdlərdə reflektiv oxu vərdişlərinin yaradılması nəzərdə tutulur. Həmçinin, şagirdlərdə müasir İKT vasitələrindən istifadə etməklə səmərəli axtarış və dəyərli paylaşma mədəniyyətinin formalaşdırılması və təbliğinə nail olunması layihənin əsas hədəfləri sırasındadır [5].

Uşaqların mütaliə mədəniyyətinin formalaşmasında kitab seçimi xüsusi əhəmiyyət kəsb edir. Bu gün - sıradan xarakterlərə sahib, basmaqəlib hadisələri təsvir edən, "nə mənsəbə qulluq etdiyi" hətta müəllifləri tərəfindən belə bilinməyən, "söz yığınından ibarət olan", keyfiyyətsiz tərcümə olunmuş kitabların və ziyanlı saytların sayının artdığı bir dövrdə uşağın nə oxuması ilə maraqlanmaq valideyn, müəllim və kitabxanaçılar üçün çox önəmli olmalıdır. Yaxşı olar ki, kitab seçimində filoloq, kitabxanaçı və psixoloqların məsləhətlərindən, filoloqlar tərəfindən hazırlanmış tövsiyə siyahılarından istifadə edilsin.

Əlbəttə, bu siyahılar necə gəldi yox, müəyyən tələblərə uyğun tərtib edilməlidir. Burada uşaqların maraq dairəsi ciddi şəkildə nəzərə alınmalıdır. Maraqlar bir çox səbəbdən asılı olaraq fərddən fərdə dəyişir. Oxucunun içində olduğu dairə, cinsiyyət, yaş, zəka, fiziki imkanlar, başqa bir çox qabiliyyətlər, sosial mühit, ailə mühiti, mədəni faktorlar və s. bu səbəblərə daxildir. Siyahıya uşaqların maraq dairəsinə uyğun olmayan əsərlərin salınması onlarda oxuma həvəsini və alışqanlığını zəiflədə bilər. Burada israrçı yox, istiqamətverici olmaq məsləhətdir.

Siyahıda milli-mənəvi və bəşəri dəyərləri təbliğ edən, uşaqların mədəni, intellektual, psixoloji və nitq inkişafına daha çox təsir göstərən tanınmış yazarların nüfuzlu nəşriyyatlar tərəfindən çap edilmiş əsərlərinə (xüsusən "Uşaq ədəbiyyatı seriyası"ndan) üstünlük verilməlidir.

Bu zaman həm bilik, həm psixoloji, həm də mütaliə xarakterinə görə müxtəlif yaş mərhələlərinin (2-7; 7-12; 12-17) xüsusiyyətləri nəzərə alınmalı, orada hər yaş qrupuna uyğun əsərlər ayrıca göstərilməlidir. Məlumdur ki, mütaliə edərkən kiçikyaşlı uşaqları əsasən hadisə və faktlar maraqlandırdığı halda, yeniyetməyaşlı məktəblilər görüb duyduqları hər şeyin mahiyyətini bilməyə səy göstərir, əsərin fabulasına xüsusi ilə diqqətli olurlar. Kiçik yaşlı uşaqlara ilk növbədə şəkli yazı ilə çap edilmiş kitablar, daha sonra kiçik hərflərlə yazılmış və qalın kitablar əvəzinə böyük şriftli və asanlıqla oxuna biləcək, dilimizin qayda və qanunlarına tam riayət olunmaqla qələmə alınmış, şəkilləri əsərdəki duyğuları əyani olaraq canlandıran (çünki uşaqlar kəlmələrdən öncə rəsmləri oxuyurlar), səhifə düzəni, qrafik tərtibatı və istifadə edilən material cəhətdən özənli olan kitablar tövsiyə edilməlidir. Bu baxımdan, şagirdlərin yaş psixologiyası nəzərə alınmaqla belə əsərlərin yazılmasını stimullaşdırmaq məqsədi ilə Təhsil Nazirliyi tərəfindən "Kiçik yaşlı məktəblilər üçün ən yaxşı nəsr, nəzm və dram əsərləri" adı ilə keçirilən müsabiqə çox faydalı olacaqdır.

Siyahıların tərtibində oxucu tipləri də ciddi şəkildə nəzərə alınmalıdır. Başberger modelinə görə uşaq və gənclər üçün dörd oxucu tipi romantik, realist, intellektual və estetik tiplər müəyyən edilir. Siyahıya bu tiplərin marağını təmin edəcək əsərlərin daxil edilməsi vacibdir. Bunlarla yanaşı, siyahıda cinslərin marağı da nəzərə alınmalıdır. Tədqiqatlar və müşahidələr göstərir ki, yeniyetmələk dövründə qızlar daha çox məhəbbət, oğlanlar isə dedektiv və fantastik əsərləri oxumağa çox maraq göstərirlər.

Bizcə, uşaqların özlərinin doğru hesab etdiklərini və müsbət obrazları seçməyi öyrənmələri üçün oxunması tövsiyə olunan ədəbiyyat siyahısına ancaq müsbət deyil, mənfi xarakterlərin yaradıldığı əsərləri də əlavə etmək lazımdır. Bununla

yanaşı, qeyri-adi, uşağı qəliblər xaricinə çıxaracaq və yaradıcılığını körükləyəcək, həyata baxışını genişləndirəcək əsərlərə də yer verilməlidir. Unutmaq lazım deyil ki, mütaliə ancaq bilgi almaq üçün olmayıb, həm də əylənmək üçündür. Ona görə də siyahıya müxtəlif ədəbi növlərdə, rəngarəng janrlarda və üslublarda, müxtəlif mətn növlərində olan, əyləncəli və komik əsərlərin daxil ediməsi məsləhətdir. Unutmayaq ki, bədii əsər öz məzmunu, tərbiyəvi ideyası ilə yanaşı, növü, janrı, quruluşu, dili, üslubu və s. xüsusiyyətləri ilə də oxucuya təsir göstərir.

Siyahıda dünya xalqlarının ədəbiyyatından nümunələrin, dünya miqyasında mükafatlar almış uşaq əsərlərinin nəzərdə tutulması da məqsədəuyğundur. Çünki bu əsərlər ciddi tələblər əsasında müəyyən olunur, uşaqlara uluslararası bir baxış acısı qazandırır, fərqli mədəniyyətlərin tanınması üçün yararlı olur. Lakin belə əsərlər tövsiyə olunarkən onların hansı səviyyədə tərcümə olunduğu nəzərə alınmalıdır. (Unutmayaq ki, indi kitab bazarı xeyli bərbad tərcümə olunmuş kitablarla doldurulub).

Fikrimizcə, internet resurslarından müxtəlif mətn növlərində olan bədii, elmi, texniki və siyasi ədəbiyyatların mütaliəsini təmin etmək üçün nüfuzlu, uyğun görülən saytların ünvanları da siyahıya əlavə edilməlidir. Çünki indi mütaliə deyəndə həm nəşr olunmuş kağız kitabların, həm də elektron resursların oxunması nəzərdə tutulur.

Yaxşı olar kitab siyahıları əhatəli tərtib edilsin ki, uşaqların seçim imkanları da geniş olsun. Siyahılar ədəbiyyat kabinetində, kitabxanada görməli yerdən asılmalı, valideynlərə və uşaqlara verilməlidir.

Yuxarıda qeyd edildiyi kimi, uşaqlar tövsiyə olunan kitablarla yanaşı, özləri də çoxlu kitab seçib oxuyurlar. Bunu onlara birmənalı qadağan etmək məsləhət deyil. Sadəcə olaraq bu işə ciddi nəzarət olunmalı, uşaqlar istiqamətləndirilməlidir. Uşaqların necə oxumasından daha çox nə oxumaları ilə maraqlanmaq lazımdır. Onları çox kitab oxumaqdansa, yaxşı kitab oxumağa istiqamətləndirmək vacibdir. Çalışmaq lazımdır ki, uşaqlar nə isə müsbət təsirə malik kitabları seçib oxusunlar. Unutmayaq ki, "ümidlə açılıb qazancla bağlanan bir kitab, yaxşı bir kitabdır" (L.M.Alcott). Valideyn, müəllim və kitabxanaçılar uşaqları onların zövqünü korlayan, aqressivlik yaradan, şiddəti çözüm vasitəsi kimi təqdim edən, yaşına uyğun gəlməyən, heç bir ədəbi və tərbiyəvi dəyəri olmayan, postmodernist əsərlərdən - kitablardan və ziyanlı saytlardan uzaq tutmalıdırlar. Kitab mağazalarından kitab alarkən, həmçinin elekron kitab mütaliəsi zamanı da göstərilənlərə diqqət yetirilməsinin faydalı olacağına əminik.

Mütaliə mədəniyyətinin formalaşdırılmasında seçilmiş kitabların oxunmasına həvəs yaratmaq da önəmli məsələlərdən sayılır. Kitab oxumaq nə bir qanun, nə də borc deyil ki, oxucunu (uşaqları) səhifələrə baxmağa, tamaşa etməyə, lap elə oxumağa məcbur edəsən. Burada maraq və həvəsin, bir sıra stimullaşdırıcı amillərin olması, mütaliənin səbəb və məqsədlərinin, hədəfinin müəyyən edilməsi şərtdir. Tədqiqatçılar göstərirlər ki, seçilmiş kitabların birlikdə oxunması, onlardan parçaların uşaqlar üçün ucadan oxusu (bu zaman aktyor kimi davranma kitaba maraq oyadır), kitabın məzmunu barədə bir qədər məlumat vermək, amma tam məzmunu danışmamaq, kitab haqqında təəssüratların başqaları ilə paylaşılması,

əsərin qəhrəmanları barədə söhbətlər, uşaq yazıçıları haqqında məlumatların verilməsi, kitab haqqında "Bədii ədəbiyyat gündəliyi"ndə qısa qeydlər etmək barədə tapşırıqların verilməsi və s. seçilmiş əsərlərin oxunmasına sövq edən amillərdəndir.

Bundan başqa, kitabda anladılan hadisələrin məntiqi baxımdan möhkəm əlaqələndirilməsi, əsərin uzunluğunun uşağın diqqət müddətini keçməməsi, onun qəhrəmanlarından öyrənəcəyi bir sıra özəlliklərin (müsbət mənada) olması, milli dəyərlərlə yanaşı bəşəri dəyərlərin də təbliğ edilməsi, kitabın uşağın bilik və yaş səviyyəsinə, psixologiyasına, dil bilgisi qaydalarına uyğunluğu, bədii tərtibat və formatının, şəkillərinin (xüsusən üz qabığının) əsərin məzmununa uyğun olması, kağızın keyfiyyəti, içindəki yazı formatı da onun həvəslə oxunmasına səbəb olan nüanslardandır.

Kitabın səmərəli mütaliəsi üçün səmərəli istiqamət və məsləhətlər vermək mütaliə mədəniyyətinin formalaşmasında vacib ünsürdür. Əlbəttə, mütaliə zamanı uşağın nə oxumasından daha çox hansı nəticə çıxaracağı maraqlıdır. Oxunan səhifələrin sayının çoxluğu uşağın yaxşı oxucu olduğunu göstərməz. Oxumaq yazılı sözləri tanıma, sözlərin mənalarının nə olduğuna qərarvermə və bu sözlərin mənalarının dərk edilməsi kimi bir çox bacarığı tələb edən olduqca kompleks bir əməliyyatdır. Sübut edilmişdir ki, adını oxuduğu obyektin nə olduğunu bilən uşaq oxuma və anlamada daha sürətli olur. Ona görə də valideyn, müəllim və kitabxanaçıların əsas hədəfi mütaliə edən uşaqları "məna çıxarmağa" yönəltməkdir. Çalışmaq lazımdır ki, uşaq oxuduğunu dərk etsin və onu qəbul etməyi bacarsın. Əsəri oxuyub qurtardıqdan sonra onu bir neçə yöndən təhlil edə bilsin. Bu yolla oxunmuş əsər uzun müddət yadda qalır və gözlənilən səmərəni verir.

Uşaqları necə gəldi mütaliəyə deyil, sistemli və "dərin mütaliəyə" (yavaş, qərq olmuş şəkildə, qavrayışın detalları ilə, emosional və ruhi qarmaqarışıqlıqlarla zəngin) alışdırmaq gərəkdir. Əlbəttə, ancaq rasional - ağıl və məntiqə əsaslanan, məqsədəuyğun və məqsədəmüvafiq oxu, oxucunun öz hədəfini və kitabdan nə öyrənəcəyini əvvəlcədən müəyyən etməsi arzulanan faydanı verə bilər.

Şagirdlərdə müasir İKT vasitələrindən istifadə etməklə səmərəli axtarış və dəyərli paylaşma mədəniyyətinin formalaşdırılmasına nail olmaq vacib məsələlərdəndir. Yuxarıda qeyd edildiyi kimi, indi uşaq və gənclərin vaxtlarının xeyli hissəsini kompyuterin qarşısında keçirdiyini nəzərə alsaq, bu məsələnin nə qədər ciddi əhəmiyyət daşıdığı bir daha aydın olar.

Sürətli oxu da səmərəli mütaliənin əsas şərtlərindəndir. Uşaqlarda sürətli oxu bacarıqlarının yaradılmasına diqqətlə yanaşmaq lazımdır. Bunun üçün onları fasilələrlə oxuya, "sözləri deyil, fikirləri görməyə" (yəni tək-tək sözləri deyil, söz qruplarını oxumağa), səhifə ilə (monitorla) göz arasında normal məsafə saxlamağa və səhifəyə dik bucaq altından baxmağa, yalnız gözlərdən istifadə etməyə, nə oxuyacağını və necə oxuyacağını əvvəlcədən müəyyən etməyə istiqamətləndirmək lazımdır.

Oxunmuş əsərlərin mütaliəsindən sonra və ya bir müddət sonra onların digər oxunmuş əsərlərlə müqayisəsi təşkil edilməlidir. Bu, uşaqların uzunmüddətli və qısamüddətli yaddaşını inkişaf etdirir.

Uşaqları mütaliə etdikləri kitablardan qeyd və xülasələr götürməyə vərdiş etdirmək də faydalı olur. (Bunu "Bədii ədəbiyat gündəliyi"ndə də icra etmək mümkündür) Bu, oxunmuş əsərin daha yaxşı yadda qalmasına kömək edir.

Mütaliənin səmərəliliyi onun icra olunduğu şərait və vaxtdan çox asılıdır. Ona görə də valideyn, müəllim və kitabxanaçılar uşaqlar üçün münasib mütaliə vaxtının təyin edilməsinə (şərti olaraq) xüsusi fikir verməlidirlər. Sübh və səhər çağı, yatmazdan qabaq mütaliə üçün ən münasib vaxt sayılır. Əzgin və yorğun vaxtlarda uşaqların mütaliəsini təşkil etmək məsləhət görülmür.

Mütaliə salonu olduqca sakit, mümkün qədər bər-bəzəkdən uzaq olmalıdır. Atmosfer temperaturu və işıqlandırma sistemi münasib, mütaiə vasitələri - stol və stul, həmçinin digər texniki avadanlıqlar mütaliə üçün əlverişli olmalıdır.

Mütaliə ilə məşğul olan uşaqların gün ərzində konkret istirahət saatlarının müəyyən edilməsi, mütaliəarası fasilələr, düzgün qidalanma, zehnə xeyirli qidaların qəbulu da diqqət mərkəzində saxlanılmalıdır.

ƏDƏBİYYAT

1. Orta məktəbdə ədəbiyyat tədrisi, II hissə, "Maarif" Bakı-1976.
2. http://kitabklub.org/tag/mutaliə/.
3. Kərimli S. "Məktəblilər mütaliədən uzaqlaşırlar. Səbəb nədir?",
"Təhsil" jurnalı, 2014, №5.
4.http://news.day.az/society/367365.html.
5.http://www.edu.gov.az/view.php?lang=az&menu=9&id=9558.

Diqqət! Diqqət!

Biz Sizə – zəngin pedaqoji iş təcrübəsinə malik orta məktəb müəllimlərinə, elmi-metodik tədqiqatlarla məşğul olan alimlərə müraciət edirik. Azərbaycan dili və ədəbiyyatının tədrisi ilə bağlı iş təcrübələrinə, metodikaya dair yazılara ehtiyacımız var. Jurnalımızla yaxından əlaqə saxlayın və onu məqalələrinizlə təmin edin. Unutmayın ki, o, Sizin jurnalınızdır.

Redaksiya.

"XİTAB" MÖVZUSUNUN ÖYRƏDİLMƏSİNDƏ YENİ TƏLİM TEXNOLOGİYALARINDAN İSTİFADƏ

Sahilə BİLALOVA,
287 nömrəli "Zəkalar" liseyinin müəllimi

Məqsəd:

1. Xitab haqqında biliklərin ümumiləşdirilməsi.
2. Nitqi gözəlləşdirmək.
3. Məntiqi və yaradıcı təfəkkürü inkişaf etdirmək.

Dərsin tipi: induktiv.

İş forması: böyük və kiçik qruplarla iş.

İş üsulu: beyin həmləsi, müzakirə, suallar.

İnteqrasiya: ədəbiyyat

Resurslar: iş vərəqləri, dərslik, noutbook, proyektor və s.

Dərsin gedişi:

1. Motivasiya. Dərsin başlanğıcında mövzunun tapılması üçün

lövhəyə belə bir slayd yerləşdirirəm:

Ay nənə, bir nağıl da de!
Ömrum-günüm, yat daha
Ay nənə, o kimdir elə pəncərəni bərk vurur?
Heç kim deyil, yat, **ay bala**, yeldir, qarı sovurur...
Bəs, ay nənə, atam indi haradadır, görəsən?
Bıy, başıma xeyir, **oğul,** yatmayıbsan hələ sən?!
Axı, **nənə,** heç demirsən, atam haçan gələcək
İndi onu səngərdə bəs üşütmürmü qar, külək?
Ömrüm-günüm, körpə quzum, qurban olum adına,
Niyə köks ötürürsən o düşəndə yadına?

Sonra uşaqlara müraciət edirəm: - Uşaqlar, sizcə bu şeir parçasında fərqləndirilmiş söz və ya söz birləşmələri nəyi bildirir? Şagirdlər bu dialoqda nənə ilə nəvənin bir-birinə müraciət etdiklərini söyləyirlər. Onların fikirlərinin düzgün olduğunu bildirərək, onlara əvvəlcədən hazırladığım krossvordu təqdim edirəm:

1. 26 fevralda işğal olunmuş rayonumuz.
2. Biləsuvarlı milli qəhrəmanımızın soyadı.
3. S.Rüstəmin Cənub mövzusunda yazdığı məşhur şeiri.
4. Əməli yazı növü.
5. 1918-ci il 9 noyabrda AXC nə yaratmışdır?

X	O	C	A	L	I			
İ	B	R	A	H	İ	M	O	V
T	Ə	B	R	İ	Z	İ	M	
A	F	İ	Ş	A				
B	A	Y	R	A	Q			

Beləliklə, mövzunun adını şagirdlərdən alaraq lövhədə qeyd edirəm. Sonra ortaya belə bir tədqiqat sualı qoyuram: "Sizcə, xitablar nitqimizi zənginləşdirirmi?"

II. Tədqiqatın aparılması. Şagirdləri dörd qrupa bölürəm. Hər qrupa iş vərəqi təqdim edərək, tədqiqatın vaxtını söyləyirəm.

I qrup üçün İş vərəqi

"Tıq-tıq xanım" "Oxu, tar" "Axırıncı aşırım"



Şəkillərə baxaraq, cizgi filmindən, şeirdən və kinofilmdən yadınıza düşən xitabları yazın.

2. Xitab haqqında yürüdülən fikirlərdən biri səhvdir:

A) Cümlədə müraciət olunanı bildirir.
B) İsmin adlıq halında işlənir.
C) Cümlənin əvvəlində, ortasında və sonunda işlənə bilir.
D) Cümlənin xəbəri ilə uzlaşır.
E) Mübtədadan xüsusi intonasiyası ilə fərqlənir.

3. Şəkilləri xitab kimi işlədərək cümlələr qurun:

,_____.

_____, ,_____.

_____,

II qrup üçün İş vərəqi

"O, olmasın bu olsun" "Balaca çoban" "Uşaq və buz"

Şəkillərə baxaraq, kinofilmdən, cizgi filmindən və şeirdən yadınıza düşən xitabları yazın.

2. Xitabla bağlı fikirlərdən yalnız biri doğrudur:

A) Xitab yalnız insana aid sözlərlə ifadə olunur.
B) Tərkibinə görə xitablar yalnız bir sözdən ibarət olur.
C) Cümlənin yalnız əvvəlində işlənir.
D) Xitablar ay, ey, a, hey kimi köməkçi vasitələrlə birlikdə də işlənir.
E) Cümlə üzvləri ilə sintaktik əlaqəyə girir.

3. Şəkilləri xitab kimi işlədərək cümlələr qurun:

_____, .

_____

,

,_____.

,_____.

III qrup üçün İş vərəqi

"Tülkü həccə gedir" "Ceyran" "Ögey ana"



Şəkillərə baxaraq cizgi filmindən, şeirdən və kinofilmdən yadınıza düşən xitabları yazın.

2. Hansı cümlədə qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan iki söz işlənmişdir?

A) Nəhayət, Həsən müəllim iclasdakılara müraciətlə sözə başladı:
B) Sona, o kitabı mənə ver də
C) Məncə, sən yanlış yoldasan.
D) Ey mənim həqiqi dostum, de görüm fikrin nədir?
E) Bilirsən, Vidadi, sözün doğrusu,
Olmaq istəmirəm vicdan oğrusu.

Şəkilləri xitab kimi işlədərək cümlələr qurun:

_____, , _____

_____, .

, _____.

IV qrup üçün İş vərəqi

"Əhməd haradadır?" "Şəngülüm, Şüngülüm..." "Dovşan, dovşan..."



Şəkillərə baxaraq kinofilmdən, cizgi filmindən və şeirdən yadınıza düşən xitabları yazın.

2. Cümlələrin birində mürəkkəb xitab işlənməyib.
   A) Seyr et bu varlığı, şeyda bülbülüm!
   B) Sən ey gurlayan dəniz, məni dinlə.
   C) Niyə elə danışırsan, ay bala, bizdən razı deyilsən?
   D) Ey mənim həqiqi dostum, fikrin nədir?
   E) Azərbaycan əsgəri, marş irəli!
3. Şəkilləri xitab kimi işlədərək cümlələr qurun.

_____, .

_____, , _____.

, _____

III. Məlumat mübadiləsi.

Şagirdlərə verdiyim vaxt tamam olur. Mən qrup rəhbərlərini tədqiqatlarının nəticəsi ilə yoldaşlarını tanış etmək üçün çağırıram. Hər qrup liderinə vaxt ayrılır və onlar təqdimata başlayırlar. Hər bir təqdimata sinifdən sual verilə bilər. Sualları ya lider, ya da hər hansı qrup üzvü cavablandıra bilər.

IV. Məlumatın müzakirəsi və təşkili.

İş vərəqlərindəki məlumatların müzakirəsini aparıram. Onlar arasında əlaqələr qurur, oxşar cəhətləri yardımçı sualların köməyi ilə şagirdlərə tapdırıram. Daha sonra kollektiv tapşırıq yerinə yetiririk.

Tapşırıq. Sadə və mürəkkəb xitabları ayırın:
- Dost, əlini mənə ver!
- Ey Vidadi, gərdişi-dövrani-kəcrəftarə bax.
- Arxa sırada dayananlar, bir az qabağa gəlin!
- Sözüm sizədir, qoçaqlar!
- Elimizə xoş gəlmisən, bahar qız!
- Doğma Bakı, günü-gündən gözəlləşirsən!
- Ey insanlar, sülhə gəlin!
- Vətən oğlu, bu torpaq sənə güvənir!

V. Nəticənin çıxarılması.

Cavabları yekunlaşdırıram. Motivasiya mərhələsində irəli sürülən tədqiqat sualı və ilkin fərziyyələr müqayisə olunur. Beləliklə, XİTABın
- cümlədə müraciət olunan şəxsi və əşyanı bildirdiyini,
- adlıq hallı isimlərlə və ismi birləşmələrlə ifadə edildiyini,
- həm canlıya, həm cansıza müraciət olunduğunu,
- sadə və mürəkkəb,
- müxtəsər və geniş olduğunu,
- cümlə üzvlərindən vergüllə ayrılmasını bir daha təkrarlayaraq, öyrənmiş oluruq.

VI. Yaradıcı tətbiqetmə.

Bu mərhələdə şagirdlərə xitablardan istifadə etməklə dialoqlar qurmağı tapşırıram. Sonra onlardan bir neçəsini dinləyirəm.

VII. Refleksiya.

Qrupları əvvəlcədən hazırladığım meyarlara əsasən qiymətləndirirəm.
Ev tapşırığını elan edib, dərsi yekunlaşdırıram.

NİTQ MƏDƏNİYYƏTİ VƏ ONUN TƏDRİSİ YOLLARI

Aygün MİKAYILOVA,
Bakı Avropa liseyinin müəllimi

Açar sözlər: *nitq mədəniyyəti, tələffüz, durğu işarələri, qiymətləndirmə.*
Ключевые слова: *Культура речи, произношение,знаки препинания, оценивание.*
Key words: *speech habits, pronunciation, punctuation marks, assessment.*

Nitq mədəniyyəti ümumxalq səciyyəli olub, xalq mədəniyyətinin tərkib hissəsidir. Nitq mədəniyyəti xalqdan mayalanır, xalqdan qidalanır. Xalq ümumən milli mədəniyyətin, o cümlədən də nitq mədəniyyətinin qoruyucusu, daşıyıcısıdır. Böyük söz ustaları həmişə xalqın dilinə əsaslanmış və dilin inkişafı, yayılması yolunda çalışmışlar. Söz, nitq, mövzumuz olan nitq mədəniyyəti cəmiyyətin, təhsilin əsas təməllərindən sayılır desək yanılmarıq. Nitqlə, danışıqla, sözlə qanlar kəsilir, sülhlər bağlanır, müharibələrə son qoyulur. Nitq mədəniyyəti qədim tarixə malikdir. Hələ qədim Romada natiqlik qabiliyyəti olan insanlar xüsusilə fərqlənirdi və onların bu bacarığından döyüşlərdən tutmuş yerli əhəmiyyətli bir çox məsələlərin müzakirəsinə qədər ən müxtəlif məqsədlər üçün istifadə edilir. Məhz elə buna görə də gözəl nitq haqqında mütəfəkkirlər çox qiymətli fikirlər söyləmişlər.

Söz haqqında istər dünya dühalarının, istərsə də Azərbaycanın görkəmli fikir, düşüncə adamlarının zəngin aforizmləri, hikmətli sözləri mövcuddur.

Hippokrat demişdir: "Təbabət 3 nəhəngin çiynində dayanır: bitki, bıçaq, söz. 3-çü daha lazımlıdır. Çünki həmişə və hər yerdə var". Hippokratın bu sözündə böyük həqiqət var. Söz, nitq cəmiyyətdə ən vacib olan amildir. Bəzən dərmanın köməyi yetməyən yerdə danışıq, nitq xəstəyə əlac olur.

Ədəbi-tarixi mənbələrə görə, Fələki Şirvani, İzzəddin Şirvani, Mücirəddin Beyləqani, Əfzələddin Xaqani, Nizami Gəncəvi, Həsənoğlu, Nəsirəddin Tusi, Əbdülrəşid Bakuvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Saib Təbrizi, Molla Pənah Vaqif, Qətran Təbrizi, Şah İsmayıl Xətai, Marağalı Övhədi və başqaları böyük natiqlər olmaqla bərabər nitq mədəniyyətinə də yüksək qiymət vermişlər.

Fikir və düşüncə adamlarımızın nitq mədəniyyəti haqqında bu cür qiymətli fikirlərinin olmasına baxmayaraq, nitq mədəniyyəti istər Azərbaycan dilçiliyində, istərsə də dünya dilçiliyində gec öyrənilməyə başlanan sahələrdəndir. Nitq mədəniyyəti dilçiliyin bir bölməsi kimi XX əsrin 70-ci illərindən öyrənilməyə başlamışdır. "1976-cı ilin iyununda Çexoslovakiyada sosialist cəmiyyətində nitq mədəniyyətinin aktual problemlərinə aid beynəlxalq müşavirə keçirilmişdir. Burada 50-yə yaxın məruzə dinlənilmişdir" (2,255).

Nitq mədəniyyəti sahəsində əsaslı dönüş SSRİ tərkibindəki digər respublikalarda olduğu kimi Azərbaycanda da keçən əsrin 60-cı illərindən başlandı. 1968-ci ildə A.Abdullayevin "Nitq mədəniyyəti və natiqlik məharəti haqqında" kitabı çap olundu. Məhz bu illərdən nitq mədəniyyəti artıq bir elm sahəsi kimi tədqiqata cəlb edildi.

"Dil mədəniyyəti" və "Nitq mədəniyyəti" məcmuələri buraxıldı. 1969-cu ildə AMEA Rəyasət Heyətinin təşəbbüsü ilə Dilçilik İnstitutunda "Nitq mədəniyyəti" şöbəsi açıldı. "Dil məcmuəsi"nin 7 sayı çıxdı. AMEA-da Respublika elmi konfransı keçirildi, bu konfransda 37 məruzə dinlənildi

N.Abdullayev bildirir ki, "Ulu öndərimiz H.Əliyev hələ 1981-ci ildə Azərbaycan yazıçılarının 7-ci qurultayındakı nitqində xalqın sərvəti olan dilin təkmilləşdirilməsi və zənginləşdirilməsində, onun lüzumsuz dialekt sözlərindən, jarqon ünsürlərindən təmizlənməsində nitq mədəniyyətinin əhəmiyyətini xüsusi qeyd edərək demişdir: "Azərbaycan ədəbi dilinin saflığına, kütlələrin nitq mədəniyyətinə daim qayğı göstərilməlidir... Yazıçı nitq mədəniyyətinin, ədəbi dil normalarının qanunvericisi olmalıdır" (1,26).

"Dilin bütün fəaliyyət sahələrini əhatə edən nitq mədəniyyətinin əsas vəzifələrindən biri müasir dilimizdə gedən başlıca prosesləri izləmək, inkişaf meyllərini müəyyənləşdirmək, yazılı və şifahi nitqin ədəbi normalarına düzgün əməl olunmasına kömək etməkdir" (2, 256).

Hər kəsin cəmiyyətdə, insanlar arasında, yığıncaqlarda, müxtəlif məclislərdə, ailədə müəyyən ölçülərə sığan, ümumi davranış normalarına tabe olan hərəkət mədəniyyəti olduğu kimi, danışıq mədəniyyəti də olmuşdur və yaxud olmalıdır. Bilindiyi kimi, dilin bütün sahələrində - fonetik sistemində, lüğət tərkibində, qrammatik quruluşunda daxili qanunlar əsasında müəyyənləşmiş normalar var. İnsanların həmin normalara yiyələnməsi və gündəlik ünsiyyətində onlara əməl etməsi nitq mədəniyyətidir. Əlbəttə, fonetik tələffüz, leksik, qrammatik normalara bələd olmaq vacibdir. Ancaq əsl nitq mədəniyyəti üçün bu, kifayət deyil. "Onlar yazmamışdırlar" cümləsində bütün fonetik, qrammatik tələblərə əməl olunmuşdur. Ancaq bu, süni deyilişdir. "Onlar yazıblar" deyilişində akademik norma pozulur, lakin təbii danışıq forması gözlənildiyi üçün bu variant nitq mədəniyyəti baxımından daha məqbul sayılır.

Natiqliklə nitq mədəniyyətini eyniləşdirmək olmaz. Natiqlik və şairlik, rəssamlıq, bəstəkarlıq, müğənnilik kimi sənətdir. Hər kəs nitqini tərbiyə edə bilər, lakin hamı natiq ola bilməz. Ancaq hər kəs nitqini düzgün qurmağa, normaları öyrənməyə çalışmalıdır. Ədəbi dilə yiyələnməyin özü nitq mədəniyyətinə sahib olmağa çalışmaqdır. Təsadüfi deyil ki, bir sıra Avropa xalqlarında "ədəbi dil" adlandırdığımız anlayışa "mədəni dil", "mədəniyyət dili" deyirlər. Yəni nitqin mədəniliyi dilin, danışığın gözəlliyi bütövlükdə millətin mədəniyyətinin tərkib hissəsidir.

Nitq mədəniyyəti milli mədəniyyətin tərkib hissəsidir. Hansı xalq mədəni cəhətdən yüksək inkişaf edibsə, onun nitq mədəniyyəti o qədər mükəmməl olur. Millətin mədəniyyətinin nə qədər yüksək olmasını şərtləndirən göstəricilərindən biri onun gözəl nitqdir. Nitq mədəniyyəti dedikdə söhbət yalnız şifahi nitqdən deyil, yazılı nitqdən də gedir. Yüksək nitq mədəniyyəti üçün bir sıra tələblər var ki, bu tələblər aşağıdakılardan ibarətdir: nitq düzgün, ifadəli, dəqiq olmalıdır.

Nitq mədəniyyəti yalnız nitqin zənginliyi ilə deyil, həmçinin nitqin düzgün-

lüyü, dəqiqliyi, aydınlığı, səlisliyi və ifadəliliyi ilə ölçülür.

Nitq mədəniyyəti ümumi mədəniyyətin tərkib hissəsidir. Hələ 1969-cu ildə akademik M.Şirəliyev yazırdı: "Mədəniyyətimizin inkişafı elə bir səviyyəyə gəlib çatmışdır ki, artıq orfoepiya qaydalarına riayət etmək günün vacib məsələlərindəndir" (3,10). Buradan belə nəticə çıxır ki, cəmiyyət ümumən yüksək, mədəni bir səviyyəyə çatmasa orada nitq mədəniyyətindən danışmaq olmaz. Və yaxud mədəni səviyyəcə yüksək olmayan bir cəmiyyətdən nitq mədəniyyəti gözləmək yersizdir.

Nitq mədəniyyəti nə qədər təcrübədən keçmiş, ümumi prinsiplərə malik olsa da, şəxsin nitqinin mədəniyyətində təzahür etmirsə, riayət edilməyən, icra olunmayan qanuna bənzəyir ki, onun da cəmiyyətə fayda verə biləcəyini düşünmək düzgün olmazdı. Cəmiyyətdəki hər kəsdən normal nitq tələb olunur ki, həmin tələbə cavab verməyən insanda nə qədər müsbət cəhətlər olsa da, "mədənidir" deyə fikirləşmək çox çətindir. Ona görə ki, bizim subyektiv zövqümüzdən, yaxud münasibətimizdən asılı olmayaraq ictimai şüurda kifayət qədər obyektiv olan "nitq mədəniyyəti" təsəvvürü vardır. Dil inkişaf etdikcə həmin təsəvvür daha mükəmməl, daha pozulmaz olur. "Məsələn, ingilis, alman, fransız və ya rus dilinə diqqət yetirsək görərik ki, dünyanın bu inkişaf etmiş dillərinin həm şifahi, həm də yazılı təzahürlərində mübahisəsiz qəbul olunan qaydalar, yaxud normalar mövcuddur. Azərbaycan dili də, bəzi istisnalarla, həmin inkişaf etmiş dillər kimi müəyyən qaydalara, yaxud normalara malikdir" (4).

Yüksək nitq mədəniyyətinə malik insan ilk növbədə danışdığı, ünsiyyət qurduğu dilə mükəmməl yiyələnməlidir. "Nitq mədəniyyəti ümumxalq mədəniyyətinin çox mühüm tərkib hissəsidir. Yüksək nitq mədəniyyəti vərdişinə yiyələnmək istəyən hər bir azərbaycanlı I növbədə doğma ana dilinin söz xəzinəsinə dərindən bələd olmalıdır, onun fonetik, leksik-semantik orfoqrafik və orfoepik, onomaloji və frazeoloji, morfoloji və sintaktik, üslubi və poetik normalarını, qanun və kateqoriyalarını yaxşı bilməlidir" (5,105).

Nitq mədəniyyətində insanların xarakteri də rol oynayır. Yüksək nitq mədəniyyəti ictimai-tərəqqi baxımından ciddi əhəmiyyətə malikdir. X.Cabbarovun fikrincə, riyaziyyatçılar belə nəticəyə gəlmişlər ki, hansı işçi kollektivi arasında yüksək nitq mədəniyyəti, nəzakətli ünsiyyət, xoş rəftar və qarşılıqlı anlaşma varsa orada işlər yaxşı gedir. Əmək məhsuldarlığı sürətlə artır. Adamlar sağlam və uzunömürlü olur (5,107).

Dilin bütün fəaliyyət sahələrini əhatə edən nitq mədəniyyətinin əsas vəzifələrindən biri müasir dilimizdə gedən başlıca prosesləri izləmək, inkişaf meyllərini müəyyənləşdirmək, yazılı və şifahi nitqin ədəbi normalarına düzgün əməl olunmasına kömək etməkdir.

Azərbaycan dili həm fonetik, həm keksik, həm də qrammatik quruluşuna görə dünyanın ən inkişaf etmiş zəngin dillərindən biridir. Bu dil fikri ifadə imkanlarına görə də, musiqililiyi ilə də diqqəti cəlb edir. Bu gün qloballaşma dövründə düzgün, dəqiq, aydın, ifadəli, məntiqi, canlı, sadə və təsirli danışa və yaza bilmək, başqa sözlə, yüksək nitq mədəniyyətinə

yiyələnmək mühüm tələb kimi qarşıya qoyulur. XXI əsrin şagirdi dərin biliyə, hərtərəfli məlumata malik olmaqla yanaşı, rəvan, aydın, ifadəli cəlbedici bir dillə danışmağı da bacarmalıdır. Nitq mədəniyyətini, düzgün, ifadəli, dəqiq nitqi, danışığı dildə formalaşdırmaq üçün məktəbdən, mən deyərdim, uşaq bağçalarından başlamaq lazımdır. Nitq mədəniyyəti orta məktəblərdə Azərbaycan dili təliminin ən mühüm problemlərindən biri hesab edilməlidir. Nitq mədəniyyəti sahəsində valideynlərin, bağça tərbiyəçilərinin, orta və ali məktəb müəllimlərinin, xüsusilə dil-ədəbiyyat müəllimlərinin üzərinə məsul vəzifə düşür. Ana dilinə məhəbbət ailədən başlayır, məktəbdən başlayır.

Məhz elə bu səbəbdən də biz nitq mədəniyyətini məktəblərdə nə vaxtdan öyrənilməsi tarixinə nəzər salmaq istədik. Azərbaycan dili dərslərində nitq mədəniyyəti mövzusuna yer verilməsinin tarixi XX əsrin əvvəllərinə gedib çıxır.

Hafiz Məmmədəmin Şeyxzadənin 1908-ci ildə çapdan çıxmış "Fəsahət və bəlağət, fənni inşa və üsuli-kitabət" əsərinin ikinci fəsli fəsahət və bəlağət məsələlərinə həsr olunmuşdur (1, 185). Orada göstərilir ki, "bəlağət" bir məramın gözəl, surətdə ədası, düzgün ifadə olunması, "fəsahət" isə bir dilin düz və xətasız, asanlıqla söylənilib yazılması de-məkdir. Kitabın həmin fəslində həmçinin "Elmi-məani" deyilən fənlərdən bəhs edilir, təşbeh, məcaz, kinayə və istiarə kimi məsələlər şərh olunur. "...bu fənnin təkcə ali məktəblərdə deyil, bütün orta ixtisas və ümumtəhsil məktəblərində, xalq universitetlərində və başqa kütləvi auditoriyalarda tədris olunması xalqın nitq mədəniyyətinin yüksəldilməsinə çox böyük təkan verə bilər" (6, 15).

İnsanda nitq mədəniyyətinin formalaşmasında bədii ədəbiyyat, mətbuat, radio və televiziya aparıcı rol oynasa da təhsilin yerini heç nə vermir. Son illər-müstəqillik dövründə ümumtəhsil məktəblərində nitq mədəniyyətinin nəzəri və əməli məsələlərinin tədrisinə ciddi diqqət göstərilir.

Respublika Prezidenti İ.Əliyevin "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət proqramı"nın təsdiq edilməsi haqqında sərəncamından irəli gələn tələblər nitq mədəniyyəti fənninin bütün ali məktəblərdə ayrıca fənn kimi tədris olunmasını vacib bir məsələ kimi qarşıya qoyur. Lakin tək ali məktəblərdə deyil orta məktəblərdə, aşağı siniflərdən başlayaraq nitq mədəniyyəti vərdişləri aşılanmalıdır. Təhsil alan hər bir şagird ana dilinə sevgi və hörmət ruhunda tərbiyə olunmalı, ədəbi dilin normalarını mənimsəməli, onlara ciddi şəkildə riayət etməyi bacarmalıdır.

Məktəblərin tarixi təcrübəsi də aydın göstərir ki, hansı məktəbdə Azərbaycan dilinin tədrisi yüksək səviyyədə qurulursa, ixtisasından asılı olmayaraq, bütün müəllimlər təlimdə vahidlik prinsipini gözləyib, şagirdlərin nitqinə ciddi tələbkarlıqla yanaşırsa, orada bütün fənlər üzrə fərəhli nəticələr qazanılır. "Məktəb elmin və mədəniyyətin tərəqqi qapısı, ana dili isə onun açarıdır" (6,111).

M.Adilov yüksək nitq mədəniyyəti üçün vurğu və intonasiyanın böyük rolu olduğunu qeyd edir. "Şifahi dilin bir sıra səciyyəvi cəhətləri vardır ki, bunlar onu yazılı dildən fərqləndirir. Burada aydın tələffüzün, düzgün intonasiyanın və fasilələrin dəqiq, sərrast sıralanmasını xatırlatmaq istəyirik. Nitqin sürəti, səs to-

nunun müxtəlifliyi də öz təsirini göstərir (7,94). İntonasiya hər bir konkret dilin *fonetik və xüsusən qrammatik xüsusiyyətləri* ilə əlaqədardır, buna görə də müxtəlif şəkildə təzahür edir (7,95). Şagirdlərin nitq mədəniyyətinin formalaşmasında intonasiyanın və durğu işarələrinin tədrisinin böyük rolu vardır. Təəssüf ki, durğu işarələrinin tədrisi kimi, intonasiyanın tədrisi də diqqətdən kənarda qalır və qiymətləndirmə prosesində buna barmaqarası baxılır.

Şagirdlərə nitq mədəniyyəti vərdişlərini düzgün aşılamaq üçün ilk öncə müəllimlərin özlərinin nitqindən başlamaq lazımdır. Bəzən orta məktəb həyatında şagirdlərin dərslərdə passivliyindən, etinasızlığından, laqeydliyindən, intizamsızlığından şikayətlənirlər. Belə neqativ hallar şagirdlərin bilik səviyyəsini, marağını, istəyini bilməyən, öz üzərində işləməyən, məşğələlərə zəif hazırlaşan müəllimlərin dərs dediyi siniflərdə daha çox müşahidə olunur. Müasir şagird geniş informasiya tutumuna malikdir. Müəllimin köhnə informasiyalarla sinfi idarə edə bilməsi artıq mümkün deyil. İndiki informasiya bolluğu zamanında müəllimin nəzəri və praktik hazırlığı və nitq mədəniyyəti elə bir səviyyədə olmalıdır ki, şagirdlərin marağını, diqqətini cəlb edə bilsin. Hər bir sənət sahibinin söylədiyi nitq, danışıq tərzi fərqli olmalıdır. Bu baxımdan alimin, müəllimin, mühəndisin, həkimin, yazıçının, siyasi xadimin və başqalarının auditoriyada söylədikləri nitq bir-birindən fərqlidir. Orta məktəb müəlliminin nitqi isə sinfin səviyyəsinə uyğun qurulmalıdır. Aydınlıq, yığcamlıq, səlislik, dəqiqlik və s. müəllimin danışığının başlıca keyfiyyətləridir.

Nitq mədəniyyəti şəxsiyyətin ümumi mədəniyyətinin tərkib hissəsidir. Nitq mədəniyyətinə malik olmaq üçün ədəbi *dil normalarını yaxşı bilmək lazımdır.* Q.Cəfərov Azərbaycan dilində nitq mədəniyyəti təliminin qarşısında duran vəzifələr kimi bunları göstərirdi: 1) Dilin lüğət tərkibinin minimal sabitliyinə nail olmaq; 2) Dil quruculuğunda əldə etdiyi müsbət keyfiyyətləri daha da artırmaq; 3) İtkinin sayını minimuma endirmək (6,75). Bu vəzifələri həyata keçirmək üçün Azərbaycan dilini dərindən bilmək lazımdır. Səriştəli nitq fəaliyyətinə qabil olmayan şəxsdən mədəni nitq, nitq mədəniyyəti gözləmək yersizdir. "Nitq mədəniyyəti təlimi dil normalarının əməl olmasını tələb edir, ədəbi dil normaları pozulması hallarına qarşı mübarizə aparır" (6 ,76).

V.Tapdıqoğlu çox haqlı olaraq qeyd edir ki, ana dilinin tədrisində qiymətləndirmədə tələffüz, vurğu, orfoepiya qaydaları, durğu işarələrindən istifadə kənarda qalır. Çünki, bu tələb kriteriyalarda yer tutmur. Müəllimdən tələb olunanlar içərisində bunlar yoxdur. "Dil müəllimi nitq qüsurları ilə mübarizə aparmalı olduğu halda şagirdlərin başını əqli hücum probleminə, situasiya, alqoritm metodlarının tətbiqi əsasında idraki tapmacalarla məşğul edir" (7,124).

V.Tapdıqoğlunun fikrincə, məktəbdə nitqin inkişafı işləri tədbirdən-tədbirə keçirilir. Həmin tədbirdə də məqsəd şagirdin nitqini təkminləşdirmək yox, müəllimin ad alması olur (7,126). Ailədən başlanan bu vərdişlər ibtidai təhsildə, orta təhsildə, bakalavr və magistr pillələrində davam etməlidir. Acınacaqlı hal odur ki, "Nitq mədəniyyəti" dərsləri proqramda yalnız 10-cu sinifdə yer almışdır. Kurrikum proqramı hal-hazırda 1-7 siniflərdə

tətbiq olunur. Əfsuslar olsun ki, bu siniflərin proqramında da nitq mədəniyyət vərdişlərinin şagirdlərə aşılanması yer almayıb. Nə durğu işarələri, nə vurğu, nə də intonasiya haqqında yuxarıda göstərilən siniflərin dərs kitablarında söz açılmır.

"Kütləvi məktəblərdə nitq mədəniyyətinə diqqəti xüsusilə artırmaq lazımdır. Azərbaycan dili və ədəbiyyatı dərslərində müəllimlər, şagirdlər yazılı və şifahi nitqlərinin inkişafına gündəlik qayğı göstərməli, onların nitqinin zənginləşməsi üçün mövcud imkanlardan, texniki vasitələrdən istifadə olunmalıdır (2,263). Nitq mədəniyyəti dilçiliyimizin ən aktual və gündəlik qayğı tələb edən sahələrindən birinə çevrilməlidir.

Nitq mədəniyyəti dilin canlı bir orqanizm və bir sistem kimi fonetik, leksik, qrammatik və üslubi qanunlarını özündə birləşdirir, bu qanunlara əsasən fəaliyyət göstərir. Bu qanunlar, normalar dilin özü qədər qədim olduğu kimi, bütün dövrlərdə nitq mədəniyyətinin əsas problemləri, onun istiqamətvericisi hesab edilmişdir.

Həm yazılı, həm də şifahi nitqdə dil normalarına əməl olunmasına, sözlərin dəqiq seçilməsinə, düzgün və yerində işlənilməsinə xüsusi diqqət verməliyik. Burada durğu işarələrinin də böyük rolu vardır. Hər bir ədəbi dil özünün bütün inkişaf mərhələlərində leksik, qrammatik, orfoqrafik və orfoepik normalarını yaradır.

"Məlumdur ki, nitq tətbiqi dilçilik sahəsi olub, hər hansı konkret bir dilin orfoepik, orfoqrafik, leksik, qrammatik, üslubi və s. normalarını müəyyənləşdirən nəzəri axtarışlar və təcrübi tədbirlər kompleksidir. Nitq mədəniyyəti üçün əsas problem ədəbi dillin normasıdır və onun əsas vəzifələrindən biri də dilin işləndiyi bütün sahələrdə bu normalara əməl olunmasına nəzarətdir, diqqətdir"(2,120).

Nitqin düzgünlüyünə, dəqiqliyinə, ifadəliliyinə riayət etmək nitq mədəniyyətinin əsas şərtlərindəndir. G.Abdullayevanın fikrincə, nitqin ifadəliliyi çox geniş anlayışdır. Nitqi inkişaf etdirmədən şifahi və yazılı nitq vərdişlərini uğurla aşılamaq mümkün deyil (9,10). Lakin müəllif ifadəli oxuda durğu işarələrinin oynadığı rolu nəzərdən qaçırıb. "Nitqin ifadəliliyini - şagirdlərin nitqinin ifadəliliyini təmin etmək məqsədilə intonasiya, orfoepiya, vurğu ilə bağlı tələblərə əməl etmək lazımdır. Nitq inkişafı ana dili tədrisinin başlıca prinsipi olduğundan hər bir məsələlərdə, o cümlədən nitqin ifadəliliyi üzrə aparılan iş sistemində də zəruri vərdişlərin formalaşdırılmasında inkişafetdirici - tərbiyə edici xətti daim gücləndirmək və ön plana çəkmək gərəkdir" (9,9).

Hazırkı dövr bütünlüklə xalqın yüksək nitq mədəniyyətinə yiyələnməsini tələb edir. Buna görə də müasir vətəndaş nitqinin zənginliyi və gözəlliyi qayğısına qalmalıdır. O, gözəl geyimi, hərəkəti, danışığı, ilə yanaşı yüksək səviyyəli nitqə malik olmalıdır. Yüksək nitq mədəniyyətinə sahib olmaq insanın şan şöhrətini, ləyaqətini, izzət və hörmətini artıran amillərdəndir. XXI əsrdə gözəl danışıq qabiliyyətinə yiyələnməyi həyat özü tələb edir. Belə bir şəraitdə məktəbin və müəllimin üzərinə böyük məsuliyyət düşür.

ƏDƏBİYYAT

1. Abdullayev Nadir. Nitq mədəniyyətinin əsasları, Bakı – 2013

2. Məmmədov. M. Ana dili və nitq mədəniyyəti məsələləri.Bakı- "Nurlan"-2004

3. Şirəliyev.M. Dil mədəniyyəti məsələlərimiz. "Nitq mədəniyyəti məsələləri", Bakı, 1969, s.3-12

4.http://pia.az/%E2%80%9CNitq_medeniyyeti%E2%80%9Cnden_nitqin_medeniyyetine_-22238-xeber.html#.VLYRusmvMhQ

5. Cabbarov.X. M. Nitq mədəniyyətinin təcrübi məsələləri. "Nitq mədəniyyətinin təcrübi məsələləri-" Nitq mədəniyyəti məsələləri", Bakı, Elm, 1992, II buraxılış.s.105-111

6. Cəfərov. Q. Nitq mədəniyyəti təliminin bəzi anlayış və kateqoriyalarına dair- "Nitq mədəniyyəti və terminologiyanın aktual problemləri" Respublika elmi konfransının materialları. "Elm və təhsil", Bakı-2011. Səh. 73-81

7. Adilov. M. Təbliğatçının dili haqqında. .- "Nitq mədəniyyəti məsələləri"-Bakı, 1969,s. 90-116

8. Tapdıqoğlu Vaqif. Nitq mədəniyyətində inteqrasiya necə baş verir:problemlər və vəzifələr- "Nitq mədəniyyəti və terminologiyanın aktual problemləri"Respublika elmi konfransınn materialları. "Elm və təhsil", Bakı-2011. Səh. 122-128.

9.Abdullayeva.G.İbtidai siniflərdə şagirdlərin nitqinin ifadəliliyi üzrə işin sistemi. Bakı, 2010, AR

10.Əzizov. Q. Ümumtəhsil məktəblərində yuxarı sinif şagirdlərində humanizm tərbiyəsinin imkanları və yolları.2004. AR.

РЕЗЮМЕ

В статье речь идет о формировании культуры речи. Телевидение и пресса играет важную роль в формировании культуры речи. Однако, самым важном фактором являются школа и образование. Среднее образование в жизни каждого человека играет важную роль в формировании культуры речи школьников младших классов. В школах в настоящее время имеются проблемы относительно этой области, которые будут рассматриваться в данной статье.

SUMMARY

The article deals with speech habits, factors which play an exceptional role in forming of speech habits. Among these habits are television, press, environment which surround us has a great role. But the most important of them are school and education. The secondary education which has an absolute place in the life of each man in a society has a great role in the formation of speech habits and excellent speech of the pupil from the childhood. Today in our schools also there are some problems in this sphere that will be talked in our article.

TƏLİMDƏ VARİSLİK: TARİXİLİK VƏ PERSPEKTİVLİK

Adil BALIYEV,
Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi

Açar sözlər: *varislik, ədəbi irs, intellektual kapital, tarixilik, perspektivlilik.*

Ключевые слова: *преемственность, литературное наследие, интеллектуальный капитал, историзм, переспективность .*

Key words: *continuity, literary heritage, intellectual capital, historicism, promising.*

Dünyanın bugünkü inkişafı konteksində özünü büruzə verən demokratikləşmə, fərd və toplum haqları Azərbaycan cəmiyyətində də önəm qazanır və qarşıya ciddi vəzifələr qoyur. Bu fəzifələrin effektli, təkmilləşdirilmiş həlli yolu təhsil sistemimizi irəliyə aparmağa qadir, müasir təlimin məzmununa bağlı tələblərə cavab verə bilən yeni metodik sistemin yaradılmasından və bu yeniliyin keçmiş irsə-vərəsəyə istinad üzərində xətasız qurulmasından keçir. Cəmiyyətdə nəsillərarası, təlimdə mərhələlər və siniflərarası varislik müasir dünyamızın ən narahatedici, aktual sosial problemlərindəndir. İnsanlığın gələcəyi, taleyi, intellektual fəaliyyəti müəyyən mənada gənc nəslin oriyentasiyasından asılıdır. İctimai tərəqqidə irsi qoruyub mühafizə etməklə gələcək nəslə çatdırmaq elmi biliklərin potensialı ilə birdəfəlik həll oluna bilən bir riyazi məsələ, iqtisadi çözüm deyildir. Belə demək mümkünsə, varislik, irsə münasibət elmin, insanlığın "əbədi" problemidir.

Hər hansı bir ölkənin ən böyük, əvəzolunmaz sərvəti olan intellektual kapital da inteqrasiya olunmuş biliklərin vəhdətində formalaşır və bu kapitaldan düzgün istifadə istənilən halda cəmiyyətin ümumi inkişafının, sivil münasibətlərin xeyrinədir.

Bu gün tədris prosesinin ilkin mərhələlərində əxz olunmuş bilik intellektual bütövləşmədə mənimsəmənin əsas atributu kimi çıxış edir. Bu bütövləşməni təmin edə bilən başlıca prinsipsə varislikdir. Təhsilin bütün mərhələləri arasında varisliyin gözlənilməsinin forma və yolları kompleks araşdırılıb öyrənilməli, kortəbii, epizodik yanaşmalar aradan qaldırılmaqla sistemli elmi dəlillərə istinad edilməlidir. Elmi-metodiki ədəbiyyatlardakı mülahizələr sistemləşdirilməklə təlimi məqsədə aparan yolların elmi-nəzəri və praktik istiqamətləri işlənilib hazırlanmalıdır.

Təlimin struktur və məzmununun kökündən dəyişməsi ona müvafiq yeni təlim texnologiyalarının, yeni metodik sistemin yaradılmasını da zəruri edir. Əslində ədəbiyyatın daxili mahiyyətində, ədəbi əsərlərin mənimsədilməsi prosesində bir bütövlük, sistemlilik və fasiləsizlik mövcuddur, bu da varisliyə onun vəhdəti kimi baxmağa imkan verir. Yeni mərhələlər, mövzu və ideyalar, bədii kompozisiyalarv arasında optimal əlaqə mövcuddur. Varislik bir tərəfdən xronoloji ardıcıllığın, müxtəlif mərhələlərin yatardığı əlaqədirsə, digər tərəfdən bilik, bacarıq, vərdişlərin, ədəbi yanaşmanın, obrazların sosial-psixoloji durumunun yaratdığı əlaqədir.

Hazırda məktəblərimizdə həm ənənəvi təlim proqramlarına, həm də kurikuluma əsaslanan təlim standartlarından, təlim texnologiyalarından istifadə edilir. Əslində ənənəvi təlimdəki əlaqələr fasiləsizliyi təmin edən atribut kimi çıxış etsə də, varislik müəllimin peşə sistemogenezisinin əsas şərti kimi çıxış etmirdi.

Hər bur xalqın ədəbiyyatı tarixən inkişaf edir və hər bir yeni yaranmış bədii-fəlsəfi sənət nümunəsi aid olduğu tarixi mərhələnin ictimai-fəlsəfi dəyərlərini, spesifik cəhətlərini özündə əks etdirir.

Məşhur rus alimi Q.N.Pospelov doğru olaraq qeyd edirdi: «Heç vaxt yaddan çıxartmaq olmaz ki, ədəbiyyatşünaslıq ictimai-tarixi elmdir, onun hissələri tarixilik prinsipi ilə düzənlənməlidir». Özlüyündə tarixin yaradıcısı kimi görünən insan müəyyən tarixi mərhələnin məhsuludur və sənətkarla mühit biri digərini tamamlayan tərəflərdir."

Tənqidçi-filosof N.Q.Çernışevskiyə görə, fənnin tarixi olmadan, fənnin nəzəriyyəsi yoxdur və fənnin nəzəriyyəsi olmadan da onun tarixi haqqında fikirləşməyə dəyməz. Çünki fənnin əhəmiyyəti, sərhədləri barədə anlayış yoxdur.

Böyük Azərbaycan maarifpərvəri A.Bakıxanov «Gülüstani-İrəm» əsərində yazırdı: «Tarix elə bir danışmayan natiqdir ki, sələflərinin vəsiyyətlərini bütün təfsilat və təriflərlə xələflərə bildirir, ehtiyac və rifah səbəblərini, tərəqqi və tənəzzül yollarını anladır. Gələcəkdə törəyə bilən əhvalatı keçmişin libasında insanların ibrət nəzərinə çatdırır"

Tarixi yanaşma müəlliflə onun yaşayıb yaratdığı zaman arasındakı bağlılığı müəyyənləşdirir. Hər hansı bir mövzunun ideya-estetik davamlılığı bu prinsiplə müəyyən edilir. Tarixin dinamikası obrazların dinamikasına həm mənfi, həm müsbət mənada əsaslı təsir edir. Məsələn, 30 il bundan əvvəlki gəncliyin Humay, Cəlal, Bəxtiyar (S.Vurğun), Sevil, Balaş, Almaz,Səməndər (C.Cabbarlı) obrazlarına baxışı indiki gəncliyin baxışları ilə üst-üstə düşmür. Çünki tarixin yaratdığı ziddiyyət, ideoloji sistem dəyişikliyi bədii konfliktə də öz təsirini göstərir.

Hər bir sənət nümunəsinə, həm məlum bir tarixi faktoqrafik əsər, həm də ideya-məzmun məziyyətlərinə görə yaşamağa qadir «ötürücü» abidə kimi baxılmalıdır. Bu abidə mənsub olduğu xalqın ayrı-ayrı dövrlərdəki həyat tərzini, mədəni səviyyəsini, adət-ənənəsini, azadlıq uğrunda apardığı mübarizəni əks etdirir.

N.Gəncəvi, İ.Nəsimi, Xətai, Cavid, C. Məmmədquluzadə və digərlərinin əsərləri tarixi-genetik nöqteyi-nəzərdən həmin simalardan bizə yadigar qalan vərəsə, danılmaz ədəbi-tarixi faktdır. Bu ədəbi-tarixi faktın müasir həyatımızdakı funksional rolu, milli tərəqqi və inkişafımıza xidməti nə dərəcədədir? Sənətkarın, bədii nümunənin dəyərini bu sualların cavabında axtarmaq lazımdır.

Sənət abidəsinin, sənətkarın böyüklüyü, bədii əsərin qüdrət və möhtəşəmliyi mənsub olduğu xalqı daima mənəvi formada saxlamaq əzəmətliliyindədir. Məsələn, XII əsrdə Nizaminin təsvir etdiyi «Xeyir və Şər»dəki Şərlə, «Kərpickəsən kişi»dəki harınla müasir şərlərin, halalığa rişxəndlə baxan rüşvətxor, «hazıra nazir» məmurların, korrupsionerlərin sosial-genetik qohumluğu var.

Ədəbiyyatda insan amilini, onun xarakterini ilə bağlı təsvir edən əsərlər, elə mövzular var ki, sənətkar qələminin gücü ilə min illik yolu bir neçə anın daxilində qət edə, həmsöhbətimizə çevrilə, gündəlik həyat gerçəkliyimizə təsir edə bilir. Bir qədər də qısa desək ümumbəşəri dəyərlərə sahib əsərlər və sənətkarlar üçün zaman anlayışı nisbi xarakter daşıyır.

Tarixiliyi isə tarixi xronolgiya ilə də eyniləşdirmək olmaz. Xronologiya dəyişməzdir, sabitdir, onda məzmun mahiyyətindən daha çox forma mahiyyəti var. Ayrı-ayrı icitami formasiyalar konkrekt zaman kəsiyində yerləşir tarixilik isə tarxşünaslıqla , inkişafla bağlı anlayışdır və orada cəmiyyətin, mədəniyyətin, ədəbiyyatın inkişaf dinamikası görünür.

Tarixilik prinsipi ilə ayrı-ayrı mərhələlərdə yaranan ədəbiyyat nümunələrinin sistemli düzəni təmin edilir. Başlanğıc siniflərdə bədii əsərin özü, orta mərhələdə məlum müəllif və sənət əsəri, yuxarı siniflərdə isə ədəbi-tarixi mühit, ədəbi tənqid və təhlil öyrənmə prosesində başlıca yer tutur.

Tarixilik bir yandan bədii sənət nümunəsinə məlum bir epoxanın məhsulu, digər yandan müasirlik nümunəsi kimi baxmağa imkan verir. Bu prinsip yazıçı ilə, onun biblioqrafiyası ilə tanış olmağı diktə edir.

Ədəbi irs, ədəbi məktəb və cərəyanlar, stil və fərdi yaradıcılıq maneraları müxtəlif tarixi mərhələlərdə yaransa da biri digəri ilə sıx əlaqədədir. Bəzən belə ifadə işlədilir ki, «Tarix təkrar olunur», «Su gələn arxdan bir də gələr». Bəli, təkrar olunur, amma yeni məzmun və formada, sosial-tarixi situasiyanın sənətkara aşıladığı yeni çalarda. Bir el deyimində deyildiyi kimi: Eyni çaydan eyni su axmır».

Tarixi düzən, keyfiyyət və məzmun, yeni çalar ilk növbədə gələcəyə-perspektivə hədəflənməlidir. Perspektivlik rəmzi mənada müdriklik yaşına çatmış insanın enerji generatorudur. O, varislik üçün ikinci tərəfdir. Elmi-didaktik təlim sistemi kimi bunlar biri-digərini tamamlayan hissələrdir.

Əldə olan ədəbi irs bir vərəsə kimi onda dəyərini qoruyub saxlaya bilir ki, perspektivdə ondan bir və ya bir neçə nəsil yararlana bilsin və bu yararlanmada hər nəsil öz boynuna düşən vəzifəni yerinə yetirsin.

Perspektivlik baxımından dərsliklərin proqrama uyğunluğu, janr və mövzu rəngarəngliyi, inkişafetdirici funksiyalar elə müəyyənləşdirilməlidir ki, növbəti mərhələdə öyrəniləcəklərin rüşeymləri gürünsün. Şagirdlərin perspektivdə qarşılaşacağı mövzu ona "ağ lövhə", məchul obyekt, "yaddaş süzgəcindən"süzülüb gəlməyən məchul element kimi çatmasın.

Şəxsiyyətin inkişafı həm anadangəlmə irsi xüsusiyyətlərdən, həm də düşdüyü şəraitdən asılıdır. Artıq elmi dəlillərlə əsaslandırılır ki, insan dünyaya "ağ lövhə" (Con Lokk) kimi gəlmir, əksinə hər bir fərd müəyyən imkanlarla doğulur, genetik proqram-kodlara (Kard Yunq) malikdir.

"Bütün həyatı boyu insan beynindən öz yaddaşında əvvəlcə qeyd olunmuş elementlərdən törəməyən heç bir fikir keçmir" (Seçenev) və şagirdin özündən asılı olmayaraq "xatırlanan element" yeni qazanılmış biliklərin möhkəmləndirilməsində qıcıqlandırıcı rolunda olur.

Perspektivliyin səmərəsi yaddaşda qeyd olunmuş elementlərin sistemil yerləşdirilməsindən çox asılıdır. Məişət zəminində nümənə versək, perspektivlilik odur ki, insan iş yeri axtaranda, təhsil alanda, özünə ev tikəndə bünövrəni elə qurmaq istəyir ki, normal yaşayışını təmin etsin. Deməli, tarixilik, tarixi genefond arxiv materiali olmaq funksiyasından çıxmalı, perspektivdəki nailiyyətlərə xidmət etməlidir.

ƏDƏBİYYAT

1. Əhmədov.C. Ədəbiyyat tədrisi metodikası. Bakı,1991.

2. Богданова О.Ю. и др. Методика преподования литературы. Москва, 2000.

3. Mikayılov Ş.A. Elmi-metodik əsərlərdən seçmələr. Bakı, 2009.

4. Поспелов Г.Н. Теория литературы. Москва,1978.

РЕЗЮМЕ

Преемственность в обучение. Историзм и перспективность

В статье говорится о исторической и перспективной преемственности в обучении. Указывается, на то что элементы, осевшие в памяти в дальнейшем служат для фундаментального восприятия изучаемого предмета.

SUMMARY

Heritage in Education. History and perspectivity

In the article was investigated place of heritage in the training from history and perspectivity and approaches history not as chronological consistency, but as methodological principle which ensure heritage in training. And mentioned that the elements which noted in memory (historical genefond) serves to adopt fundamental knowledge, skill and habit which belong to subject

LEKSİK VAHİDLƏRLƏ NİTQİ ZƏNGİNLƏŞDİRMƏK ÜZRƏ İNTEQRATİV NƏTİCƏLƏR

Nərmin QASIMOVA,
Bakı Slavyan Universitetinin doktorantı

Açar sözlər: *leksik vahidlər, adlar, əlamətlər, hərəkətlər, saylar, əvəz etmək, dəyişmək, istifadə etmək, qarşılaşdırma, sözün, cümlənin sinonimi, mətnin sinonimi, əksliklərin vəhdəti və mübarizəsi, anlayışlar, hökmlər, əqli nəticələr*

Ключевые слова: *лексические единицы, имена, признаки, движении, числа реконструкция, переименовать, выражение, синонимы слова, предложения, синонимы текста, понятие, психические результаты*

Keywords: *lexical units, names, signs, moves, numbers, replace, change, use, contrasting, word, sentence synonymous, synonymous with text, unity and struggle of opposites, definitions, provisions, mental results*

Azərbaycan dili dərslərində sözlərin, ifadələrin yaxın və əks mənaları üzərində düşünülmüş təmrinlər aparmaqla şagirdlərin lüğət ehtiyatını zənginləşdirmək olur [1;2]. Bu imkanlardan bəzilərini nəzərdən keçirək:

1) leksik mənalı sözü sinonimi və antonimi ilə əvəz etməklə;

2) idiomatik ifadəni sinonimi və antonimi ilə əvəz etməklə;

3) cümləni reokonstruksiya etməklə və s.

İndi isə məsələnin təfərrüatına keçək:

Sinonim və antonimliyin tədrisi məsələlərinin araşdırılması bir sıra metodik nəticələrə gətirib çıxarmışdır. Həmin nəticələr aşağıdakı kimidir:

Nitq inkişafı – gözəl və təsirli danışmaq qabiliyyəti bacarıqların sintezindən yaranır: a) ifadə ediləcək fikri söyləmək üçün lazımi sözləri və qrammatik vasitələri çevikliklə seçmək; b) dilin ifadəlilik potensialından istifadə etmək; c) mətn tələb etdikdə fikri fərqli və yeni bir formada söyləmək və s. Bunların hər birini bir komponent hesab etsək, gözəl və düzgün danışmaq kimi keyfiyyətin necə yarandığını təsəvvür etmək olar. Həmin keyfiyyətlərin yaranmasına imkan verən dilimizin semantikasıdır.

Bu baxımdan ibtidai təhsilin Azərbaycan dili kursunda sinonimlik və antonimlik məsələlərinin tədrisinin nə qədər vacib olduğu aydın təsəvvür edilir. Sinonim və antonimlər üzrə şagirdin kəsb etdiyi bilik və bacarıqlar o zaman artıq yük olmaz ki, ondan praktik anlaşma zamanı yazılı və şifahi şəkildə yerli-yerində istifadə edilsin. Bu cür nəzəri məsələləri ona görə dərindən mənimsətmək lazımdır ki, şagird bir leksik mənalı sözü, idiomatik ifadəni başqası ilə, bir frazeoloji vahidi o birisi ilə, bir adi yolla konstruksiya edilmiş cümləni başqa bir cümlə ilə çətinlik çəkmədən əvəz edə bilsin. Beləliklə, o, cansıxıcı, yorucu və "quru" danışıqdan rəngarəng boyaları olan incə fikirlər söyləmək kimi bacarıqlara yiyələnə bilsin [2].

Məktəb şagirdlərə eyni bir fikri müxtəlif formada, lakin eyni məzmunda ifadə etmək üçün möhkəm nitq bacarıqları aşılamalıdır. Bu sahədə indiyə qədər

şagirdlərə verilən bilik və bacarıqlar qənaətləndirici hesab edilə bilməz. Məhz sinonim və antonimlər nitqin ifadəlilik potensialı haqqında bacarıqlar yaratmaqda yeni-yeni didaktik imkanları meydana çıxarır. Bu bacarıqlar aşılanmadan üslubiyyat məşğələlərini günün tələbləri səviyyəsinə qaldırmaq olmaz.

Sinonimlik məsələlərinin tədrisində nəzərə alınmalıdır ki, a) sinonimlər eyni bir anlayışı bildirən sözlər, eyni bir fikri bildirən cümlələr, söz birləşmələri və mikroelementlərdir. Onlar müxtəlif formalarda olsalar da, müxtəlif fonetik tərkiblərlə ifadə edilsələr də, eyni bir əşyanı, hərəkəti, keyfiyyəti və əlaməti bildirmək üçün işlənirlər. Sinonimlər ümumi məna əlamətinə malik olan sözlər olsalar da, müxtəlif əşya, əlamət, hərəkət, keyfiyyət bildirən sözlərdən ciddi surətdə fərqlənir və "qohum" sözlər kimi başa düşülmür, tematik-qrup sözlər kimi izah edilmir.

Sinonimlər əks mənalı sözlərlə – antonimlərlə də qarışdırılmamalıdır. Antonimlər əks məna ifadə edir və belə keyfiyyətlərinə görə də xüsusi dil hadisəsi yarada bilir. Antonimlər tamamilə əks mənada olan əşya, hərəkət və əlamətləri ifadə edən sözlərdir.

Sinonimlər ümumi məna əlaməti olan, lakin müxtəlif məna çalarlıqlarında işlənən çoxmənalı sözlərdən də fərqlənirlər. Çoxmənalı sözlərdə sözün müxtəlif mənaları müxtəlif əşya, hərəkət və əlamətlə bağlıdır, ona görə də belə sözlər sinonim ola bilmir. Şagirdlər isə belə sözləri ya sinonim, ya da omonim sözlər kimi tanıyırlar.

Müxtəlif nitq hissələrinə məxsus olan sözlər də sinonim sözlər kimi tanınmır, çünki belə sözlər əşyanın hərəkət, əlamət və keyfiyyətinin birini müxtəlif fonetik tərkibdə ifadə etmir. Məlumdur ki, ismə və felə məxsus olan iki söz əşya bildirmir, bunlardan biri ancaq əşya bildirir – isim. Deməli, eyni bir əşyanı, hərəkəti, əlaməti və keyfiyyəti bildirməyən müxtəlif sözlər sinonim sözlər deyildir, müxtəlif nitq hissələrinə məxsus olan sözlər isə eyni bir əşyanın, hərəkətin, əlamətin və keyfiyyətin ifadəsini verə bilmədiyi üçün sinonim sözlər hesab edilə bilməz.

Nəhayət, müəllim bilməlidir ki, assosiasiya yaradan, assosiasiya ilə bağlı olaraq meydana çıxan və ya təsəvvürə gətirilən sözlər də sinonim sözlər deyil. Bunun da səbəbi aydındır: belə sözlər eyni bir əşyanı, hərəkəti, əlamət və keyfiyyəti ifadə etmirlər, bildirmirlər. Doğrudur, belə sözlər maddi varlıq kimi, bizi əhatə edən mühitdə yanaşı durur və işlənir, lakin bununla belə sinonimlik haqqında məlum təsəvvürdən kənarda qalır. Burada toy-gəlin, dərs-müəllim və s. kimi sözlər nəzərdə tutulur. Bir də nəzərə almaq lazımdır ki, assosiasiya ilə əlaqədar olaraq nəzərə çarpan və təsəvvürdə canlanan sözlər çox zaman müxtəlif nitq hissələrinə aid olurlar. Müxtəlif nitq hissələrinə aid olan sözlərin sinonim olmadıqları artıq məlumdur.

Şagirdlərin nəzərinə çatdırılmalı və onlarda belə bir təsəvvür yaradılmalıdır ki, eyni bir sözün müxtəlif formaları sinonimlik təşkil etmir. Eyni bir sözün müxtəlif formaları hər hansı bir əşyanı, hərəkəti, hadisəni və əlaməti eyni söz kökü və müxtəlif qrammatik vasitələrlə ifadə edir. Qohum sözlərin bir kökü olduğu üçün sinonim hesab edilmir, çünki sinonimlər müxtəlif köklü sözlərdən əmələ gəlir, ancaq belə olduqda onların sinonimlik təşkil etdiklərini iddia etmək olar.

Cins və növ kimi məntiqi kateqoriyalara məxsus olan sözləri leksik sinonim sözlər kimi qəbul etmək olmaz, çünki

onlar bir-birini əvəz edə bilmir. Burada yırtıcı-canavar, meyvə-alma kimi sözlər nəzərdə tutulur.

Söz birləşmələrinin tərkibindəki hər hansı bir sözü sinonim kimi həmin birləşmədən ayırmaq və onu sinonim kimi aydınlaşdırmaq da düzgün hesab edilə bilməz, çünki söz birləşmələrinin tərkibində həmin sinonim kimi qələmə vermək istədiyimiz söz başqa sözlə ayrı qrammatik əlaqələrə girmişdir. Belə hallarda artıq leksik sinonimlər deyil, sintaktik sinonimlər haqqında düşünmək olar.

Sinonimlik və emosional – üslubi cəhətləri aydınlaşdırmaq üçün ayrı-ayrı sözlərdən deyil, mətnlərdən istifadə etmək məsləhətdir. Çünki mətndən kənarda bu xüsusiyyətləri üzə çıxarmaq bir sıra çətinliklərin meydana gəlməsinə səbəb olur. Hər halda, eksperimental dərslərin təşkili zamanı dəfələrlə müşahidə edilən bir çətinlik – fərqlərin araşdırılmasındakı məhdudluq kontekstual işdə daha asanlıqla aradan qaldırılır. Dərsliklərdən müəllim elə mətnlər seçməlidir ki, onların tərkibində leksik sinonimlərin müxtəlif ifadə formalarına rast gəlindiyi kimi, sintaktik sinonimlərin də dilimizdə işlənən ən kütləvi formaları nəzəri cəlb etsin. Bu *yolla hazırlanmış didaktik material* şagirdlərə imkan verir ki, dilimizin ifadəliliyinin incəliklərini də faktik dil *materiallarında bilavasitə müşahidə* edə bilsinlər. Şagirdlərin dərsliklərindən seçilmiş didaktik materiallar elə dərəcələrə bölünür ki, *təsadüfən* və qəflətən meydana çıxan çətinliyə yer qalmasın, məna genişliyi və rəngarəngliyi, mücərrədlik şagirdi çaşdırmasın. Belə didaktik materialların əsasını üslubi və emosional-ekspressiv çalışmalar təşkil etməlidir.

Sinonim və antonimlərin şagirdlərin nitqində yerli-yerində və bacarıqla işlənməsinə nail olmaq üçün rabitəli mətnlərin seçilməsi, əksər hallarda belə mətnlərdən istifadə etmək mühüm şərtdir. Sinonimliyin təbiətindən irəli gələn bu tələb eksperiment zamanı bir daha yoxlandı. Məlum oldu ki, sinonimlik məsələləri rabitəsiz mətnlərin tətbiqini inkar edir. Bu baxımdan rabitəli mətnlərin didaktik imkanları isə heç bir məhdudiyyət bilmir.

Azərbaycan dilinin üslubi imkanları və bu imkanların sinonim və antonimlərin hesabına nə qədər genişlənməsi, elastikliyi rabitəli mətnlərdəki sözlərin birləşmələrində, cümlələrdə, ibarələr kimi formalaşan konstruksiyalarda daha tez özünü büruzə verir. Həmin məqsədlə bəzi hallarda hər hansı bir parça rabitəli mətn üzərində aparılan işlər qənaətləndirici olmur: bu və ya başqa söz, ifadə, ibarə, konstruksiya, cümlə və mikromətnin ayrılmış parçası üzərində aparılan iş zamanı sözün leksik, qrammatik, semantik mahiyyəti meydana çıxmır, bütöv mətnə müraciət etməyə ehtiyac yaranır.

Sinonimlərin hər cür forması ilə zəngin olan müasir Azərbaycan dili müəllimə imkan verir ki, şagirdlərin nitqlərinin ifadəliliyini artıran bir sıra metodik məsələlərin həllinə məhz sinonimlərin tədrisi prosesində başlasın. Bu işin effektliliyi *o zaman təmin edilir ki*, haqqında danışılan məsələlər ibtidai sinifdən başlansın və orta məktəbi bitirənə qədər *fasiləsiz, ardıcıl və sistemlə davam* etdirilsin. Sinonimlik problemi özü belə metodik imkanları yaradır. Müvəffəqiyyəti *təmin edən amillər isə müəllimin* onlardan necə istifadə etməsi ilə əlaqədardır.

Sinonimlik məsələlərinin köklü problemlərini tədqiq edərkən bir sıra linqvistik parodokslarla qarşılaşırıq. Qeyd etmək lazımdır ki, ziddiyyət kimi nəzərə çarpan belə halların zahirə çıxması müəllimi narahat etməməlidir. Çünki bunlar dərslərin maraqlı keçməsini, dərsdə problem situasiyaların yaradılmasını, tədqiqat üsulundan istifadə edilməsini səmərəli təşkil etməyə real didaktik şərait yaradır. Təcrübə göstərir ki, belə parodokslar şagirdlərin fikri fəaliyyətini, onların sinonimlik məsələlərinə olan marağını artırır.

Deməli, hazırlanacaq vəsaitlərdə, slaytlarda dilin qayda və qanunlarını müəyyən qədər mənimsəmiş şagirdlərlə iş aparmaq üçün xüsusi didaktik materiallar olmalıdır. Bunların həcmi böyük ola bilər. Ancaq böyük həcmli materiallar sinonimlər üzrə aparılan təlim işlərini genişləndirməyə imkan verir. Belə metodik vəsaitə daxil edilmiş materialların məzmunu və çalışmaların şərti əyləndirici və maraqlı olmalıdır.

Tədqiqat zamanı istifadə etdiyimiz didaktik materialların məzmunu üzərində aparılan müşahidələr göstərir ki, haqqında danışılan vəsaitə aşağıda adları sadalanan materialları daxil etmək zəruridir: Azərbaycan dili qrammatikasına dair materiallar sinxron aspektdə (məsələn, felin zamanlarının sinxronluğu) və diaxron aspektdə (bu və ya başqa sinonimin meydana gəlməsinin tarixi xülasəsi), leksikoqrafik materiallar, eləcə də etimoloji, toponimik, semosioloji materiallar, dil norması problemi üzrə didaktik materiallar, nitq mədəniyyəti məsələləri əhatə edən didaktik materiallar. Nitqə gözəllik verən sinonim və antonimlərin şagirdin yazılı və şifahi nitqində özünə yer tapması üçün bunlar çox vacibdir. Belə vəsaitin müəllifi mürəkkəb dil hadisələri haqqında da çox sadə yolla danışmağı bacarmalıdır. Vəsaitə üslubiyyat üzrə aparılan müəyyən qrup iş növləri daxil edilsə də, sinonimlik üzrə işlər burada əsas yer tutmalıdır, çünki üslubiyyat məsələlərinin bütün sahələrinə olmasa da, əksər sahələrinə bilavasitə təsir edən dil hadisələrindən biri sinonimlik, digəri antonimlikdir.

Azərbaycan dili müəllimləri məhz belə vəsaitlərdən istifadə etməklə sinonimlik və antonimlik probleminin həllini daha səmərəli yollarla icra edə bilər, bu qəbildən olan dərslərin forma və məzmununu daha səmərəli təşkil etməyə nail olar. Eksperimental axtarışlar zamanı belə qənaətə gəldik ki, dilin ifadə vasitələrinə və ifadəliliyi yaradan imkanlara itirilən vaxt heç də hədər getmir.

Tədqiqatda əldə edilən nəticələr, gətirilən faktlar irəli sürülmüş daha bir müddəanın doğru olduğunu sübut edir. Təlim prosesində narahatlıq törədən əsas məsələlərdən biri də şagirdlərin nəzəri məlumatla yüklənməsinin qeydinə qalmaq və planlaşdırılmış nəzəri məlumatı nəyinsə hesabına icra etmək, mənimsətmək problemidir. Sinonim və antonimlər üzrə veriləcək əlavə nəzəri məlumat və qarşıya çıxan hər cür çətinliklər leksik biliklərlə qrammatik biliklər arasındakı münasibətləri nəzərə almaq, bununla bilavasitə bağlı olan qrammatik əlaqələrin formasına diqqəti artırmaq, qrammatik məna ilə leksik məzmun arasındakı münasibətləri nəzərə almaq, bununla bilavasitə bağlı olan qrammatik əlaqələrin formasına diqqəti artırmaq, qrammatik məna ilə leksik məzmun arasındakı münasibətlərə əsaslanmaq üçün elmi – metodik imkanlar araşdırmaq yolu ilə asanlaşdırıla və sadələşdirilə bilər. Çətinliklər təlimin müxtəlif mərhələlərində qarşıya çıxır, onların forma və məzmunu da müxtəlif olur. Məsələn, şagirdlər onlara yeni olan anlayışlarla qarşılaşdıqda çətinliklər baş verir, yaxud da eyni bir mərhələdə dil materialını mürəkkəbləşdirdikdə, quruluşca mürəkkəb olan antonim və sinonimlərlə işlədikdə çətinliklər təbii olaraq meydana çıxır.

Müşahidələr göstərir ki, yaratdığımız problem üzrə işin belə təşkili şagirdlərdə bir yeni keyfiyyət – sözə şüurlu münasibət bəsləmək keyfiyyəti tərbiyə edir. Bu da kamil nitq mədəniyyətinə yiyələnmək üçün çox vacibdir. Bizim dövrümüzdə şagirdin nitqinə böyük tələblərlə yanaşmaq normal hal sayılır. Tədqiqatdan belə nəticə çıxarmaq və müvafiq tövsiyə kimi başa düşmək doğru olardı: yaxşı nitq müəyyən əlamətlərin, komponentlərin kompleksi kimi başa düşülməlidir; inandırıcı nitq həm dəqiq, həm də anlaşıqlı olmalıdır; hər cür üslubca rəngarənglik və təbiilik sadə, ifadəli olmalıdır; nitqin ifadəliliyi təmtəraq üçün deyil, nitq situasiyalarının inkişafının daha da inandırıcı olması üçün lazım olan keyfiyyət kimi başa düşülməlidir.

Sinonim və antonim problemi nitq inkişafının konkret problemlərindən prinsip etibarilə fərqlənmir. Məsələn, bu problemi kommunikasiyanın hər cür təzahür forması üçün birdəfəlik həll etmək mümkün deyildir. Azərbaycan dilinin məktəb kursunun məzmunu dəyişib təkmilləşdikcə sinonim və antonim məsələlərinin əvvəlki interpretasiyası da dəyişikliklərə uğrayır, təkmilləşir. Belə zəruriyyət metodikanın ciddi irəliləyişləri dövrlərində özünü daha qabarıq şəkildə göstərir. Elə vəziyyət yaranır ki, yeni nailiyyətlə, nəticələr köhnə təsəvvürlər çərçivəsinə sığmır. Sinonim və antonimlərin burada tövsiyə edilən məzmunu və iş sistemi də Azərbaycan dili fənninin tədrisində möhkəmlənmiş köhnə təsəvvürlər çərçivəsinə sığmır. Burada da istər-istəməz müəllim yeni iş sistemi, yeni məzmunla qarşılaşmalı olur. Bu yenilik isə yenilik xatirinə deyil, kursun inkişafının dinamikası əsasında zəruri olaraq meydana çıxır.

Sinonimlik və antonimlik məsələlərinin kurikulum dərsliklərində yeni məzmunda mənimsədilməsi üçün yeni üsul və priyomların axtarılması Azərbaycan dili tədrisində üslubiyyat üzrə aparılan işləri daha da inkişaf etdirmək, günün tələbləri səviyyəsinə qaldırmaq məqsədilə qarşıya qoyulmuşdur.

İnsanın İKT-lə icra etdiyi intellektual işlərin əksəriyyəti, informasiyanın işlənməsi problemi təkcə linqvistlərin deyil, metodistlərin də qarşısında yeni vəzifələr qoyur, geniş tədqiqatlar aparmaq üçün yeni üfüqlər açır. Məsələn, metodikada anlayışların yenidən, başqa formada və ya əks formada ifadəsi məsələsini araşdırmaq kimi mühüm problem irəli atılır. Bunu nəzəri və praktik həll etmək günün ümdə məsələlərindən hesab edilə bilər.

ƏDƏBİYYAT

Ümumtəhsil məktəblərinin I-XI sinifləri üçün Azərbaycan dili proqramı. (Təhsil Nazirinin 09.10.2002-ci il tarixli 967 saylı əmri ilə təsdiq edilmişdir). Bakı, 2012.

Ümumi təhsilin standartları (I-XI siniflər). Bakı, 2012.

РЕЗЮМЕ

Основная цель обучения студентов анализа смысла слов лексических единиц состаит из уполномочивания словарного запаса.

Синонимы и антонимы имеют неоспоримую роль в этом отношении. Требования курикулума интенсируют оптимальную конфигурацию этого процесса.

SUMMARY

The main goal of teaching students skills in the analysis of the meaning of words in lexical units empower consist of enriching their vocabulary.

Synonyms and antonyms undeniable role in this regard. Curriculum requirements for the establishment of optimal intensify this process.

ƏNƏNƏ VƏ YENİLİK

Nuriyyə VERDİYEVA,
Bakı şəhərindəki 299 nömrəli məktəbin müəllimi

Orta ümumtəhsil məktəbləri üçün Sovet dönəmində yazılan əsərlərə Moskvadan istiqamət verildiyi hamıya məlumdur. *Yəni rusların müxtəlif siniflər* üçün hazırladığı dil və ədəbiyyat dərsliklərinin strukturu və məzmunu etalon idi. Məsələn, onlar Y sinfin ədəbiyyat dərsliyində Lermontovun şəklini, doğum-ölüm tarixini, "Yelkən" şeirini və bu əsərlə bağlı bir neçə sual-tapşırıq əks etdirirdilərsə, bizdə də, deyək ki, S.Vurğun, onun "Ceyran " qoşması eyni qayda ilə dərslikdə əksini tapırdı. Eləcə də Moskvada çıxan ədəbiyyat dərsliklərində nəzəri anlayışlar barədə necə mövqe tutulurdusa, bizdə də o mövqe təkrar olunurdu. 1990-cı illərdə VIII siniflər üçün çap olunan dərsliklərimizdə fərqli mənzərə ilə qarşılaşdıq. Bu dərslikdə "Əsərin məzmunu ilə bağlı suallar" ayrıca verilmiş, "Oxuyun. Fikirləşin. Cavab verin" başlığı altında şagirdləri müstəqil təhlilə istiqamətləndirən mətnlər əks etdirilmişdi. Dərslikdə "Müstəqil iş üçün" başlıqlı tapşırıqların ardıcıl verilməsini də ilk dəfə müşahidə edirdik.

Həmin dərsliyin 2000-ci illərdəki çapında digər faydalı irəliləyişlər də gördük. Bədii əsərlərin öyrənilməsi ilə bağlı şagirdlərin işi aşağıdakı bloklar üzrə verilmişdi: "Əsərin məzmunu ilə bağlı suallar", "Əsərin təhlilinə hazırlaşın", "İfadəli oxuya hazırlaşın", "Müstəqil iş üçün", "Sinifdınxaric oxu üçün".

Proqramın tələbinə uyğun olaraq dərslikdə ədəbiyyat nəzəriyyəsi anlayışları barədə sistemli məlumat verilmişdi.

Göründüyü kimi, bu dərslikdə ənənə ilə yenilik qovuşmuş, müəllim və şagirdlərin fəaliyyətinə səmərəli istiqamət verilmişdir.

Bu yaxınlarda dərslik portalında Göyçay şəhər 6 nömrəli məktəbin müəllimi Şərəbanı Hacıyevanın bu dərslik haqqında yazısını oxudum, ona münasibət bildirməklə, həm də gənc müəllimlərə yardımçı olmağı qarşıma məqsəd qoydum. Onun yazısında iradların böyük bir qismi, nə qədər qəribə olsa da, klassik sənət abidələrimizə aiddir. Yazıda oxuyuruq: " Səhifə 26-da gedən bir cümləyə baxaq: "Qazan xan öz oğlunu xilas edib geri döndü." Axı tək Qazan xan deyil, tükənməyən oğuz igidləri, həm də Burla xatunun böyük köməkliyi sayəsində Uruz xilas edilmişdi. Bu cümləni o vaxt işlətmək yerinə düşərdi ki, Qazan xan tək gedəndə bunu etmiş ola idi".

Sərkərdənin – Qazan xanın döyüşdən qələbə ilə qayıtmasını dastan yaradıcılarının bu şəkildə ifadə etməsində qəbahət yoxdur. Həmin cümlədən əvvəlkində də ("Oğuzlarda üç yüz igid şəhid oldu"), həmçinin Qazan xanın köməyinə yetişən oğuz igidlərinin adlarını bir-bir sadalamaqda da dastan yaradıcıları haqlıdırlar. Dastanla bağlı yuxarıdakı fikir gülünc təftişçilikdən başqa bir şey deyildir.

Yazıda oxuyuruq:" Oğlunun gəlmədiyini görən Burla xatun baxaq hansı sözləri Qazan xana deməyi rəva bilir : "... yana-yana qarğıyaram, Qazan, sənə!". Bu sözlər həm də dəfələrlə təkrar olunur.

Qazan xanı bu dərəcədə alçaltmaq, həm də VIII sinif qarşısında, (?- N.V.) yolverilən hesab edilə bilərmi? Adi məişət "dava-şava"sında (? – N.V.) bu şəxsiyyəti beləcə xırdalamaq (? – N.V.)olarmı?

Həmin fikrin ixtisarla verilməsi niyyətlə edilmişdir. Fikir belədir:

Yalqızca oğul görünmür , bağrım yanır.

Yalnız oğul xəbərini, Qazan, söylə mənə!

Deməzsənsə, yana-yana qarğıyaram, Qazan, sənə!

Qəribədir ki, yazı müəllifi oğuz igidlərinin xəyanətkar zənn etdikləri Uruz haqqında dedikləri: "Oğlan quş ürəkli olur. Qaçıb anasının yanına getmişdir" sözlərini vətənpərvərlik duyğularını kölgələmək hesab edir, digər tərəfdən ananın fəryad qopararaq övladı barədə həqiqəti öyrənmək istəməsini "adi məişət davaşavası" sayır.

Yazıdakı iradları təəccüb etmədən oxumaq mümkün deyildr : "Kitabi-Dədə Qorqud" dastanında səhifə 14-də gedən bu cümləni nəzərinizə çatdırmaq istəyirəm:"Donu qaş-daşla bəzənmiş üç yüz igidi seçdi..."Həm də bu cümlə Qazan xanın igidləri üçün səsləndirilir. Dastanın qədim dilimizdən tərcümə edilməsi (?- N.V.) heç kimə sirr deyil. Nəyə görə don sözü tərcümə edilmədən VIII sinif dərsliyinə ötürülüb? Donu igid geyinir, ya qadın-qız? Belə kobud səhvi necə bağışlamaq olar? Əlbəttə, qədim dilimizdə bu sözün paltar mənasında olduğunu bilməmiş də deyilik. Amma donu nə vaxt kişi geyinər-onu da kiçikdən-böyüyə hamı bilir".

Buradakı "qədim dilimiz" ifadəsi daha böyük təəccübə səbəb olur. Dastanın sadələşdirilmiş variantını "tərcümə" adlandırması müəllifin bu abidə haqqında aydın təsəvvürə malik olmadığını deməyə əsas verir. Dastanın dili sadələşdirilərkən mənası bu gün anlaşılmayan sözlərin çağdaş dilimizə uyğunlaşdırılmasına üstünlük verilib."Don" sözü isə başa düşülür və işlədilir. Azərbaycan dilinin izahlı lügətində bu sözün həm qadına, həm də kişiyə məxsus geyim mənasını ifadə etdiyi göstərilmişdir: "Don qadınların, habelə kişilərin üstdən geydikləri uzunətəkli paltar. Ümumiyyətlə, paltar, libas, üst geyim". Eyni zamanda, lüğətdə don sözünün görkəm,qiyafə,dondan dona girmək,don geyindirmək kimi fərqli mənalarda işlənməsi də əksini tapıb. Lakin Şərəbanı xanımın yozduğu "donu nə vaxt kişi geyinər - onu da kiçikdən-böyüyə hamı bilir" mənası burada yoxdur.

Dərslikdəki "Leyli və Məcnun dövrün sərt mənəvi buxovlarını qıra bilməsələr də, ona tabe də olmurlar" cümləsi ilə bağlı yazıda deyilir: "Əgər boyun əyməsə idilər, onlar gərək bir-birilə əl verib, istədikləri yerə gedə idilər. Qeysin "Məcnun" olmasınımı, yaxud Leylinin ibn Səlamı aldatmasınımı, yoxsa Məcnunun səhralara üz tutmasınımı mənəvi buxovlara tabe olmamaq hesab edirsiniz? Bu ki dəhşətdir!".

Yox, dəhşət olan bu deyil. Dəhşət olan budur ki, uzun illər məktəbdə işləyən bu yazı müəllifi klassiklərimizi şagirdlərə yanlış, təhrif olunmuş şəkildə təqdim edib. Anlamayıb ki, Nizami o zəmanədən söhbət açır ki, kişi sevdiyi üçün dəli hesab olunurdu, qadın üçün eşqi etiraf etməyin özü belə mümkünsüz idi. Belə bir zəmanədə ata-ananın, bütöv qəbilənin istəyinə, tələblərinə rəğmən Qeysin başqa bir qızla evlənməməsi, Leylinin isə İbn-Səlamla evliliyi, əslində, qəbul etməməsi, buxovlara qarşı etiraz, cəmiyyətlə barışmamaq idi. Bunu başa düşmək üçün tədqiqat əsərlərini yox, dərslikləri oxumaq kifayət edərdi. Bu fikir daha geniş

şəkildə dərsliklərdə (məsələn, Nizami Cəfərov və b. Ədəbiyyat. 10-cu sinif üçün dərslik, Bakı, 2014, səh. 49-50; Ə.Səfərli, X.Yusifli. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı. Ali məktəblər üçün dərslik. Bakı, 1982, səh.256-274) dönə-dönə göstərilib. Şagirdlər bu müəllimin hər dərsdə müşahidə etdikləri səhv fikirlərini, görünür, üzünə vurmur, həmkarları isə ona baş qoşmurlar ki, hər nə desən də, xeyiri yoxdur. Başlı-başına qalan, obyektiv tənqidi fikri eşitməyən (və eşitmək istəməyən) Ş.Hacıyeva bədii sənətin mahiyyətindən şox uzaq, estetik zövqləri korlayan bəsit düşüncələrini danışmaqdan və yaymaqdan usanmır.

Yazı müəllifinin klassik irsə barışmaz münasibəti Nizami Gəncəvinin "Sultan Səncər və qarı" hekayəsi ilə bağlı dediklərində daha qabarıq əksini tapıb. Yazıda oxuyuruq: "Bu şeir, əslində, terrora çağırışdan başqa bir şey deyildir". Nizamini terrora çağırışda günahlandıran yazı müəllifinin bədii əsərlə bağlı mülahizələrindəki "məntiqi", söz sənəti barədəki mövqeyini aşağıdakı cümlələrdən görmək mümkündür:"... qədim zamanlarda, doğrudanmı, hökmdarı tək, istədiyin yerdə, istədiyin vaxt tutub, dərdini demək mümkün idi? Belə çıxır ki, əsl demokratiya o vaxtlar olub".

Yazıda oxuyuruq: "Nəsiminin" *Mövsümü-Novruzü neysan...*" şeiri sevgi ilə vəhdətdə (? – N.V.) verilməsinə baxmayaraq bu haqda əsərin təhlilində (? – N.V.) heç nə yada salınmayıb. Sevgi –yaz bunları şair ayırmır. Əsərin təhlili (? – N.V.) də paralel bu iki xətt üzərində olmalı idi." Dərslikdəki "Əsərin təhlilinə hazırlaşın" mətnini diqqətlə oxumaq lazım idi. Həmin mətndə deyilir: " Baharın gəlişi, onun gözəlliyi hamıda olduğu kimi, şairin də hiss və düşüncələrində ciddi dəyişiklik yaradır. Bu, şeirdə inandırıcı və təsirli ifadə olunubmu? Suala cavab hazırlayarkən şeirin son iki beytinə daha çox diqqət yetirin, onlardan misal gətirin". Bu mətndə yenə oxuyuruq: " Bülbül ədəbiyyatımızda vəfalı aşiq rəmzidir. Bəs onda nə üçün natiq kimi qələmə verilib? Bu məqamda şairin niyyəti nədir və o niyyət hansı ustalıqla ifadə olnub?". Bu suallar o beytlərlə əlaqədardır ki, Şərəbanı müəllimə onlarda "sevgi ilə vəhdət" görüb. Sadəcə olaraq, başa düşməyib ki, şagirdlərin həmin fikri müstəqil aydınlaşdırmalrına istiqamət verilib.

Yazıda oxuyuruq: "Səh. 60-da "Padişahi-mülk"şeirinin təhlilində birinci cümlədə müəlliflərin şeiri düzgün təhlil edə bilmədikləri meydana çıxır. Cümləni olduğu kimi yazıram:" Şeirdə dövrün ən fəlakətli hadisələrindən biri –ardıcıl baş verən qanlı feodal müharibələri tənqid edilir." Əslində, şairin ən ümdə, ən vacib olan ideyası özü ilə hökmdarları müqayisə edərək, güclü şairin hətta ən qüdrətli hökmdarlardan üstün olmasını bütün dünyaya bəyan etməsidir. Əbəs yerə bu əsəri həm də şairin fəxriyyəsi hesab etmirlər".

Yazı müəllifinin bu mülahizələri də ona görə səhvdir ki, dərslikdəki " Əsərin *təhlilinə hazırlaşın" mətnini diqqətlə* oxumayıb, ya da ümumiyyətlə bu mətndəki fikirləri başa düşməyib. Şeirdə iki şəxsin – *obrazın qarşılaşdırıldığı suallar* vasitəsilə şagirdlərin diqqətinə çatdırılıb, müstəqil təhlil imkanı yaradılıb. Sadəcə olaraq, *mətndəki* suallara diqqətlə baxmaq və şagirdləri onların üzərində işlətmək lazım idi: "Şair özünü sultan adlandırır. O bunu necə əsaslandırır, sultanlığını nə ilə izah edir? Şeir-sənət aləminin sultanı olan şair həyata baxışı, əməli və xasiyyəti ilə işğalçı hökmdardan fərqlənir. Bu fərqi necə izah edərsiniz? Əsəri oxuduqca gözlərimizin qarşısında

şairin məğrur obrazı canlanır. Onu vüqarlı, əyilməz edən səbəblər nədir? Bəs şairin fikrincə, öz sənəti ilə əbədi ömür, əbədi yaşamaq haqqı qazanan sənətkar hökmdara – öləndən sonra unudulan, yaddan çıxan şəxsə necə münasibət bəsləməlidir? Şair bu məsələyə münasibətdə haqlıdırmı? Fikrinizi həyati misallarla əsaslandırmağa çalışın".

Bunu da unutmaq olmaz ki, Füzulinin yaşadığı dövrdə Bağdad tez-tez müxtəlif dövlətlərin (Ağqoyunlu, Səfəvi, Osmanlı ...) işğalına məruz qalırdı. Bu müharibələrin şahidi olan şair dövrün ictimai-siyasi hadisələrinə biganə qala bilməzdi.

Yazıda oxuyuruq: " Səhifə 55-də bir neçə yerdə Azərbaycan əvəzinə türk sözündən (? – N.V.) istifadə edilmişdir ki, bu da çox kobud səhv kimi nəzərə çarpır . Bu səhvin isə Əbülfəz Elçibəyin vaxtı ilə Azərbaycan dilinin səhvən türk dili kimi (? – N.V.) qəbul etdirməsindən meydana çıxmasının ən acı bir nəticəsi olduğunu etiraf etməliyik. Hələ də bəzi dərsliklərdən bu söz, təəssüf ki, yığışdırılmayıb ki, bu da bəzi dolaşıqlığa imkan açır. Az qala özümüz Türkiyədən öncə, Füzulinin türk şairi olduğu fikrini ortalığa atırıq ki, bu da öz-özlüyündə bizim özümüzə özümüzdən ünvanlanan ən güclü zərbədən başqa bir şey deyildir".

Yazı müəllifinə 10-cu siniflər üçün yazılmış "Azərbaycan dili" dərsliyindəki "Azərbaycan Respublikasının dövlət dili" mövzusunu ("2014-cü il nəşri, səh. 32) oxumağı məsləhət görürük.

Dərslikdəki aşağıdakı fikir də Şərəbanı müəllimi razı salmayıb: " O, əsərlərini üç dildə - türkcə, ərəb və farsca yazır. Lakin Füzuli ana dilinə - doğma türkcəmizə üstünlük verir, əsərlərinin çoxunu , daha sanballısını bu dildə yazır. Amma yazır demək azdır; o, ana dilinin əzəmətini, zənginliyini üzə çıxarır, yüksək sənət dili olduğunu sübut edir. Bunun üçünsə böyük əziyyətlərə qatlaşır, əsl fədakarlıq göstərir".

Yazı müəllifinin yuxarıdakı fikrə etirazı təəccüb doğurur: "Həmçinin, bu səhifədə digər bir səhvi də mütləq qeyd etmək vacibdir. Cümləyə baxaq: " o, ana dilinin əzəmətini, zənginliyini üzə çıxarır " (?). Xeyr, Füzuli haqqında bu fikir olduqca cılız səslənir. Çünki Füzuli bu dilin zənginliyini bütün dünyaya bəyan edərək onu ilahi bir,səmavi bir,sehirli bir dil –ürəklərə fövqəl təsir edən bir dil, ürəklərin ən dərin qatlarına enən bir dil,şeir bağçasının ən füsunkar bir gülünə bənzəyən bir dil, qəlbləri ehtizaza gətirən bir dil, İnsanı qışın soyuğunda hərarətləndirən, yayın qızmarında buza döndərən bir dil olduğunu hayqırmışdır - onun şeirləri hamımıza bu dilin necə şirin, necə ürəyəyatımlı, necə qədim, necə zəngin olduğunu isbatlayır. Füzuliyə aid biz yalnız onun qüdrətli sənətinə layiq olan ifadələri seçib işlətməliyik".

Füzuli doğma dilinin "əzəmətini" və "zənginliyini" sübut etməyi qarşısına məqsəd qoymuşdu və buna da nail oldu. Onun dili "ilahi bir", "səmavi bir" dil yox, Azərbaycan türklərinin dili idi və "Azərbaycan ədəbi-bədii dili onun şəxsində kamala dolur" (akademik T.Hacıyev). Dərsliyi gəlişi gözəl sözlərlə yükləmək yolverilməzdir.

Dərslikdə oxuyuruq: "Ədəbiyyatımızda dərin kök salan, qədim dövrlərdən baş alıb gələn humanizm, insan gözəlliyinin tərənnümü Füzuli yaradıcılığında yeni zirvəyə qaldırılır".

Yazıda bu fikrə etiraz edilir: " Daha sonra belə bir cümləyə rast gəlirik: "...insan gözəlliyinin tərənnümü Füzuli yaradıcılığında yeni zirvəyə qaldırılır." Bu da səhvdir. Füzuli yaradıcılığında yeni zirvələrə qaldırılan insan onu gözəl-

ləşdirən duyğuların, hisslərin, insanlığın, bəşəriliyin, bir sözlə, qeyri – adiliyin təcəssümüdür".

Yazı müəllifi "humanizm, insan gözəlliyi" ifadələrinin mahiyyətini anlamadığına görə lüzumsuz və cəfəng bir açıqlama vermiş, həm də insanı gözəlləşdirən duyğunu, hissi və s. nədənsə, qeyri-adi hesab etmişdir.

Yazıda deyilir: "Səhifə 95-də Molla Pənah Vaqifin həyatı haqqında məlumatda da kobud bir səhvlə üz-üzə dayanırıq:" hər yetən gözəl" ifadəsi səhvən Vaqiflə əlaqələndirilib . Bu ifadə isə Aşıq Ələsgərə aiddir". Yazı müəllifinin Vaqif poeziyasından xəbərsiz olduğu aşkara çıxır. Aşıq Ələsgərdən əvvəl bu ifadəni Vaqif işlədib:

Hər yetən gözələ gözəl demənəm,
Gözəldə bir qeyri əlamət olur:
Zülf bir yana düşər, gərdən bir yana,
Özün bilməz, bir özgə babət olur.
(Molla Pənah Vaqif. Əsərləri. Bakı, "Şərq-Qərb", 2004, səh. 118).

Yazıda "Koroğlu" dastanı ilə əlaqədar deyilir: " Dastanda həm də, nəinki nəsr dilində, eləcə də şeir dilində də düzgün yazı deyil, düzgün tələffüz tərzi verilmişdir ki, bu haqda mən qeyd eləmişdim:

Nahaq yerə gəl eyləmə yamanlıq,
İnan, Bolu, mən Koroğlu deyiləm.
İnnən belə yaxşılığın günüdü,
İnan, Bolu, mən Koroğlu deyiləm.

Bu bənddə "eyləmə"," innən", "günüdü" sözləri orfoqrafik cəhətdən səhvdir".

Azərbaycan dili və ədəbiyyat fənlərindən dərs deyən yazı müəllifinin şifahi xalq ədəbiyyatına, onun dil xüsusiyyətlərinə bu cür münasibəti təəssüf doğurur. Doğrudanmı, bu müəllimə VIII sinfə qədər şagirdlərində xalq ədəbiyyatı nümunələrində sözlərin, ifadələrin işlənilməsindəki özəllik barədə təsəvvür yaratmayıb? Şərəbanı müəllimə yanlış olaraq düşünür ki, dərslik müəllifləri əllərinə qələm alaraq nağılların, dastanların dilini müasir ədəbi dilin normalarına uyğunlaşdırmalıdırlar. Universitet təhsili almış ədəbiyyat müəlliminin belə düşünməsinə nə ad verəsən?

Yazıda oxuuruq: "Səhifə 90-da "Koroğlu" dastanının təhlili olduqca zəif – dastanın möhtəşəmliyinə xələl gətirəcək bir səviyyədə verilmişdir".

Uzun illər bu dərsliklə işləyən müəllimə hələ də başa düşməmişdir ki, nə VIII, nə də IX siniflərin dərsliklərində heç bir əsərin təhlili verilməmişdir. "Əsərin təhlilinə hazırlaşın" mətnlərində məqsəd, yuxarıda qeyd edildiyi kimi, şagirdlərdə müstəqil təhlil bacarığını formalaşdırmaqdır. Bunun üçün çox faydalı metodik yol seçilmişdir ; şagirdlərin diqqəti əsərin təhlili ilə bağlı mühüm məsələlərə cəlb edilmiş, ardınca açıq tipli istiqamətləndirici suallar verilmişdir. Yeri gəlmişkən, dərslikdə "Koroğlu" dastanı ilə bağlı həmin mətn hələ heç bir dərsliyimizdə rast gəlinməyən yüksək səviyyəli metodik işləmədir. Bunu, sadəcə olaraq, görməyi, başa düşməyi bacarmaq lazımdır.

Dərsliklə bağlı digər bir irad M.F.Axundzadənin komediyalarının sayı ilə bağlıdır. Tədqiqatçıların çox az qismi Axundzadənin bəzi komediyalarını dram hesab etsələr də, hətta bu fikir dərslikdə də özünə yer tapsa da, ədəbiyyatşünaslıqda ümumi rəy onun əsərlərinin komediya hesab edilməsidir. Müəllifin əsərlərinin sonuncu nəşrinə yazılan ön sözdə də (Axundzadə M.F. Seçilmiş əsərləri. I cild. Bakı, "Şərq-Qərb", 2005) onun 6 komediyası olduğu göstərilmişdir.

Yazıda bəzi nəzəri anlayışların dərslikdə səhv izah olunduğu göstərilir : "Səhifə 150-də məcazlar haqqında məlumatlarda səhvlər var:

a) "Qara qızıl"ifadəsi metonimiya kimi təqdim olunub,əslində, bu ifadə e p i t e t dir.

b) R.Rzanın "Salon susub durardı" misrasını metonimiya hesab etmək olmaz. Çünki bu misrada salonun susması məhz metafor adır. Nə fərqi var, bir qədər yuxarıda "Günəşim susmasın"metafora kimi verildiyi halda, salon susanda niyə metonimiya götürülməlidir? Belə anlaşılmazlığa yol vermək olarmı?".

Şagirdlərin bildikləri sadə məsələləri Şərəbanı müəllimənin bilməməsi təşviş doğurur. Bu müəllimənin şagirdləri Azərbaycan dili və ədəbiyyat fənlərini hansı səviyyədə mənimsəyirlər? Axı Şərəbanı müəllimənin bircə də olsun fikri doğru deyil. O, unutmamalıdır ki, epitet sözünün hərfi mənası əlavə deməkdir. Obyektə əlavə olaraq artırılan söz birləşmə daxilində bədii təyin kimi çıxış edir. "Qara qızıl" ifadəsində məcaz, yəni epitet sayıla biləcək söz qara sözüdür, qızıl isə həqiqi mənasını saxlayır. Şərəbanı müəllimənin dediyi kimi, "qara qızıl" ifadəsinə epitet kimi yanaşsaq, söhbətin məhz qızıldan getdiyi kimi səhv nəticəyə gəlmiş olarıq. Halbuki "qara qızıl" dedikdə neftin nəzərdə tutulduğu hamıya məlumdur. Metonimiyada əşya və ya hadisənin adı onunla əlaqədar olan başqa bir əşya və hadisənin adı ilə əvəz edilir. Burada da neft ilə qızıl arasında əlaqə neftin də qızıl kimi qiymətli kapital sayılmasıdır.

Yazıda "Salon susub durardı" misrası metonimiya yox, metafora hesab edilir. Məlumdur ki, metafora bənzətmə əsasında yaradılır. Bu misrada isə insanın əlaməti salonun üzərinə köçürülməyib, insan sözü onunla əlaqədar olan başqa bir sözlə - olduğu məkanın adı ilə əvəz olunub. Məcaz növünün metonimiya olduğunu görmək çətin deyildir.

Yazıda iddia olunur ki, dərslkdə "dərviş" sözünün mənası yanlış izah olunub, "qaravaş" sözü səhvən "qarabaş" yazılıb.

Yazı müəllifi burada da diqqətsiz olub; "Padişahi-mülk..." qitəsindəki dərviş sözü "Azərbaycan dilinin izahlı" lüğətindəki ikinci mənaya – yoxsul, fağır uyğun gəlir.

İkinci sözlə - qarabşla əlaqədar Şərəbanı müəllimə aşagıdakı mənbələrə baxmağı tövsiyə edirəm: 1.Azərbaycan dilinin izahlı lüğəti. Bakı, 2006, səh.47; 2.Azərbaycan dilinin orfoqrafiya lüğəti. 6-cı nəşr, Bakı, 2013, səh.388.

Dərslik yazmağın nə qədər məsuliyyətli iş olduğu hamıya aydındır. Dərslik haqqında söylənilən fikirlər də düşünülmüş, obyektiv və elmi cəhətdən əsaslandırılmış olmalıdır. Dərslik müəllifi qədər, dərslik haqqında rəy bildirənlər də bu işə məsuliyyətlə yanaşmalıdırlar. Təəssüf ki, bəzən əsassız, məntiqsiz, pafosla pərdələnmiş, gülünc iradlara da rast gəlmək olur. Belə yazılara yer verən mənbələr onların əhəmiyyətsiz və faydasız olduğunu mütəxəssis rəyinə əsasən əvvəlcədən müəyyənləşdirə bilər. Dərslik müəllifləri bu cür sərişəsiz, qeyri-elmi yazılara əhəmiyyət vermir və cavab yazmırlar. Amma unudulmamalıdır ki, belə yazılar gənc, təcrübəsiz müəllimlərdə çaşqınlıq yarada bilər. Məqsədimiz məhz bunun qarşısını almaqdır.

Polemika

YENİ ORFOQRAFİYA LÜĞƏTİNDƏ MÜBAHİSƏLİ MƏQAMLAR

Kulis.az filoloq, "Hədəf" kurslarının təhsil-tədris işləri üzrə direktoru **Elxan NƏCƏFOVUN** "Yeni orfoqrafiya lüğətində mübahisəli məqamlar" yazısını dərcetmişdir. Həmin yazıda "Azərbaycan dilinin orfoqrafiya lüğəti"nin 2013-cü il nəşrindəki dəyişikliklər, yeni qaydalar və mübahisəli məqamlardan bəhs olunur. Onu jurnalımızın oxucularına təqdim edirik.

Redaksiya.

Yazı işi ilə məşğul olan insanlar həmişə orfoqrafiya qaydalarını izləmək və ona əməl etmək məcburiyyətindədirlər. Müstəqillik əldə etdikdən sonra dilimizin inkişafı ilə bağlı imzalanan əmr və sərəncamları orfoqrafiya qaydalarının təkmilləşməsinə şərait yaratdı və bu, yeni orfoqrafiya kitablarının çap olunmasına gətirib çıxartdı. Nəşr olunan hər bir kitab isə özü ilə bərabər bir çox mübahisələr də gətirdi. Elmi ağırlığını nəzərə aldıqda bu sahənin nə qədər çətin və məsuliyyətli iş olduğunu başa düşmək olar. Çünki dilimizə elm və texnikanın inkişafı ilə əlaqədar daxil olan və yaxud yeni yaranan sözlərin orfoqrafik qaydalara uyğunlaşdırılması həm təcrübə, həm də dəqiqlik tələb edir.

Bir çox sözlər uzun müddətdir ki, orfoqrafiya baxımından mübahisə mövzusu olaraq qalıb. "Azərbaycan dilinin orfoqrafiya lüğəti" Azərbaycan Respublikası Dövlət Dil Komissiyası və Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutu tərəfindən hazırlanaraq 2004 və 2013-cü illərdə çap olunub. 2004-cü ildə "Lider" nəşriyyatı tərəfindən çap olunan kitaba 80000-ə yaxın söz daxil edilmişdi. 2013-cü ildə "Şərq-Qərb" nəşriyyatı tərəfindən nəşr edilən kitaba isə 110563 söz daxil edilib.

Çap olunmuş bu kitablar arasında bir çox fərqlər, yəni yeniliklər var. İkinci kitab bir çox mübahisələri həll etdi və əvvəlki kitabda gedən səhvləri aradan qaldırmaqla müəllimlər, mətbuat işçiləri və rəsmi qurumlarda yazı qaydaları ilə bağlı çaşqınlığı həll etməyə şərait yaratdı.

Bu iki nəşr arasındakı fərqləri və son nəşrdəki yenilikləri birlikdə izləsək, görərik ki, yeni lüğətimizdə xeyli dəyərli və lazımlı məqamlar var.

Belə ki:

2004-cü il nəşrində antena şəklində verilən söz 2013-cü il nəşrində isə anten kimi verilib.

2004-cü il nəşrində kompyuter şəklində verilən söz 2013-cü il nəşrində isə kompüter kimi verilib.

2004-cü il nəşrində kərbalayı şəklində verilən söz 2013-cü il nəşrində isə kərbəlayı kimi verilib.

2004-cü il nəşrində fel şəklində verilən söz 2013-cü il nəşrində isə feil kimi verilib.

2004-cü il nəşrində şeriyyət şəklində verilən söz 2013-cü il nəşrində şeiriyyət kimi verilib.

2004-cü il nəşrində cəfəngiyat şəklində verilən söz 2013-cü il nəşrində cəfəngiyyat kimi verilib.

2004-cü il nəşrində dzü-do şəklində verilən söz 2013-cü il nəşrində cüdo kimi verilib.

2004-cü il nəşrində həm genefond, həm də genofond şəklində verilən söz 2013-cü il nəşrində isə sadəcə genofond kimi verilib.

2004-cü il nəşrində həm kamod, həm də komod şəklində verilən söz 2013-cü il nəşrində sadəcə komod kimi verilib.

2004-cü il nəşrində həm minacat, həm də münacat şəklində verilən söz 2013-cü il nəşrində sadəcə minacat kimi verilib. Bununla bərabər münacatlı sözünə də yeni lüğətdə rast gəlmək olar.

2004-cü il nəşrində həm valyuta, həm də volyuta şəklində verilən sözlərə 2013-cü il nəşrində aydınlıq gətirilərək volyuta sözünün memarlıq sahəsinə aid söz olduğuna işarə edilib.

2004-cü il nəşrində metafora şəklində verilən söz 2013-cü il nəşrində metafor kimi verilib.

2004-cü il nəşrində nəqarət şəklində verilən söz 2013-cü il nəşrində nəqərat kimi verilib.

2004-cü il nəşrində ekspress şəklində verilən söz 2013-cü il nəşrində ekspres kimi verilib. Maraqlı budur ki, supereksspress sözündə sonda iki ss saxlanılıb.

2004-cü il nəşrində cavahirat şəklində verilən söz 2013-cü il nəşrində cəvahirat kimi verilib.

2004-cü il nəşrində sürtgü şəklində verilən söz 2013-cü il nəşrində sürtkü şəklində düzəldilib.

2004-cü il nəşrində ötgün, ötgünlük şəklində verilən sözlər 2013-cü il nəşrində ötkün, ötkünlük şəklində düzəldilib.

2004-cü il nəşrində qarmaqarışıq şəklində verilən söz 2013-cü il nəşrində qarma-qarışıq şəklində düzəldilib.

2004-cü il nəşrində zirzibil şəklində verilən söz 2013-cü il nəşrində zir-zibil şəklində düzəldilib.

2004-cü il nəşrində ala-toran şəklində verilən söz 2013-cü il nəşrində alatoran şəklində düzəldilib.

2004-cü il nəşrində haqq-səy şəklində verilən söz 2013-cü il nəşrində haqq-say şəklində düzəldilib.

2004-cü il nəşrində yerfıntığı şəklində verilən söz 2013-cü il nəşrində yerfındığı şəklində düzəldilib.

2004-cü il nəşrində yerfısdığı şəklində verilən söz 2013-cü il nəşrində yerfıstığı şəklində düzəldilib.

Orta məktəb dərsliklərində müxtəlif siniflər üzrə vəsaitlərdə naqqaş yoxsa nəqqaş yazılması mübahisə mövzusu olan bu söz 2013-cü il nəşrində nəqqaş şəklində təsdiqlənib.

2004-cü il nəşrində birvariantlı -vari şəkliçisi 2013-cü il nəşrində -varı şəklində təsdiqləndi. Məsələn: bizvarı, qalxanvarı, buynuzvarı, çəlləkvarı və s.

Orta məktəb dərsliklərində orfoqrafiyası mübahisəli olan sözlərdən biri də keşməkeşli sözüdür. Belə ki bu söz müxtəlif dərsliklərdə kəşməkəşli, keşmekeşli şəklində verilməklə mübahisələr yaradıbdır. Həmin söz 2004-cü ilin lüğətində öz yerini tapmasa da, yeni 2014-cü il nəşrində keşməkeşli şəklində öz əksini tapmışdır.

Mürəkkəb sıra saylarının bitişik, yoxsa ayrı yazılması mübahisəsinə də son nəşrdə bir neçə nümunə ilə son qoyulub. Belə ki, *həmin saylar sözlə yazıldıqda bitişik* yazılır: saltıyüzüncü, onbirinci və s.

Orta məktəb dərsliklərində və TQDK-nın *qəbul qaydalarında orfoqrafiyası* sətirdən sətrə (defissiz) şəklində düzgün qəbul edilən söz yeni lüğətdə defislə, yəni sətirdən-sətrə şəklində verilib.

2004-cü il nəşrində əksini tapmayan, orta məktəb dərsliklərində və TQDK-nın

qəbul qaydalarında orfoqrafiyası alğı-satqı şəklində düzgün qəbul edilən söz yeni lüğətdə alqı-satqı şəklində verilib.

2013-cü il nəşrinə əsasən daha çox sabitləşmiş qaydalar mürəkkəb sözlərin və mürəkkəb adların yazılışında özünü göstərir. Mürəkkəb sözlərdə tərkibində anti, audio, auto, avia, avto, bio, elektro, faqo, foto, infra, hidro, makro, mikro, mono, nano, neyro, paleo, poli, psevdo, stereo, super, trans, ultra, vibro, video, zoo hissəcikləri olanlar bitişik yazılır. Məsələn:antihumanist, audiovizual, autosintetik, aviabilet, avto-nəqliyyat, bioorroziya, elektromaqnit, faqoprofilaktika, fotokamera, infrastruktur, hidrobiologiya, makromexanika, mikrorayon, monoqrafiya, nanotexnologiya, neyrocərrah, paloe-qrafik, polivitamin, psevdorealizm, stereometrik, supermarket, transfaktor, ultradəb, vibroakustika, videomontaj, zoomağaza.

Tərkibində eks (müstəqil söz köklərinə artırıldıqda), elmi, əks (müstəqil söz köklərinə artırıldıqda), kontr, külli, qeyri, ober, vitse sözləri işləndikdə defisdən istifadə olunur. Məsələn: eks-çempion, elmi-kütəvi, əks-hücum, əks-inqilab, külli-ixtiyar, kontr-admiral, qeyri-adi, qeyri-iradi, ober-leytenant, vitse-admiral və s.

Yeni kitabda daha çox konkretləşən mürəkkəb adların yazılışıdır. 2013-cü il *nəşrində mürəkkəb adların yazılışı daha* çox nümunələrlə verilib və əvvəlki nəşrdən daha aydın izah olunub. Bir neçə *nümunəyə diqqət edək;*

Ölkələrin, muxtar respublikaların, vilayət və diyarların rəsmi adlarının *tərkibindəki bütün sözlərin; respublika,* şəhər, rayon tabeliyində olan idarə və təşkilatların; nazirlik, komitə, birlik, cəmiyyət, qurum, akademiya, universitet, institut, kollec, texnikum, muzey, teatr, siyasipartiya; yüksək dövlət vəzifələrinin tərkibində ki bütün sözlərin (yardımçı sözlərdən başqa) *ilk hərfi* böyük yazılır.

Məsələn:

Azərbaycan Respublikası

Azərbaycan Respublikasının Prezidenti

Azərbaycan Respublikasının Nazirlər Kabineti

Azərbaycan Respublikasının Baş Naziri

Azərbaycan Respublikasının Milli Məclisi

Azərbaycan Respublikası Milli Məclisinin Sədri

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi

Azərbaycan Milli İncəsənət Muzeyi

Ağstafa Rayon Təhsil Şöbəsi

Azərbaycan Dövlət Dram Teatrı

Azərbaycan Dövlət Nəşriyyatı

Azərbaycan Maliyyə-İqtisad Kolleci

Bakı Şəhər İcra Hakimiyyəti

Bakı Mədəniyyət və İncəsənət Texnikumu

Bakı Ali Neft Məktəbi

Beynəlxalq İnkişaf Assosiasiyası

Beynəlxalq Qırmızı Xaç Komitəsi

Heydər Əliyev adına Bakı Beynəlxalq Hava Limanı

Heydər Əliyev Mərkəzi

Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksi

M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyası

M.Mirqasımov adına Respublika Klinik Xəstəxanası

Məhdud Məsuliyyətli Cəmiyyət

Naxçıvan Muxtar Respublikası

Tələbə Qəbulu üzrə Dövlət Komissiyası

"Hədəf" Nəşriyyat Evi
"Şərq-Qərb" Nəşriyyat Evi
Yeni Azərbaycan Partiyası

Qeyd 1. Tərkibində gün sözü olan təqvimə düşən əlamətdar günlərin adlarında bütün sözlər böyük hərflə yazılır: Beynəlxalq Qadınlar Günü, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və s.

Qeyd 2. Azərbaycan Respublikasının Təhsil naziri, Azərbaycan Respublikasının Səhiyyə naziri tipli mürəkkəb adlarda sahə bildirən sözlər böyük, "nazir" sözü kiçik hərflə yazılır.

Qeyd 3. Tərkibində şöbə, lisey, gimnaziya, vəqf, məktəb sözləri olan mürəkkəb adlarda ilk söz böyük, sonrakı sözlər kiçik hərflə yazılır. Avropa liseyi, Dəyanət vəqfi, Humanitar fənlər gimnaziyası, Humanitar siyasət məsələləri şöbəsi, Uşaq-gənclər şahmat məktəbi və s.

Qeyd 2-də göründüyü kimi, vəzifə adlarında naziri (Azərbaycan Respublikasının Təhsil naziri, Azərbaycan Respublikasının Səhiyyə naziri) sözü balaca hərflə yazılıb. Yuxarıda mürəkkəb adlara aid verilmiş nümunələrdə isə Azərbaycan Respublikasının Baş Naziri mürəkkəb adında fərqli məqam ortaya çıxır. Burada Naziri sözü böyük hərflə yazılıb. Elmi izahının mübahisə doğuracağını qəbul etsəkdə, bunu orfoqrafiya qaydalarında nəzərə almaq lazımdır.

Yeni lüğət söz ehtiyatının çoxluğu və düzəlişləri ilə olduqca əhəmiyyətlidir. Amma bununla belə müəyyən mübahisəli məqamlar hələdə qalır. Beləki, alqı-satqı sözünün alğı-satqı şəklində yazılması, fikrimcə, daha doğru olardı. Çünki cingiltili samitlərdən sonra -gi, -ğı, -gü, -ğu, kar samitlərdən sonar isə -ki, -qı, -kü, -qu şəkilçilərinin artırılmalı olduğu qrammatik qaydaların tələbidir. Onagörədə, burada sözün kökündə (al) l cingiltili samit olduğu üçün alğı-satqı olmalıdır.

Bundan əlavə, bir çox elmi ədəbiyyatda quruluşca sadə bağlayıcı hesab edilən yaxud, çünki, həmçinin və hərçənd bağlayıcıları 2013-cü il nəşrində mürəkkəb bağlayıcılar hesab edilib. Mürəkkəb sözlərin tərkib hissələri baxımından yanaşıldıqda bu bağlayıcılar mənşə baxımından mürəkkəb hesab edilsə də, indiki vəziyyətdə morfoloji quruluşu baxımından sadə bağlayıcılardır.

Başqa bir məqam isə sətirdən-sətrə sözündə özünü göstərir. Bu söz son dövrlər orta məktəb dərsliklərində defis qoyulmadan ayrı-ayrı morfoloji və sintaktik suala cavab verən iki sadə söz kimi götürülür. Bunun izahı da olduqca məntiqli verilib. Həmin sözü cümlədə analoji olaraq digər sözlə əvəz edək. Məsələn: Yazını sətirdən-sətrə keçirtdim. Yazını kitabdan kitaba köçürtdüm. Bu cümlələrdə "sətirdən-sətrə" sözü ilə "kitabdan kitaba" sözləri eyni funksiyaya malikdirlər.

Əlbəttə, kitabdan kitaba şəklində olanda defis qoymaq lazım olmadığı kimi, sətirdən sətrə olanda da defis qoymaq düzgün olmazdı.

Qeyd etmək lazımdır ki, kiçik qüsurlarına baxmayaraq, "Azərbaycan dilinin orfoqrafiya lüğəti"nin 2013-cü il nəşrini yazı işlərimizin orfoqrafik normalara uyğunlaşması baxımından əhəmiyyəti böyük olacaq. Ümid edirik ki, bu gözəl işin davamı olaraq mükəmməl bir "Orfoepiya lüğəti" də tezliklə nəşr edilib stolüstü kitablarımızdan birinə çevriləcəkdir.

"QARACA QIZ"IN TALEYİ
(Süleyman Sani Axundovun "Qaraca qız" povesti necə dəyişdirildi?)

Könül NƏHMƏTOVA,
AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun böyük elmi işçisi,
filologiya üzrə fəlsəfə doktoru

İlkin mənbələr əsasında aparılan ciddi ədəbiyyatşünaslıq araşdırmaları elmi ictimaiyyəti belə bir faktla üz-üzə qoyur: Hələ sovet hakimiyyətinin ilk illərindən etibarən yalnız şəxsiyyətlər deyil, həm də sənət və yaradıcılıq nümunələri milli-mənəvi siqlətinə görə represiyaya məruz qalmışıdr. Azərbaycan sovet ədəbiyyatı yaratmaq siyasəti yeni əsərlərin mövcud ideologiyaya tabe etdirilməsi ilə kifayətlənməyib, klassik əsərlərə də ciddi müdaxilələr etdirməklə məzmununun dəyişdirilərək idealoji təhriflərə məruz qoyurdu. Maraqlı bir faktdır ki, Cəfər Cabbarlının "Sevil" dramında həyat həqiqəti idealoji təbliğata qurban verilərək əlyazmasından o yana keçə bilməmişdir. Mirzə Fətəli Axundzadənin, Hüseyn Cavidin, Əbdürrəhim bəy Haqverdiyevin və o cümlədən, artıq özünü uşaq yazıçısı, pedaqoq kimi təsdiqləmiş, gələcək nəslin yetişməsində xüsusi fəaliyyəti olan S.S.Axundovun əsərləri belə talehsizliklə üzləşmişdir. S.S.Axundovun "Qaraca qız" povesti daha çox təzyiqə, təhrifə məruz qalan əsərlərdən biridir. Əsər tam 100 illik nəşr tarixi müddətində Azərbaycan klassik uşaq ədəbiyyatımızın nadir inciləri sırasına daxil olsa da, elmi tədqiqi istiqamətində rastlaşdığımız laqeydlik təəccüb doğurmaya bilmir. Azərbaycan sovet ədəbiyyatşünaslığında aparılan tədqiqatlar nə qədər anlaşılandırsa, müstəqillik dövrü ədəbiyyatşünaslığımızda müşahidə etdiyimiz laqeydlik başa düşülən deyil. Halbuki əsərin böyük dəyişikliklərə məruz qalması haqqında hələ 1968-ci ildə Nadir Vəlixanov mümkün olduğu qədər elmi ictimaiyyəti məlumatlandırırdı. N.Vəlixanov ədəbiyyat tarixçiliyimizin yaddaşına bir mesaj ötürmək məqsədi ilə yazırdı: "Müəllif Hüseynqulu ağanın tənbəlliyinə işarə etsə də, onun sinfi təbiətinə səciyyəvi olmayan müsbət keyfiyyətlərini vermişdi. Bunu nəzərə alaraq ədib sonrakı nəşrdə Hüseynqulu ağanın tipik olmayan bir sıra müsbət keyfiyyətlərini atmışdır." Yaxud: ""Əsərin ilk nəşrində Hüseynqulu ağanın səciyyəsi müəyyən qədər idealizə edilmişdi. O, çox vaxt Qaraca qızın müdafiəçisi kimi çıxış edirdi." Tədqiqatçı belə mühüm fərqləri diqqətə çatdırmaqla S.S.Axundovun milli-mənəvi dəyərlərimizə münasibətinin əslini işıqlandırmağa çalışırdı. Alim təlim və tərbiyə məsələsini yad mentalitetə uyğunlaşdırmağın da tənqidini povestin əsas ideya istiqamətlərindən biri kimi vurğulayırdı: "S.S.Axundov "Qaraca qız" hekayəsində Mariya İvanovnada təqdirəlayiq bir sifət göstərməmişdi. Mariya İvanovna uşaq psixoligiyasından xəbərsiz olduğundan və ya buna əhəmiyyət vermədiyinə görə Ağca xanımın tərbiyəsi ilə məşğul ola bilmirdi." Əflatun Saraçlı da əsərin dəyişdirilməsinə

münasibətsiz qalmamış, ötəri bir cümlə ilə də olsa da, bu məsələyə toxunmağı özünə borc bilmişdir. Nadir Vəlixanov "Süleyman Sani Axundov" monoqrafiyasını siyasi müstəqilliyimiz dönəmində təkmilləşdirərək əsərin dəyişdirilmə səbəblərini daha obyektiv qiymətləndirməyə nail olmuşdur. S.S.Axundovun yalnız "Qaraca qız" əsəri deyil, digər əsərləri də dəyişikliklərə məruz qalmışdır. Nadir Vəlixanov "Süleyman Sani Axundov (elmi bioqrafiya)" adlı monoqrafiyasında milli-mənəvi dəyərlərimizin aşılanması istiqamətində aparılan bu siyasətin ədəbiyyatımıza vurduğu zərərdən təəssüflə danışırdı.

Nadir Vəlixanovun elmi tədqiqatı sayəsində yalnız "Qaraca qız" əsərinin deyil, "Nurəddin" əsərinin də üzərində dəyişikliklər edilməsi haqqında məlumatlanırıq. Tədqiqatçıya görə, Süleyman Sani sonralar "Qorxulu nağıllar"ı "Məktəb" jurnalından götürüb çap etdirərkən onların üzərində yaradıcılıq işləri də aparmışdır, lakin fikrimizcə, bu dəyişiklikləri birmənalı olaraq "yaradıcılıq işi" kimi qiymətləndirmək doğru olmaz. "Nurəddin" hekayəsinin ilk nəşri ilə ("Məktəb" jurnalı, 1912-ci il, N-9, 20, 21-22) sonrakı nəşrlər arasında bəzi fərqlər vardır. Ədib 1936-cı ildə əsərlərini çapa hazırlayarkən bu hekayədə müəyyən dəyişikliklər etmişdir. Məsələn, ilk nəşrdə məktəbli Fatma atası Hacı Səmədə deyir ki, "müəllimimizin əmrinə görə, gərək sabaha bir elə nağıl düzəldəm ki, ondan belə bir məna çıxsın: "Yaxşılıq eylə, at dəryaya, balıq bilməsə də, xalıq bilər." Bu cümlədəki "xalıq" sözü Allaha işarə idi. Ədib sovet dövründə yeni görüşlərlə əlaqədar olaraq həmin atalar sözünü "yaxşılıq elə, əvəzini görərsən" şəklində yazmışdır.

İlk nəşrində Hacı Səməd Hacı Nəsirin övladı olmasını da "Allah-təalanın kəraməti" ilə bağlayır. Əsərin sonrakı nəşrində isə ədib həmin sözlərin əvəzinə "axırda bunların bir oğlu oldu" yazmışdır.

Hacı Nəsir Rəhimə yaxşılıq etmişdi. Bunun əvəzində Rəhim Nurəddinə ("İlk nəşrdə Nurəddinin adı Nurələddin kimi verilir. Bu, müəllifin həmin obrazın işıqlı, düşüncəli olduğunu onun adında da nəzərə çatdırılması ilə əlaqədardır." – N,Vəlixanov) "kibrit" qutusu irilikdə "Quran" gətirir. Həlimə də "Quranı öpüb" oğlu Nurəddinin boynundan asır. Əsərin 1936-cı il nəşrində isə Rəhim Nurəddinə Quran yox, Sədinin "Gülüstan" kitabını yadigar verir. Bu dəyişikliklər 30-cu illərdə vulqar sosiologizmin təsiri ilə olmuşdur və əsərə müsbət təsir göstərməmişdir." Göstərilən nümunələr artıq müəllifin əsərinin ilkin ideya istiqamətlərini sovet konyukturasına uyğunlaşdırmaq məcburiyyəti qarşısında qalmasından xəbər verir.

S.S.Axundovun "Qorxulu nağılları"ı içində ən çox dəyişikliyə məruz qalmış "Qaraca qız" povestinin müasir tədqiqat tariximizdə, xüsusilə, uşaq ədəbiyyatı tarixçiliyində layiqincə tədqiqatına təsadüf edə bilmədiyimizi təəssüflə qeyd etmək məcburiyyətindəyik.

Klassik ədəbiyyatımıza müasir konseptual yanaşma "Qaraca qız" hekayəsinin 1913-cü ildə "Məktəb" jurnalının 1-22-ci nömrələrində dərc edilmiş ilk nəşri ilə 1934-cı ildə ədibin "Əsərləri" külliyyatına daxil edilən nüsxəsi arasındakı fərqin araşdırılması və üzə çıxarılmasını zəruri edir. İlk nəşrdə ədibin "Qorxulu nağıllar" başlığı altında yazdığı "Əhməd və Məleykə", "Abbas və Zeynəb", "Nurəddin"

hekayələrindən tanıdığımız Hacı Səmədin qızı Fatma ona kiçik bir epizod söyləyir. Bu epizoddan məlum olur ki, Fatmagilin oxuduğu məktəbdə Nabat adlı çirkin sifətli, gözləri çəp bir qız var imiş. Sifətinin çirkinliyinə görə yoldaşları onunla oynamaq istəmirlər. Bir gün Fatmagil oynayanda onların Gövhər adlı yoldaşlarından biri yıxılır, başı daşa dəyib qanayır. Nabat hamıdan tez Gövhərə yardım edir. Bu əhvalatdan sonra yoldaşları onunla dostlaşırlar. Bu epizodu dinləyən Hacı Səməd həmin əhvalatı belə mənalandırır: "Qızım, insanın zahirinə baxma, batininə bax. Türklərdə bir məsəl var, deyərlər ki, "Ətə baxma, dona baxma, cana bax." İlk variantında "Qaraca qız" əsərinin əsas motivi də məhz insanın mahiyyətinin rəngindən, dinindən, maddi və fizioloji imkanlarından asılı olmayaraq, şəxsi insani keyfiyyətlərinə görə müəyyənləşməsi idi. Həmçinin əsərin əsas ideya istiqamətlərindən birini təşkil edən millətin var olmasını təmin edən mentalitetin yad təsirlərə qurban verilməməsi kimi milli kimlik məsələsidir. Lakin bu motivlər sovet siyasi rejiminin ideoloji təsirləri ilə dəyişdirilərək tamamilə yad bir məcraya salınmışdır.

"Qaraca qız" povestinin üzərində aparılan dəyişikliyi iki mərhələdə müşahidə edirik. Əsər ilk dəfə 1927-ci ildə S.S.Axundovun "Zərafət" adlı hekayələr kitabına daxil edilərkən dəyişdirilmişdir. Əsərin üzərində yazıçı özü işləmişdir. Növbəti dəfə isə 1934-cü ildə yazıçının "Seçilmiş əsərləri"nin tərtibi zamanı bir daha dəyişdirilməyə təhrik edilmişdir. Hər üç nəşr arasındakı fərqlərin idealoji səbəblərdən yarandığını açıq görmək mümkün olduğu üçün yazıçının bu işə məhz təhrik edilməsi qənaətinə gəlirik. Bu iki nəşr arasında bir sıra incə və mühüm fərqlər görürük. 1936-cı ildə "Seçilmiş əsərlər"in təkrar çapında artıq son dəyişikliyə möhür vurularaq bir əsrə yaxın tariximizin yaddaşına köçürülür və bu günə kimi uşaq ədəbiyyatımızın qızıl fonduna daxil olan "Qaraca qız" kimi mükəmməl bir əsər millətin öz keçmişinə nifrət ruhunda tərbiyəsinə yönəldilir. Xüsusilə, orta məktəb ədəbiyyat dərsliklərində əsərin əsas süjet xətti əsasında ixtisar olunaraq tədris edilməsi idealoji məqsəd daşıyırdı.

Orta məktəb şagirdləri üçün yazılan ədəbiyyat dərsliklərində "Qaraca qız" povestinin 1934-cü ildə dəyişdirilərək nəşr edilən variantı əsas götürülməklə süjet xəttini izləyən epizodlar təfərrüatlardan təmizlənərək hekayə adı ilə tədris proqramına daxil edilmişdir. On illərlə "Qaraca qız" povesti janr və ideya baxımından yanlış təbliğ olunur. 2013-cü ildə IV sinif Azərbaycan dili dərsliyinə daxil edilən "Qaraca qız" bir daha "qayçıya" məruz qalır. Bu dəfə artıq dərslik müəllifləri haqlı olaraq milli kimliyimizə atılan böhtanın, milli varlığımıza kölgə salan yalanların qarşısını almaq üçün bəy-mülkədar zülmünü əks etdirən epizodları əsərin mətnindən kənarlaşdırırlar. Lakin bu dəyişikliyin də "Qaraca qız" əsərinə bir dəyər qazandırdığını söyləmək mümkün deyildir. Bədii əsər təhriflərə uğradıqca mahiyyətini uturmaya məhkumdur. Necə ki, hətta yazıçının özünün şəxsən əsərin üzərində dəfələrlə işləyib yeniləməsi zamanı sonrakı variantlarda əmələ gəlmiş məntiqi pozuntuları aydın görmək olur. Azərbaycan dili dərsliyinin "Dostluq" bölməsinə daxil edilən "Qaraca qız"ın üzərində bir əsrə yaxın aparılan siyasət, sözsüz ki, əsəri öz ilkin mənşəyindən uzağa saldıqca bəsitləşdirmək, mənasızlaşdırmaq kimi təhlükəli aqibətlə nəticələn-

dirməkdədir. Ədəbiyyatımızın məruz qaldığı bu təcavüzün qarşısını yalnız əsərin ilkin variantını bərpa etməklə almaq mümükündür.

Süleyman Sani Axundovun "Qaraca qız" əsərinin yazıçının öz iradəsi daxilində yazılmış və "Məktəb" jurnalının 2013 –cü il, 1-22-ci nömrələrində yayınlanmış variantının 1927 və 1934-cü illərdə "Qaraca qız" povestinin süjet və fabula baxımından dəyişdirilməsi əsərin ideya istiqamətinə cddi təsir göstərmişdir. Hətta ilk variantında romantik-idealist bir əsər kimi qələmə alınan povest ikinci mərhələdən etibarən realist əsərə çevrilmişdir. Povestin hər üç variantının dil və üslub xüsusiyyətlərini saxlamaqla tam mətnini geniş oxucu auditoriyasına təqdim etməyi məqsədəuyğun hesab etdik.

Вторникъ. 22 Октября 1913 г. (3-й годъ изданія.) ذی‌الحجه ۱۳۳۱ ـ ۲۲ اوکتیابر ۱۹۱۳

نومرو ۱۵

قیمتی ۱۲ قپك

№ 15

Цѣна 12 к.

مکتب

МЕКТЕБЪ—ШКОЛА.

Выходитъ два раза въ мѣсяцъ.

هر اون بش گونده بر دفعه نشر اولنان اوشاقلره مخصوص مصور، ادبی، فنی، علمی مجموعه‌در.

إختلاف قبله‌گاه آثار قوجالیدر.

زیرا او، بیر وفالو مروت اوجالیدر.



QARACA QIZ

("Məktəb" jurnalı, 1913-cü il, №- 1 - 22)

Axşam çay süfrəsində əyləşən zaman Hacı Səməd qızı Fatimənin başını sığallayıb dedi:

- Qızım, söylə görək məktəbdən nə tazə xəbər gətirmisən?

Fatimə:

- Ata, bu gün dərs arasında həyətdə dəstə-dəstə olub qar ilə oynayırdıq. Gövhər, Zeynəb və Səltənət bir dəstə olub, qardan adam yapırdıq. Nabat da istədi biz ilə oynasın, mən razı oldum, amma yoldaşlarım razı olmadı. Nabat çox çirkin və gözləri də çəp olmağa görə heç kəs onun ilə dostluq etmiyordu; ələlxüsus, Gövhər onu sevmiyordu. Nabat kənarda durub bizə məzlum-məzlum baxıyordu. Birdən Gövhərin ayağı sürüşüb yerə yıxıldı və başı daşa dəyib qanadı. Bunu görcək hamıdan tez Nabat Gövhəri qucaqlayıb gözləri yaşlı dedi:

- Ağlama, bacım, qoxma, heç zad olmaz.

Gövhər bunu görüb dedi:

- Ah, sən nə gözəl yoldaşmışsan! Mən bilməmişəm, əfv et! Bunu deyib Nabatı qucaqladı və öpdü. Bu ittifaq bizə çox artıq təsir etdi.

Hacı Səməd dedi:

- Qızım, insanın zahirinə baxma, batininə bax! Türkdə bir məsəl var, deyərlər ki, "Ətə baxma, dona baxma, içindəki cana bax!" İndi Qaraca qızın hekayəsini söylərəm, özün görərsən. Atalarından bunu eşitcək bacı və qardaş sevinə-sevinə nağıla müntəzir dayandılar. Hacı Səməd ruznaməni yerə qoyub çeşməyi gözlərindən çıxartdı və başladı:

- Qızım, Qafqaz şəhərlərinin birində usta Səttar adlı bir sərrac öz arvadı Şərəf Nisa ilə yaşıyor idi. Bunlar İran əhli idilər, öz vilayətlərində məişətləri məşəqqət ilə keçməgə görə vətənlərini buraxıb buraya gəlmişdilər. Usta Səttar sərraclıq edib külfətini birtəhər dolandırırdı. Usta Səttarın övladdan yalnız altı yaşında Tutu adlı bircə qızı var idi. Tutu çox qara və çirkin idi. Anası ona körpə vaxtından "Qaraca qız" deyib çağırdığına görə əsl adı unudulub, hər kəs onu bu ad ilə çağırırdı. Qaraca qız çox nadinc idi və özü qız taifəsi ikən qızlar ilə oynamağı sevməzdi. Həmişə oğlan uşaqları ilə oynayardı. Uşaqlar Qaraca qızdan qorxardılar; çünki o, çox cürətli idi və yumruğunun da qabağında heç kəs dura bilməzdi. Qaraca qız həmişə zəifin tərəfini dutar idi. Qaraca qızı ata-anası nadincliyi üçün nə qədər döyərdilərsə də, əsla ağlamazdı. Anası ondan qonşulara şikayət edib deyərdi:

- Qaraca qızı su batırmaz, od yandırmaz.

Amma bunun ilə belə Qaraca qız çox rəhimli, səxavətli qız idi: hər nə əlinə düşsə idi, yoldaşları ilə bölüşərdi.

Usta Səttar sakin olduğu şəhərdə tez-tez zəlzələ olardı. Bir qış haman şəhərdə böyük zəlzələ olub, çox ev uçurdu. Bir dəfə zəlzələ gecə yarısı xalq şirin yatan zaman ittifaq düşdügünə görə çox adam çökmüş evlərin altında qalıb tələf oldu. Səhər açıldıqda ətraf və əknafdan xəlq

tökülüb şəhərə köməgə gəldi. Adamlar dəstə-dəstə əllərində kürək, bel, külüng, uçuqları qazmağa başladılar. Ata oğulu, *oğul atanı, qardaş bacını səsləyə-səsləyə* daş toprağı ayırırdılar. Bir dəstə də usta Səttar olan evi qazırdı. əvvəlcə Şərəf *Nisanın, bunu dalınca usta Səttarın meyiti* çıxdı. Bir az da qazandan sonra bir deşik açıldı, buradan bir balaca qız, üst paltarsız sıçrayıb çıxdı. Bu qız haman Qaraca qız idi. O, ata-anasının meyitini görüb ağlamağa başladı. Hər kəs öz qohum əqrabasını aramağa məşğul olub, Qaraca qızın qeydinə qalan yox idi. Zəlzələ ittifaq düşəndən iki gün qabaq bir dəstə qaraçı bu şəhərin kənarında çadır qurub düşmüşdü. Haman dəstədən bir qaraçı arvadının Qaraca qıza yazığı gəlib çadırlarına apardı və orada ona yemək və paltar verib ocağın qırağında oturtdu. Qaraçılar Qaraca qızın yetim qalmağını və onun burada heç bir kəsi olmayıb qərib olduğunu bilib öz yanlarında saxlamağa naçar qaldılar. Qaraca qızı qızlığa götürən qaraçı arvadı Yasəmən igirmi yaşında gözəl camallı, yumşaq təbiətli şad yürəkli bir cavana idi. Xasiyyəti cəhətinə Yasəməni hamı sevərdi, amma onun əri Yusifi heç kəs sevməzdi, çünki o, çox bədxasiyyət, tündməcaz, zalım bir şəxs idi. Yasəmən fala baxmaq ilə qaval çalıb oxumaq və oynamaq ilə pul qazanıb dəstəyə xeyli mənfəət verərdi. Yusif də ayı oynadıb qapı-qapı gəzərdi. Yasəmən Qaraca qızı çadıra gətirən zaman əri Yusif orada yox idi, çünki dəstənin bir hissəsi onun ilə bərabər sübh tezdən buradan çıxıb yola düşmüşdülər. Yerdə qalanları getməyə yığışırdı. Yasəmən ərindən çox qorxurdu, ona görə bilmirdi ki, əri Qaraca qızı qəbul edəcək, ya yox. Bunun üçün Yasəmən iztirabda idi.

Qaraçı dəstəsinin yerdə qalnı da yola düşdü.

Yasəmənin iztirabı bihudə deyil imiş; *çünki dalda qalan dəstə gəlib qabaqdakına* çatdıqda Yusif əhvaldan xəbərdar olub çox hirsləndi və bir kəndə çatan kibi *Qaraca qızı orada atmağına* söz verdi. Yasəmən ərinə yalvardı ki, o, böylə işi etməsin, lakin Yusif ona qulaq asmadı. Qaraca qız isə yüragində bu işə şad idi; çünki Yusifdən qorxurdu və qorxmağa da haqqı var idi: Yusifin heybətli sifəti və ələlxüsus qara və parlaq gözləri nəinki uşağı, hətta böyük adamı da qorxuya salırdı. Yasəmən ərinin tamahkarlığını bilirdi, ona görə gələcəkdə Qaraca qızın onlara böyük mənfəət verməyini söylədi:

- Bilirsənmi mən nə fikirdəyəm? Mən Qaraca qıza mahnı oxumaq, özüm kibi oynamaq öyrədəcəgəm və o üst başını bəzəyib, kəndlərdə, şəhərlərdə oynadacağam. Sənin üçün pul yığacağam.

Bu fikri Yusif bəyənib Qaraca qızın dəstədə qalmasına razı oldu. Bivətən qaraçıların məişətini Qaraca qız çox bəyəndi, bu gün burada, sabah bir tazə yerdə, çay qırağında, meşə kənarında mənzil edib çadır qurma, ocaq çatıb xörək bişirmə, bir yerdə mahnı oxuma, nağıl söyləmə, bunların hamısı Qaraca qıza çox xoş gəlirdi. Əvvəl vəqtlər Qaraca qız Yusifin ayısından qorxurdu, amma sonralar öyrənib, onun ilə çox dost olmuşdu. Ayı da onun ilə oynamağı sevirdi. Yasəmən Qaraca qızı, ərinə söz verdiyi kibi, yaxşı geyindirib, oxumaq və oynamaq öyrətmişdi. Tamaşaçılar Qaraca qızın gözəl səsinə və oynamağına təəccüb edib heyrətdə qalırdılar. Qaraca qız balaca qavalını açıb tamaşaçılara tərəf dutanda dərhal onun üçün pul ilə dolurdu. Bu isə Yasəməni artıq şad edirdi. Yusif bu

barədə arvadından və Qaraca qızdan razı idisə də, yenə hər ikisini xasiyyətinin pisliyindən çox incidərdi.

Qaraca qızın təbiətində inadcıllıq var idi. Bu xasiyyətinə görə Yusifdən nə qədər kötək yeyirdisə də, yenə tərsliyindən əl götürməyirdi. Qaraca qız ancaq Yasəmənin sözündən heç vaxt çıxmıyordu. Çünki Yasəmən onunla çox məhəbbət və mehribanlıq ilə dolanıyordu. Yusif Qaraca qızın tərsliyinə təəccüb edib arvadına diyordu:

- Bu zorbalıqda ayı bənim qamçımın qorxusundan hər cür oyun çıxardır, amma bu balacalıqda qızın əlində aciz qalmışam!

Yasəmən ona böylə cavab veriyordu:

- Bunun səbəbi odur ki, ayı heyvandır, bu isə insandır!.. Heyvan ilə edilən rəftar insan ilə ediləməz. Heyvana yoğun çubuq lazım isə, insana məhəbbətli rəftar, dadlı və mehriban söz lazımdır!

Cahanda qafil olmuşam,
Zəlil, cahil olmuşam,
Avam qoymuşam səni,
Bağışla, sevgilim, bəni!..

Yusif arvadının bu doğru sözünə inanmayıb diyordu:

- Yox, bu bir səbəb deyildir, sən olmasan, bən onu iki günün ərzində mum edərəm! Ər ilə arvadın arasında böylə söhbətin nəticəsi o olardı ki, Yusif Qaraca qızı daha da artıq kötəklərdi.

Qaraca qız bu zülmdən xilas olmaq üçün neçə dəfə qaçmaq fikrinə düşmüş idisə də, yenə axırda ancaq Yasəmənin xatiri üçün fikrini əmələ gətirməmişdi.

Bir ildən artıq idi ki, Qaraca qız qaraçı dəstəsində yaşayıb, mahnı oxumağı və oynamağı ilə ətrafda məşhur olmuşdu. Hər kəs Qaraca qızın oxumaq və oynamasını bəyənib, tərif edərdi. Yusif Qaraca qızı çox incidəndə Yasəmən onu qorxudub diyordu:

- Bu zavallı qıza nə çox əziyyət verirsən?! Axırda bu qız səni qoyub qaçar və sənin də əlin böylə böyük mənfəətdən çıxar.

Bu sözlər həmişə Yusifə təsir edib, Qaraca qızı bir müddət döyülməkdıən çəkinərdi.

Yayın orta ayı idi. Günün istisində insanlar, heyvanlar, quşlar cümləsi kölgə yer və sərin su arayırdılar. Qaraçı dəstəsi bir dağ üzərindən axan çayın kənarında çadırlarını qurub, mənzil etmişdi. Günorta vaxtı idi. Qaraçıların hamısı bir işə məşğul idi. Yusif ayısını götürüb yavuq kəndə getmişdi. Yasəmən çayın qırağında su qızdırıb, paltar yuyurdu. Çay dağ döşündən gəldiginə görə xeyli iti və səs ilə axırdı. Amma suyu az olduğundan Qaraca qız üçün qorxusu yox idi. Yasəmən paltarı yuyub kolların üstünə sərdi ki, qurusun; özü də başını yumaq fikri ilə uzun və qara saçlarını hörükdən açıb döşünə tökdü. Yasəmən Qaraca qızı səslədi ki, gəlib onun başına su töksün. Qaraca qız iki arşın ucalıqdan tökülən şəlalənin altında durub çimdiginə görə Yasəmənin səsini eşitmədi. Bir azdan sonra Yasəmən Qaraca qızı bir də çağırdı, bu səfər də cavab almadı. Yasəmən saçlarını döşündən yığıb belinə atdı; bu *halda qulağına çay tərəfdən sel gurultusu* gəldi. Bunu eşitcək Yasəmən dik atılıb çaya tərəf yügürdü. O vaxt Qaraca qız *hələ şəlalənin altındaydı*. Yasəmən çayın yuxarısından daşları və kolları yumalaya-yumalaya, gurultu və nərilti ilə gələn seli görüb, var gücü ilə qışqırdı:

- Bacım, tez ol qaç, sel gəlir!

Qaraca qız Yasəmənin səsini eşidib, şəlalənin altından çıxdı, ancaq bir neçə

addım qoymuşdu ki, sel onun üstünü çəllad kibi aldı. Yasəmən işi böylə gördükdə alıcı quş kibi özünü çaya atdı. Yasəmən özünü Qaraca qıza yetirincə sel qızı götürdü və bir neçə saniyə suda itirdi. Bir az sonra qızın başı göründü. Yasəmən özü də bir neçə dəfə suya batıb çıxandan sonra üzüb Qaraca qıza çatdı və saçlarından dutub çiyninə aldı. Hərçənd Yasəmən çox yüzücü idi, amma bu iti axan, daşları, böyük kolları yumalayan seldə üzmək mümkün deyil idi. Qaraçılar Yasəmənin qışqırığını eşidib köməyə töküldülər; sel getdikcə artırdı. Axırda sel bunları bir böyük daşa çırpdı. Qaraca qız Yasəmənin əlindən çıxıb daşın üstündə qaldı, amma onun özünü sel götürüb yüzü aşağı axıtdı. Qaraçılar suya tökülüb hər ikisini sudan kənara çıxartdılar. Bunların ikisi də bihuş qalıb, yerə sərilmişdi. Yüzlərinin rəngi ölü rəngi kibi idi. Qaraçılar xeyli çalışdıqdan sonra hər ikisini huşa gətirdilər. Qaraca qızın bədəni bir neçə yerdən daşlara dəyib qaralmış idisə də, bir qorxusu yox idi. Amma zavallı Yasəmənin başı bir neçə yerdən yaralanmışdı. Lakin rəhmdil olan bu cavan arvad özünə gələn kibi yaralarını unudub Qaraca qızı sordu. Qaraçılardan biri Qaraca qızı qucağına götürüb Yasəmənə göstərdi.

Bax, Yasəmən, budur, Qaraca qız sağdır, arxayın ol. Yasəmən –Allah, sənə şükür – deyib dua etdi. Sonra yenə bihuş olub, gözləri yumuldu. Qaraçılar Yasəmənin yaralarını sarıyıb Qaraca qız ilə bir yerdə çadırlarına apardılar və hər ikisinə yer salıb rahət etdilər. Axşam Yusif gəlib evə çıxdı və yoldaşlarından bu xəbəri eşidib, çox qəzəbləndi və dedi:

- Bən bilirdim ki, bu, uçuqdan çıxmış qız axırda bizim başımıza bəla gətirəcəkdir! Qaraçılar Yusifi sakit edib dedilər:

- Allahın köməkliyi ilə heç zad olmaz. İmdi hər ikisinə rahətlik lazımdır; durun bayıra çıxaq ki, səs-küy olmasın. Burada yalnız Yasəmənin sevdiyi Hüsniyyə qalar. Hüsniyyəyə yüzlərini tutub dedilər: - Hüsniyyə, sən qal, bunlara qulluq et! Qaraçıların cümləsi Yusif ilə bərabər bayıra çıxdılar, çadırda ancaq təkcə Hüsniyyə qaldı. Bu Hüsniyyə Yasəmənin istəkli dostu və həmsirri idi. Qaraca qız tamam gecəni ufultu və zarıltı ilə keçirib sübhə yavuq yuxuya getdi, amma Yasəmən qızdırma içində sərsəm edərək bir dəqiqə rahət olmadı.Vəfalı Hüsniyyə rəfiqəsinin yanını kəsdirib, səhərə kibi gözlərini yummadı. Yasəmənin qızdırması getdikcə artırdı. Səhər açıldıqda hərarəti 40 dərəcəyə çatdı. Zavallı Yasəmən qızdırmanın əsərindən tora düşmüş quş kibi yerində çabalayırdı. Yasəmənin gözləri həmişə yumulu idi.

Gecə yağış yağmağa görə səhərin havası çox saf və təmiz idi. Dünənki bəlanı törədən çaylağın suyu imdi enib əvvəlki halına düşmüşdü. Onun həzin şırıltısı, quşların cəhcəhi və gülqüləsinə qarışmışdı. Qaraca qızın sevgili şəlaləsi günün şöləsindən parıldayırdı. Axırda Yasəmən gözlərini açdı. Biçarənin lalə kibi yanaqları solub, zənbəq rənginə düşmüşdü. Yasəmən Hüsniyyəni tanıdı. Zəif səs ilə ona dedi:

- Hüsniyyə, Yusif haradadır?

Bayırdadır, bacım, çağırımmı?

Çağır, hamını çağır... Ölürəm...

Qorxma, bacım, ölməzsən, bu gün haradan olmuş olsa, sənin üçün həkim tapıb gətirdəcəgəm! – bunu deyib Hüsniyyə bayıra çıxdı və bir azdan Yusif başqa qaraçılar ilə bərabər içəri girdi. Qaraçılar Yasəmənə yürək verirdi. Yasəmən dedi:

- Yox, əzizlərim, bən ölürəm!.. Yusif, əlini bənə ver!.. Vəsiyyətimə qulaq as... Əmələ gətirməyə söz ver!..

- Bir az dayanıb, yenə tazədən başladı:

- Yusif, budur, dörd ildir ki, sənə övrətəm! Bu vəqtə kibi səndən dögüşdən, sögüşdən başqa bir şey görmədim... Cavan ömrümü çürütdün... Bənə bin zülm və cəfa etdin. Bunların hamısını sənə halal edirəm! Ancaq sən də bənə söz ver ki, bundan sonra Qaraca qız ilə mehriban dolanıb, onu incitməyəcəksən!..

- Yasəmən səsini kəsdi. Çadırda bir müddət xamuşluq oldu. Sonra Yusif dedi:

- Bu yoldaşlarımızın hüzurunda vəsiyyətini yerinə yetirməyimə söz verirəm, övrətim! Sən bəni bağışla, sənə çox əziyyət vermişəm!

Bu sözlərdən Yasəmənin üzü şad oldu və Hüsniyyəyə dedi:

- Bacım, Qaraca qızı sənə və səni də Allaha tapşırıram. Ondan müqayyəd ol!..Ah! Gözlərimə qaranlıq çökür!.. Boğurlar... Yusif.. Hüsniyyə... Qaraca qız!..

Yasəmən canını Xudayaya təslim etdi.

***

Yasəmənin vəfatından sonra Yusif arvadına verdiyi əhdə bir müddət vəfa etdi, amma sonra təbiətində qoyulmuş fəna sifətləri yenə aşkar olmağa başladı. Hüsniyyə bacardığı qədər Qaraca qızı Yusifin zülmündən mühafizə edirdi. Ancaq iş orada idi ki, Yusif Yasəmənin vəfatından sonra Qaraca qız ilə pul qazanmaq üçün hər gün səhər mənzildən çıxıb bir də axşam qayıdırdı. Hüsniyyə zavallı yetimin yüzünə baxanda sualsız da anlayırdı ki, o biçarə Yusifdən nə zülm və əziyyətlər çəkir. Axır vaxtlarda Yusif bir pis əmələ də mürtəkib olmuşdu. Böylə ki, əlinə pul düşən kibi içib məst olurdu və hər kəs qabağına düşürdüsə, onun ilə söyüşüb, savaşırdı.

Yusifin böylə vaxtlarında Qaraca qızın günü daha da qara olurdu.

Bir dəfə Yusif və Qaraca qız yol ilə gedirdilər. Bunlar bir dəstə atlı cavan oğlanlara rast gəldilər. Bu cavanlar şəhərə toya gedirdilər. Bunlar Yusifgilə təklif etdilər ki, bir az çalıb oxusunlar. Yusif razı oldu. Qaraca qızın oxuyub-oynamağı cavanların o qədər xoşuna gəldi ki, onlar biri-birinin acığına Qaraca qızın qavalını ağ və qara pul ilə doldurdular və sonra: - Sağ ol, çox yaşa, Qaraca qız! – deyib atlarını sürdülər. Yusif çox şadlıq ilə Qaraca qızdan pulları alıb cibinə tökdü və dedi:

- Gəl, qızım, sən ayı ilə o kölgədə əyləş, bən də gedim o görünən kəndə çörək və sənin üeçün də fındıq və kişmiş alım.

Bu xəbərdən Qaraca qız əsla şad olmadı. Bilirdi ki, bu görünən kənd erməni kəndidir və Yusif də oraya içməgə gedir. Amma bunun ilə böylə bir söz demədi.

Bunlar yoldan kənara çıxıb bir kolluğa tərəf yüz qoydular. Yusif bir böyük kol seçib ayını oraya bağladı və Qaraca qıza dedi:

- Otur burada, ağıllı qızım! Bu saət gələcəyəm. Yusif getdi.

Qarca qız da kölgədə uzandı və bir azdan sonra şirin yuxuya getdi. Ayı bir müddət sakit uzandı, sonra durub zəncirini dartmağa başladı. Kolun budağı ayının gücünə davam etməyib qopdu. Ayı özünü asudə görüb bir müddət kolluqda gəzdi, sonra yüzünü meşəyə tərəf dutub getdi. Yusif kəndə getdiyi vaxtdan yarım saət keçmişdi. Qaraca qız yuxudan hələ oyanmamışdı. Axırda Yusif məst halında o tərəf bu tərfə yırğalana-yırğa-

lana gəlib çıxdı. Yusif Qaraca qızı yatmış görüb və ayını öz yerində tapmayıb ayağı ilə Qaraca qızı öylə bərk vurdu ki, yazıq qız dik ayıldı.

- De görüm, ayı hanı, mürtəd qızı, mürtəd?

Qaraca qızın qorxudan dili dutuldu, cavab verə bilmədi.

- Hələ dayan! Qoy ayını tapım, sənin payını sonra verəcəgəm!

Yusif kola diqqət ilə baxıb gördü ki, ayını bağladığı budaq qopub və özü də yoxdur. Anladı ki, ayını oğurlamamışlar, özü kolu qoparıb meşəyə qaçmışdır. Bu vaxt yüzünü Qaraca qıza tərəf dutub dedi:

- Düş qabağıma, ayı meşəyə qaçmışdır, gedək tapaq!

Qaraca qız titrəyə-titrəyə yola düşdü. Yusif yol uzunu gələ Qaraca qızı söyüb qorxudurdu, gah da özü –özü ilə danışırdı. Bunlar bir saətə qədər meşəni dolandılar, amma ayıdan bir əsər görmədilər. Birdən Qaraca qızın qulağına ayının bağırtısı gəldi.

- Eşidirsinizmi, əmi, bu tərəfdən ayının bağırtısı gəlir!

- Heç zad eşitməyirəm, yalan deyirsən!

- Bax! Bax! Yenə bağırır!

Bu dəfə Yusifin özü də eşitdi.

- Doğru deyirsən, bağıran ayıdır!

Hər ikisi səs gələn tərəfə yüz dutub getdilər; ancaq səs meşəyə düşməyə görə ayının yeri yavuq görünürdü, amma həqiqətdə böylə olmayıb, ayı xeyli uzaqda idi. Axırda gəlib ayını tapdılar. Ayı zənciri ilə ağaca dolaşıb dartınırdı və bağırırdı. Yusif ona çatan kibi hirsindən və acığından ayını azad etməmiş əlindəki ağacı ilə onu dögməgə başladı. Ayının bağırtısı meşəni başına götürdü. Axırda ayı dartındığı halda xaltası başından çıxdı və ildırım kibi özünü Yusifin üstünə atdı. Bir dəqiqə keçmədi ki, qızmış ayı sahibini parçaladı. Qaraca qız bunu gördükdə dəhşətli bir hal ilə qaçdı. Amma qorxudan özünü itirib yol əvəzinə meşənin ortasına tərəf qaçdı. Bir azdan sonra ayı Yusifin meyitini buraxıb Qaraca qızın dalınca düşdü. Bunu gördükdə zavallı qızın bədəninə titrəmə düşdü və var gücü ilə qaçmağa başladı. Getdikcə ayı Qaraca qıza yavuqlaşırdı. Bu halda Qaraca qızın qabağına bir uçurum dərə çıxdı. Qaraca qız dərədən endikdə ayı özünü ona çatdırdı. Ancaq ayı eniş aşağı qaça bilmədiyindən dərənin içinə yumbalandı. Qaraca qız fürsət tapıb özünü dərənin döşündəki mağaraya saldı. Bu mağaranın ağzı enli idi, amma içəri getdikcə daralırdı. Ayı dərənin dibinə kibi yumbalandı. Sonra ayağa qalxıb yüzü yuxarı dırmaşmağa başladı. Məlumdur ki, ayının dal ayaqları qısa olduğundan enişi pis və yoxuşu qüvvəli dırmaşırlar. Ayı axtarıb mağaranı tapdı və içinə girdi. Qaraca qız sürünə-sürünə özünü mağaranın dar bir yerinə saldı. Ayı isə onu bacarmadı və bir az donquldayıb mağaranın ağzında yatdı. Qaraca qız tərpənməyə də qorxurdu, ancaq onun qorxusu nahaq idi, çünki imdi ayının hirsi yatmışdı, ona dəyməzdi və bəlkə də onun orada olmasına şad olardı.

İki saətdən artıq idi ki, Qaraca qız mağaranın içində yatıb qalmışdı. Biçarə qız ayının qorxusundan özünü mağaranın deşiyinə öylə pərçim etmişdi ki, tərpənməyə də amanı yox idi. Bir tərəfdən mağaranın içindəki havanın azlığı, digər tərəfdən də ayının vahiməsi zavallı qızı bihuşluq halına salmışdı. Ayı isə fısıldaya-fısaldaya yatmışdı. Birdən ayı oyanıb donquldamağa başladı, bu halda Qaraca qızın qulağına çoxlu it səsi gəldi. Ayının da donqultusu artdı. Çox çəkmədi

ki, itlər hürə-hürə mağaranın ağzını aldılar. Ancaq cürət edib içəri girə bilmədilər. Bir azdan atlı ovçular da qışqıra-qışqıra gəlib çıxdılar. Bunlar mağaranın içindən ayının bağırtısını eşidib tüfənglərini hazırladılar və itləri içəri qısqırtdılar. Onlardan bir neçəsi cürətlənib mağaranın içərisinə girdi. Ancaq çox çəkmədi ki, yenə zingildəyə-zingildəyə geri qayıtdılar. Onlardan bir-ikisi yaralanmışdı. Bu halda Avçılar bayırdan:

- Axdar, bas! Xallı, bas! Gümuş, bas! – deyə itləri qısqırdılar. Onlar da cürətlənib, yenə özlərini içəri soxdular və ayı ilə dutaşdılar. Ayı bir müddət bunlar ilə boğuşandan sonra mağaradan sıçrayıb çıxdı. Bu halda üç güllə birdən onun üzərinə açıldı. Bunlrın zərbindən biçarə ayı boğanaqdan yıxılan ağac kibi yerə sərildi. Bu halda bir adam qışqırdı:

- Afərin, bənim gülləm!

- Xeyr, Hüseynqulu ağa, səhv etmə, ayını öldürən bənim gülləmdir.

- Bağışla, Səlim bəy, bən ayını başından atmışım. Yəqin ki onu yıxan benim gülləmdir!

- Səbr edin, əzizlərim! Bu saət məlum olar. - Bunu deyib əvvəlki adam atdan düşdü və nökərlərin köməgi ilə ayının cəmdəyini o yana-bu yana çevirdi və diqqət ilə baxmağa başladı. Sonra da dedi:

- Əzizlərim, heç bəhs etməyin, üçümüzün də gülləsi ayıya dəymişdir!

Sonra yüzünü nökərlərə tərəf dutub dedi:

- Cəld olun, ayının dərisini soyun!

Üzünü Rəhim bəyə çevirdi:

- Rəhim bəy, demədimmi ki, ayısız bu ovdan qayıtmayacağam? Öylə öz meşənizi tərif edib bəni məsxərə edirdiniz ki, sizin meşənizdə dovşan da tapılmaz! Pəs bu nədir?

Bu halda Rəhim bəy ayıya diqqət ilə baxdıqdan sonra dedi:

- Yenə, Hüseynqulu ağa, öz fikrimdə möhkəm durmuşam! Bu ayı meşə ayısı deyil, əldə bəslənmiş ayıdır.

- Öylə iş ola bilməz! Onu haradan bildin?

- Budur bax, ayının boynunun tüklərini zəncir aparmışdır, Səlim bəy, gör doğru diyorum, ya yox.?!

Səlim bəy baxıb Rəhim bəyin sözünü təsdiq etdi. Biundan sonra bəylətrin hər ikisi qaqqıltı ilə gülməyə başıladı. Hüseynqulu ağa əvvəl dostlarının sözünü zərafət hesab etdi, amma sonra özü də diqqət ilə baxıb şəkkə düşdü. Bu halda həvəslənib av itlərinə qoşulan Hüseynqulu ağanın Qara köpəyi mağaraya girdi, bunun dalınca başqa itlər də getdilər və yenə içəridə hürüşmə başladı. Bunu gördükdə Hüseynqulu ağa dedi:

Deyəsən, mağarada yenə ayı var?

Bəylər tüfənglərini hazırlayıb mağaranın ağzını kəsdirdilər. Bu halda Qara Köpək Qaraca qızın ayağından dutub itlərin arasından onu sürüyə-sürüyə mağaradan bayıra çıxartdı. Bəylər bunu gördükdə təəccüb edib heyrətdə qaldılar.

Qara köpək Qaraca qızı buraxdı, amma o, hərəkətsiz qalıb ayağa qalxmadı. Bəylər dərhal Qaraca qızın üstünü aldılar. Hüseynqulu ağa Qaraca qızı qaldırıb qucağına aldı. Qaraca qız zəif hal ilə gözlərini açdı. Hüseynqulu ağa ondan soruşdu:

- Qız, sən kimsən? Bu mağarada nə qayırırdın? Qaraca qız bu suallara cavab vermədi. Rəhim bəy dedi:

Hüseynqulu ağa, görməyirsənmi, yazıq qız hələ lazımınca özünə gəlməmişdir? Nə sual edirsən? Bən əhvalatı onsuz da anlayıram. Qızın sifətindən və libasından

görməyirsənmi qaraçı qızıdır? Bu av etdiyimiz ayı da əldə bəslənmiş qaraçı ayısıdır. Ancaq sahibi haradadır? Yalnız burası benim üçün aşkar deyildir.

Rəhim bəyin fikrinə Səlim bəy dəxi şərik oldu.

Bəylər Qaraca qızı nökərlərinə tapşırıb yenə av etməyə başladılar, amma dörd saata qədər meşəni dolanıb, bir tülkü və iki dovşandan başqa əllərinə bir av keçirə bilmədilər. Buna görə avı tərk edib mənzillərinə tərəf qayıtdılar. Qaraca qız özünə gəlib yol uzunu başına gələn əhvalatı alayarımçıq nəql elədi. Hüseynqulu ağa Qaraca qızın ata-anasız bir yetim olduğunu bilib onu özü lə evinə saxlamağa apardı.

***

Hüseynqulu ağa qırx yaşında böyük bir mülkədar idi. On üç yaşında ikən atası Megdi ağa onu bir növ ilə edadi "realni" məktəbinə qoya bilmişdi; amma Hüseynqulu ağanın fikri həmişə at binmədə, ava çıxmada olub, oxumaq ilə əsla arası yox idi. Hər il o sinifdə, bu sinifdə qala-qala bir növ ilə dördüncü sinfə çıxa bilmişdi. Daha bundan yuxarı bir sinfə keçə bilməyib məktəbdən xaric oldu. Atası bu işə çox da qəmgin olmadı, çünki onun çox dövləti və varı var idi. Edadi məktəbini qurtarandan sonra atası oğlunu oxutmaq fikrində yox idi. Mehdi ağanın Hüsenqulu ağadan başqa bir oğlu yox idi. Hüseynqulu ağa oxumağa fikir verməyir idisə də, çöl işlərində çox qoçaq idi; odur ki, atası onu daha oxutmaq fikrində olmayıb çöl işlərinə onu mühəvvəl etdi. Azuqətdə Hüseynqulu ağa yaşının azlığına baxmayıb çöl işlərini parlaq bir surətdə əmələ gətirirdi. Atası oğlunun bu məharətini görüb bütün işlərini idarə etməyi ona tapşırdı. Hüseynqulu ağadan bütün qulluqçuları və rəiyyətləri qorxur idi. Çünki o, çox tünd adam idi, amma bunun ilə böylə Hüseynqulu ağa çox rəhmdil idi. Hüseynqulu ağa zəhməti çox sevdiyi kibi, yoldaşları ilə keyf çəkməyi də çox sevərdi. Atası Hüseynqulu ağanın kef çəkməyindən xoşlanmayırdı, çünki qorxur idi ki, bunun axırı çox fəna bir surətdə nəticə versin; ona görə də Mehdi ağa oğlunu evləndirmək fikrinə düşdü.

Bu fikrini Mehdi ağa tez əmələ gətirdi. Edadi məktəbini qurtarmış, gözəl bir tərbiyə görmüş, bir bəy qızını oğlu üçün aldı. Mehdi ağanın fikri düz də çıxdı. Hüseynqulu ağa evləndikdən sonra artıq yoldaşları ilə həva-həvəs və keyfə məşğul olmayırdı. Ancaq yoldaşlarını öz evinə çağırıb qonaqlıqlar edərdi.

***

Mehdi ağa Hüseynqulu ağanı evləndirdikdən bir il sonra vəfat etdi. Hüseynqulu ağa ilə arvadı Pəricahan xanımın xasiyyətləri biri-birinə dutmayırdı. Pəricahan xanım gimnaziya təhsilində cəmi Avropa adətlərini götürüb öz milli adətləri xoşuna gəlməyirdi. Hətta öz ana dilindən öylə ikrah etmişdi ki, bu dil ilə danışmaq da istəməyirdi və labüd qalıb danışanda da yarı rus, yarı türki kəlimələrini qarışdırıb danışmaqla qulaq asanları özünə güldürürdü.

Hüseynqulu ağa isə Avropa qaydalarını sevməyib, öz ata və baba adətlərini çox istəyirdi; hətta Pəricahan xanım nə qədər çalışdı isə də, ondan çərkəsi paltarı çıxarıb, Avropa libası geyindirə bilmədi. Pəricahan xanım Hüseynqulu ağanın evinə gələndən sonra köhnə qulluqçuları dəyişdirib evin hər bir qaydasını Avropa səliqəsinə saldı. Hüseynqulu ağa bu tazə

qaydaları sevmədiyi üçün vaxtının çoxunu kənddə qalıb şəhərdə az-az görünürdü. Çox danışıqdan sonra axırda Pəricahan xanımı razı edib kənddə öz mülklərinə köçürtdü. Bunu üçün də Hüseynqulu ağa nəhayət dərəcədə şad oldu, çünki şəhər yaşayışını o, əsla sevməyirdi.

Hüseynqulu ağanın mülkündəki evi qayət basəfa bir yerdə idi. Bu evin yanından çay axırdı və meşə də çox yaxın idi, dəmir yolu isə mülkün bir verstliyində idi. Burada da Pəricahan xanım şəhərdəki kibi, tazə qaydalar qoymağa başladı. Hüseynqulu ağa səhərdən axşama qədər mülk işləri ilə məşğul olub, onun işlərinə qarışmayırdı. Bu tövr ilə hər ikisi öz işlərinə məşğul olub ömür sürməyə başladılar. Ancaq bunların övladları durmayırdı, üç-dörd yaşına çatan kibi ölürdü. Ər-arvad arasında həmişə tərbiyə məsələsində höcət olurdu. Hüseynqulu ağa arvadının övladına verdiyi tərbiyəsini tənqid edib deyirdi:

- Sən bu kənd yerində yazıq uşağı quş kibi qəfəsə salıb evdən bayıra çıxmağa qoymayırsan, ona görə yazıq uşaq zəif qalıb balaca sayuq dəyən kibi azarlayıb xəstə olur. Axırda da ölür.

Pəricanah xanım isə bunun sözünə qulaq asmayıb bu barədə öz fikrindən daşınmayırdı. Hüseynqulu ağa arvadının öz fikrində artıq dərəcədə möhkəm durduğunu görüb axırda tərbiyə işinə bilmərrə qarışmadı. Bu vaxt Pəricahan xanımın altı yaşında Ağca xanım adlı bir qızı var idi. Bu yaşa gəlincə Ağca xanım Avropa qaydasınca tərbiyə almışdı; həmişə də yanında bonası olub yalnız onun ilə gəzməyə çıxırdı. Anasının hökmülə bonası onu kimsə ilə oynamağa, gəzməyə buraxmayırdı.

***

Axşam Hüseynqulu ağa öz dostları Rəhim bəy və Səlim bəy ilə bərabər düşmənə qalib gəlmiş sərəskər kibi kamal təntənə və şəşə ilə öz evinə varid oldu. Bunların pişvazına cəmi qapı xidmətçiləri çıxmışdılar. İtlərin hürməyi, avçıların səsi, nökər və mehtərlərin qışqırığı biri-birinə qarışmışdı. Ağca xanım səs və küyə bonasından iznsiz evdən çıxıb atasının qabağına yügürdü. Hüseynqulu ağa qızını qucaqlayıb öpdü və sonra Qaraca qızı göstərib dedi:

- Bax, qızım, sənin üçün oyun yoldaşı gətirmişəm. İmdiyə kibi yalnız qalmışdın, oynamağa yoldaşın yox idi.

Bu sözdən sonra Ağca xanım və Qarcaqa qız nəzərlərini biri-birinə salıb bir müddət diqqət ilə baxışdılar. Bu iki tifildə böyük bir təfavüt var idi: biri iki bəyzadədən törəmə bir nəcibə, o biri iki zəhmətkeşdən törəmə bir əyəl balası! Biri zəif, zərif, hər bir şeydə özgəyə möhtac olan bir tifil; o biri fulad kibi sağlam bədən, az sinində çox görmüş, öz zəhməti ilə məişət edən bir çocuq!Birinin baxışı sanki özgələri köməyə çağırırdı; o birinin nəzəri cümləni qovğaya çağırırdı.

Ağca xanım zərif əlini Qaraca qıza uzatdı, o da kobud barmaqları ilə onun əlini sıxdı. Ağca xanım bu siğdən qışqırdı, sonra güldü. Bir az keçmədi ki, şirin söhbətə başladılar. Hüseynqulu ağa bunları söhbətdə qoyub bəylər ilə otağa daxil oldu. Ağca xanım ilə Qaraca qızın söhbəti çox çəkmədi. Pəricahan xanım otaqdan nökər və qulluqçuların toplaşmasını görüb həyətə endi və qızını Qaraca qız ilə şirin söhbət edən görüb çox bərk acıqlandı və bonanı çağırıb dedi:

- Xanım əfəndi, harada qalmışsınız? Nə üçün öz vəzifənizi unudursunuz? Ba-

xınız, tərbiyə verdiyiniz qız kimlər ilə ülfət etmişdir? Otağına aparınız! Bu gecə şamsız qalacaqdır.

Bona zavallı Ağca xanımın gözü yaşlı əlindən dutub otağına apardı. Qaraca qıza da Pəricahan xanım – Dalımca gəl, qaraçı qızı! – deyib Hüseynqulu ağanın otağına apardı və rişxənd ilə dedi:

- Bu şahzadə qızını haradan tapıb gətirmisən, əzizim? Qızın ilə də tanış etmişsən!

Hüseynqulu ağa əhvalatı ona nəql edib dedi:

- Pəricahan xanım, qızına yazığın gəlsin. Gör yoldaşsızlıq yazığı nə hala salmışdır?! Qoy bu qız ilə oynasın, atlansın, qol-qanadı açılsın, bədəni bərkisin, keyfi açılsın! Bu qız qaraçı qızı deyildir, olsa da, nə eybi vardır? Bonası yanında olacaqdır. Bir pis iş edərlərsə, tənbih edib qoymaz!

Bu sözləri Pəricahan xanıma əsla təsir etmədi.

- Sən bənə söz vermişdin ki, tərbiyə məsələsinə qarışmayacaqsan. İmdi neyçün sözündə dəvam etməyirsən? Bu qız buradan gedəsidir. Artıq söz lazım degil.

Hüseynqulu ağa və bəylər Qaraca qız barəsində çox təvəqqe etdilər. Axırda Pəricahan xanım onun qalmasına razı oldu, bu şərtlə ki, Qaraca qız bağban Piri kişinin evində saxlanıb Ağca xanım ilə əlaqə etməsin, çünki ondan pis xasiyyət götürər.

Bu şərt qəbul olundu və Qraca qız da haman gecə Piri kişiyə tapşırıldı. Piri kişinin damxası ağalığın böyük meyvə bağının içində idi.

***

Piri kişi yetmiş yaşında bir qoca idi. Heç bir kəsi yox idi və özü də Hüseynqulu ağanın rəiyyəti olub cavanlığından Mehdi ağaya bağbanlıq edirdi. Həmişə bağda ömür sürüb ağalıq qapısına işi düşməsə, gəlməzdi. Özü də yumşaqtəbiətli bir şəxs idi.

Piri kişi Qaraca qıza çox şad oldu. Onun üçün komasında yer hazırladı. Və yedirdib rahət etdi. Qaraca qız yerə girib bir müddət yata bilmədi. Sonra Piri kişidən soruşdu:

- Baba, o xanım qızını bənim ülə neyçün oynamağa və danışmağa qoymayır?

- Qızım, onlar bəydirlər. Biz onların rəiyyətiyik. Onlar ağadırlar, biz nökər! Bizim ilə onların nə yoldaşlığı? Babacığım! Onların babalarına babam, atalarına atam qulluq etmişlər. İmdi də bən qulluq edirəm. Sən, qızım, Ağca xanımı yadından çıxart, o sənə yoldaş deyildir.

Qaraca qız bu sözlər ilə sakit olmayıb fikrə getdi: Bən Ağca xanıma nə etdim ki, anasının bənə acığı dutdu? Bu gecə ona yemək verməyəcəklər. Yazıq ac qalacaqdır! Anam sağ olanda bəni də ac qoyurdu, amma bən nadinclik edirdim. Bu ki heç zad etməmişdi.

Qaraca qız fikrini bir yerə çıxartmayıb yuxuya getdi.

O gecəsi haman fikirlər Ağca xanımı da sakit etməyirdi. Nə anasının, nə bonasının nəsihətini anlamayırdı: Nə səbəbə bən o qız ilə oynaya, danışa bilmərəm? Bən bəy qızı olanda nə olar? Bəni neyçün şamsız qoydular? Qaraca qız çox təəccüblü şeylər nəql edirdi. O deyirdi ki, sənə qaval çalmaq, oynamaq öyrədəcəgəm! Ah, anam bəni nə üçün qoymadı ki, onunla çoxluca danışım? Ağca xanım yorğanı başına çəkib, gizlicə ağlamağa başladı və bir azdan sonra yixiya getdi.

Piri kişi uşaqlıqdan gün çıxmamış yuxudan durmağa adət etmişdi. İmdi də tezdən dəstamaz alıb sübh namazını qıldı, sonra ocağı qaladı; Özü kibi ömrü keçmiş, hisdən qaralmış çaydanı su ilə doldurub ocağa qoydu və komadan çıxdı ki, bağı dolansın. Piri kişi bəslədiyi bağı əla dərəcədə sevərdi. Buradakı ağacların çoxunu özü öz əlləri ilə əkib pərvəriş verməklə imdiki halına salmışdı. O yerlərdə bitən bir meyvə ağacı yox idi ki, bu bağda olmayaydı. Piri kişi təcrübə edib bu bağda qələm vasitəsilə təbiətə müğayir öylə peyvənd etmişdi ki, bu iş cümləni heyrətə gətirirdi; bir əzgil ağacına qələm ilə alma peyvənd etmək ilə bir ağacda iki cür meyvə bitirirdi. Hüseynqulu ağanın bu bağı mülkədarlar arasında xeyli şöhrət qazanmışdı. Hüseynqulu ağaya bir qonaq gələndə cürbəcür ziraət maşinalarını qoyub qabağına, bağına tamaşa aparardı. Bağın böylə Cənnət kibi olmasına səbəb yalnız Piri kişi idi; buna görə də Hüseynqulu ağa onun xatirini çox istəyirdi: hər nə istəsə idi, dərhal əmələ gətirirdi. Piri kişi isə ondan ancaq bircə şey təvəqqe edirdi: Ağalardan başğa kimsə bağa girməsin. Hüseynqulu ağa da bu ixtiyarı ona vermişdi. Ancaq meyvə dərilən vaxt Piri kişi özünə köməkçi çağırırdı. Başqa vaxtlarda isə heç kəsi bağa qoymayırdı. Bağı oğrudan qorumağa Piri kişinin bircə köməkçisi var idi. O da Qaraca qızı mağaradan çəkib çıxardan Qara köpək idi. Qara köpək qayət heybətli və hünərli bir köpək idi. Onun qorxusundan heç kəs bağa dolana bilməyirdi. Bu köpəkdə bir qəribə hal var idi: Hər kəs ki Piri kişiyə bədxah idi, Qara köpək onu sevməyib yavuğa qoymayırdı. Piri kişi bir tazə şəxs ilə tanış olanda Qara köpək o adama quyruq bulayıb yavuqlaşsa idi, onu özünə xeyirxah hesab edirdi və hərgah o adama əvvəldən dişlərini ağardıb mırıldasa idi, onu özünə bədxah bilərdi. Qara köpəyin bu hissini Piri kişi kərrat ilə imtəhan etməyi üçün deyirdi: Dost və düçmənimi Qara köpək ilə tanıyırım. Piri kişi Qara köpəyi heç vaxt zəncirləməyirdi. Gecə və gündüz Qara köpək asudə idi. Bunun ilə böylə Qara köpək bağdan heç bir yerə getməz idi. Ancaq bəzi vəqt Hüseynqulu ağa ava gedəndə o da həvəslənib av tulalarına qoşulardı; bu vəqt onu geri qaytarmaq üçün gərək Piri kişi özü gələ idi, yoxsa heç kəsə qulaq asmazdı.

Bir dəfə Piri kişi komadan çıxanda yadından çıxıb qapını açıq qoymuşdu.

Bu halda Qara köpək içəri keçib evdə bir kəsi yatmış gördü, Qulaqlarını şəkləndib heybətli bir halət ilə o tərəfə yönəldi.

Sonra Qaraca qızı tanıyıb quyruğunu buladı və irəli gəlib yanında uzandı; sonra da Qaraca qızın əlini yalamağa başladı.

Bu vəqt Qaraca qız gözlərini açdı və hələ yuxulu olduğu üçün Qara köpəyi tanımayıb qışqırdı. Bunun səsinə Piri kişi cəld içəri girib dedi:

- Qızım, neyçün qışqırdın? Kimdən qorxdun?

- Baba, burada ayı var!

- Yox, qızım, Qara köpəkdir, qorxma, burada ayının nə işi var?!

Sonra Qara köpəyə:

- Çəkil! – deyib onu bayıra çıxardı.

- Yat, qızım, hələ tezdir!

- Yox, baba. Daha yuxum gəlməyir. Bən həmişə tez dururam!

- Çox yaxşı edirsən, adam gərək səhər tezdən dura ki, canı da səlamət ola. – bunu deyib Piri kişi çaydana çay atdı. Qaraca qız paltarını geyib dedi:

- Baba, əl-yüzümü harada yuyum?

Piri kişi dedi:

- Budur, komamızın yanında su axır, qızım, get orada yu!

Qaraca qız yüzünü yumağa getdi. Piri kişi də süfrəni salıb pənir, çörək və yağ qoydu; sonra da çaydandan iki fincan çay töküb süfrəyə qoydu. Və özü də əyləşdi. Bu vəqt Qaraca qız yüzünü yuyub içəri girdi.

- Al, qızım, yüzünü sil, əyləş çay içək.

Piri kişi Qaraca qıza yüzsilən verdi. Qaraca qız əl-yüzünü qurudub süfrəyə oturdu. Hər ikisi yeyib-içməyə məşğul oldu.

Çaydan sonra Piri kişi Qaraca qıza dedi:

- Dur, qızım, gün çıxmamış həm bağımızı gəzək, həm də ağalar üçün meyvə dərək. Piri kişi özü bir səbət götürdü və Qaraca qıza da bir cəvərən (ipli balaca səbət) verdi. Evdən bayıra çıxdıqda Qara köpək də onlara qarışdı. O, quyruğunu bulaya-bulaya Qaraca qıza yanaşdı. Qaraca qız onun başını sığallayıb cəvərəni boynundan asdı. Qara köpək başını bulayıb cəvərəni yerə saldı. Qaraca qız götürüb yenə boynuna keçirtdi. Qara köpək bu dəfə də başını əyib cəvərəni yerə saldı. Piri kişi dedi:

- Zəhmət çəkmə, qızım, Qara köpək azadlığa öyrənmişdir, o, təlimə yatmaz.

- Yox, baba, yatar: bir gör onu necə öyrədəcəgəm! – bunu deyib Qaraca qız Qara köpəyin qabağında çömbəldi və onun gözlərinə baxarkən cəvərəni yenə boynuna saldı.

- Qara köpəyim, ağıllı köpəyim, cəvərəni götür, köpəyim!

Qara köpək bu dəfə cəvərəni yerə salmadı və Qaraca qızın yüzünə baxa-baxa yanınca getdi.

O da sevinərək qışqırdı:

- Afərin, Qara köpəyim! Baba, gördünmü?

- Gördüm, qızım! Çox da təəccüb edirəm: Köpək bu qədər ildir ki, qapıda olur. Bəndən başqa bu günə kibi heç kəsin sözünə qulaq asmamışdır. İmdi isə hətta cəvərəni də aparır.

- Hələ bu nədir ki, baba, gör ona nələr öyrədəcəgəm! Mən qaraçı dəstəsində olan zaman ayını, meymunu və qeyri heyvanları öyrədəndə görmüşəm, ancaq gərək, baba, heyvanı əzizləyə-əzizləyə öyrədəsən. Yoxsa döymək ilə bir şey olmaz, amma qorxutmağın eybi yoxdur. Odur ki, Yusif ayını döydü, o da onu parçaladı.

Piri kişi Qaraca qızın əhvalatını müxtəsər eşitmişdi. İmdi isə Qaraca qızın kim olduğunu, bu vəqtə qədər nə tövr yaşadığını ona müfəssəl nəql etdirdi. Qaraca qızın yerəkyandırıcı faciəsindən rəhmdil Piri kişi xeyli qəmgin oldu və yüregində bu yetim çocuğa məhəbbəti artdı.

Səhərin saf və gözəl havası, güllərin və meyvələrin ətri, quşların nəğməsi insanı biruh edirdi. Böylə təbiət içində pərvəriş tapmış Piri kişiyə baxanda adam onun yetmiş sənə olmağına inanmayırdı.

Bunlar gəlib almalığa çatdılar. Ətirli, qırmızı almaları gördükdə Qaraca qızın gözləri işıqlandı.

- Baba, nə gözəl almalardır!

- Pəs, qızım, bağımızda hər cür meyvə var, sənə dərib yeməyə qadağan etməyirəm, ancaq ac qarına yeməyəsən, yoxsa azarlarsan. İmdi sən çıx ağaca alma dər və yerə at, bən də səbətə yığım; Qaraca qız xeyli çabuk ağaca dırmaşdı, almaları dərib yerə tökməyə başladı və ağzını da bikar qoymayırdı. Qaraca qız böylə gün keçirtməyə çox şad idi: Piri kişi onu öz övladı kibi istəyir, bir zəhmətli işi yox, özü də böylə gözəl bir bağda yaşayır, hansı meyvədən istəsə, dərib yeməgə ixtiyarı var. Daha bundan da gözəl dolanmaq olarmı!

Qızım, daha bəsdir, düş, gedək bir qədər də armud, üzüm və hulu yığaq.

Qaraca qız düşdü və almaları səbətə doldurub, armud və şaftalı xiyabanlarına getdilər. Qaraca qız almalardan cəvərənə qoyub yenə Qara köpəyin boynuna asdı. Bir qədər getməmişdilər ki, birdən Qara köpək cəvərəni yerə atıb yıldırım kibi götürüldü. Qaraca qız almaları yerdən yığarkən baxıb gördü ki. bir balaca pişik qaçır, Qara köpək də istəyir onu dutsun. Bunu görcək Qaraca qız cəld qalxıb yügürə-yügürə Qara köpəyi geri çağırdı. Lakin nə qədər qışqırdı isə, o, pişikdən əl çəkmədi. Piri kişi də çağırdı. Qara köpək onun sözünə də qulaq asmadı. Qara köpək az qalmışdı ki onu duta, qoçaq pişik bir saniyədə armud ağacına dırmaşıb özünü qızmış Qara köpəkdən xilas edə bildi. Qaraca qız bu işdən xeyli şad oldu, əllərini biri-birinə vura-vura şaqqıltı ilə güldü.

- Dızz, Qara köpək, dızz! Necəsən, duta bildinmi? – deyib Qara köpəyə acıq verdi.

Qara köpək işi böylə gördükdə ağacın dibində öylə bir həşr etməyə başladı ki, deyəsən, bu saət pişiyi səs ilə qorxudub yerə salacaq. Yazıq pişik hərçənd hündürdə və əl çatan yerdə deyildi, bunu ilə böylə gözlərini ditrəyə-ditrəyə Qara köpəkdən çəkə bilməyirdi. Qaraca qız özünü ağaca yetirib oraya dırmaşmağa başladı. Pişik bunu görüb dutduğu budaqdan yuxarı çıxmadı. Qaraca qız ona yaxınlaşıb gördü ki, bu xal-xal pişik bir gözəl pişik balasıdır. Piri kişi də Qaraca qızın almalarını cəvərənə doldurub armud ağacının dibinə gəldi. Bu halda Qara köpək bir qədər sakit olmuşdu, amma yenə də gözləri ağacda idi.

- Baba, nə gözəl balaca pişikdir, bunu evimizə aparıb saxlayacağam!

- Çox yaxşı, qızım, apar! İmdi o armudlardan dər yerə at, sonra da düş!

Qaraca qız armudlardan dərib pişiyi qucağına alaraq yerə düşdü. Qara köpək əvvəl özünü bir qədər rahətsiz saxlayırdısa da, sonra Qaraca qızın səyi ilə bilmərrə sakit oldu və axırda pişiyə dəyməyib, onun ilə dostluq binasını qoydu.

Piri kişi üzüm yığandan sonra dedi:

- Qızım, daha bəsdir, imdi bunları gərək ağalara aparaq, qapıya kibi bənə kömək et, sonra bən özüm apararam.

- Baba, məgər bən ağalığa gedə bilmərəmmi?

- Niyə? Gedə bilərsən, qızım, ancaq Pəricahan xanıma xoş gəlməz, öylə bilər ki, onun əmrindən çıxırıq.

Qaraca qız Piri kişini bağın qapısına kibi ötürüb özü xal-xal pişiyi qucağında geri qayıtdı. Ancaq komalarına getməyib bağı gəzməyə başladı. Çəpərin qırağı ilə gedərkən gördü ki, Ağca xanım bağçada bonası ilə iskamyanın üstündə əyləşib kitab oxuyur. Görünürdü ki, Ağca xanım kitabı fikirlə oxumayır və oxuduğunu da sevməyirdi. Bu halda bir gözəl kəpənək gəlib Ağca xanımın oturduğu iskamyanın başına qondu. Ağca xanım gizlincə əlini atdı ki, kəpənəyi dutsun. Amma duta bilmədi. Bunu bona görüb çox acığı dutdu və hirsli Ağca xanımın əlindən dutub evə apardı. Qaraca qız bir müddət dayandı ki, görsün Ağca xanım yenə bağçaya çıxacaqmı? Bir azdan sonra bona yalnızca gəlib iskamyanın üstündə əyləşdi və kitab oxumağa məşğul oldu. Qaraca qız duydu ki, bunna Ağca xanımı evə salıb. Dustaq edib. Bu işdən rəhmdil Qaraca qız nə qədər Ağca xanıma yürəgi yandı, yazığı gəldisə də, bir o qədər bonaya düşmənçiliyi artdı.

(Ardı var...)

BAŞ REDAKTOR:
Məhəmməd BAHARLI

MƏSUL KATİB:
Vaqif ALKƏRƏMOV

ŞÖBƏ REDAKTORLARI:
Oqtay ABBASOV
Soltan HÜSEYNOĞLU

REDAKSİYA HEYƏTİ:
ANAR
Ağamusa AXUNDOV
Ənvər ABBASOV
Nizami CƏFƏROV
Nurlana ƏLİYEVA
Qənirə ƏMİRCANOVA
Tofiq HACIYEV
İsa HƏBİBBƏYLİ
Nizami XUDİYEV
Qəzənfər KAZIMOV
Əsgər QULİYEV
Şəmistan MİKAYILOV

Ünvan: Bakı-10, Dilarə Əliyeva küçəsi, 227, 6-cı mərtəbə, otaq 608.
Telefonlar: 498-55-33; 493-06-09. Faks: 498-55-33.
E-mail: mehemmed-baharli@mail.ru
Kağız formatı 60x84 1/8. Uçot nəşr vərəqi 5.
Şərti çap vərəqi 6,3.

Jurnal Azərbaycan Respublikası Mətbuat və İnformasiya
Nazirliyində qeydə alınmışdır. Qeydiyyat nömrəsi 191.
Lisenziya V 236.
Jurnal Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının
"Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə
edilən dövri
elmi nəşrlərin siyahısı"na daxildir.

Jurnal ildə 4 dəfə çıxır. O, redaksiyanın kompüterində yığılır,
«Elm və təhsil» nəşriyyat-poliqrafiya müəssisəsində çap olunur.
Çapa imzalanıb 30.09.2015.
Jurnala abunə mətbuat yayımı şöbələrində aparılır.
Bir nüsxənin abunə və satış qiyməti 2 manatdır.

İNDEKS 1012

"Azərbaycan dili və ədəbiyyatı tədrisi" jurnalına məqalə göndərən müəlliflərəin nəzərinə

Jurnalın yaradıcı heyəti müəlliflərə əvvəlcədən təşəkkür edir və məqalələr hazırlanarkən aşağıdakı qaydalara əməl edilməsinin vacib olduğunu bildirir:

1. "Azərbaycan dili və ədəbiyyatı tədrisi" jurnalında təhsilin bütün pillələrini əhatə edən elmi-metodik məqalələr dərc olunur.

2. Məqalələrin məzmunu jurnalın profilinə uyğun olmalı, problemin aktuallığı, elmi və praktik dəyəri, irəli sürülən nəzəri ideyalardan təcrübədə istifadə imkanları öz əksini tapmalıdır.

3. Məqalə yazı və elektron formasında (maqnit diskləri – 1,44 MB, CD, fləş) qəbul edilir. Materialın həcmi 6 səhifədən az, 15 səhifədən çox olmamalı (A-4 formatında, interval – 1,0; şrift – Times New Roman, öıçü – 12pt), Microsoft Word proqramında yığılmalıdır (Word – 98 və sonrakı versiyalarda).

4. Məqalənin adı və xülasəsi (4-8 sətirlik, interval – 1, ölçüsü – 12pt) bir-birinin eyni olmaqla üç dildə - Azərbaycan, ingilis, rus dillərində, mətni isə bu dillərin birində verilməlidir.

5. Mövzu ilə bağlı elmi mənbələrə istinad olunmalı, bu zaman son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. üstünlük verilməli, ədəbiyyatlar mətndə rast gəlindiyi ardıcıllıqla nömrələnməli, məsələn, [1] və ya [1. s.109] kimi işarə olunmalıdır.

6. Məqalədə müəllifin adı,soyadı, vəzifəsi, elmi dərəcəsi, rütbəsi, əlaqə telefonu, vacib hesab etdiyi digər məlumatlar göstərilməlidir.

Müəllifin şəkli fotokağızda və ya elektron formada ola bilər.

7. Məqalə redaksiyaya ya şəxsən təqdim edilməli, ya sifarişli məktub şəklində poçtla göndərilməli, ya da e-mailə ötürülməlidir.

8. Hər bir məqalədə müvafiq indeks və ya kodlar, habelə xülasələrin yazıldığı üç dildə açar sözlər verilməlidir.

9. Material seçilərkən jurnalın redaksiya heyətinin və yaradıcı əməkdaşların müzakirələrindən sonra dərc olunması tövsiyə edilən, mövzu baxımından aktuallıq kəsb edən, həmin sahə üzrə tanınmış mütəxəssislərin müsbət rəyi olan yazılara üstünlük verilir.

10. Dərc olunmayan yazıların orijinal variantı redaksiyada saxlanılır.

11. Məqalələrin çapı üçün müəlliflər pul ödəmir və onlara qonorar verilmir.